HEYDƏR

# ƏLİYEV

## MÜDRİK FİKİRLƏR

İYUN 1993-1998 OKTYABR

BİRİNCİ KİTAB

- 8227 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI, 2008

ÜMUMMİLLİ, ÜMUMBƏŞƏRİ FİKİRLƏR

Xalqımızın müəyyən bir dövr tarixi və taleyi ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, həyatının bütün dövrlərində həmişə öz xalqı ilə birlikdə olmuş, onun bir millət və dövlət kimi inkişafı naminə həyatını belə əsirgəməmişdir. Uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi, sonradan isə Prezident kimi 30 ildən çox respublikaya rəhbərlik etmiş, yeni, müstəqil Azərbaycanın qurucusu kimi tarixə daxil olmuşdur.

Heydər Əliyev böyük siyasi lider, müdrik bir insan olaraq tarixi hadisələrin gedişatını əvvəlcədən müəyyən etməyin mahir bilicisi və böyük ustası idi.

O, məhz bu nadir keyfiyyətləri ilə millət, tarix və dövlətçilik üçün böyük əhəmiyyət daşıyan qərarların qəbul edilməsində əsl vətəndaş, dahi rəhbər mövqeyi nümayiş etdirdi.
Respublikanın ən ağır dövründə Prezident və ümummilli lider missiyasını bir daha zəfərlə yerinə yetirdi: ölkədə sabitliyi bərqərar etdi, yeni Konstitusiya yaratdı, bir çox xarici ölkələrlə vacib, taleyüklü sazişlər və müqavilələr bağladı, uşaqların, qocaların, qaçqın və köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılmasına yönəlmiş fərmanlar imzaladı.
İndi inamla söyləmək olar ki, məhz Heydər Əliyev Azərbaycanı demokratiya və müstəqillik yoluna çıxardı. Çox şübhəsiz ki, bu yol tarixdə yalnız onun adı ilə bağlı qalacaqdır. Heydər Əliyev işıqlı təfəkkür, çevik düşüncə, müdrik zəka sahibi idi. İki hissədən ibarət olan "Heydər Əliyev. Müdrik fikirlər" toplusuna daxil edilmiş deyimlər ulu öndərin 1993-2003-cü illərdə müxtəlif məsələlərə həsr olunmuş rəsmi çıxışlarından, müsahibələrindən, məktublarından seçmələrdir.
Bu kiitab çoxillik həyati təcrübədən xəbər verməklə yanaşı, müasir Azərbaycanın gerçəkliyini, xalqımızın mədəni-mənəvi və intellektual həyatını əks etdirir.

Yığcamlığı, dəqiqliyi, aydınlığı ilə seçilən bu fikirlər konkret dövrdə konkret hadisələrlə bağlı söylənilsə də, ümummilli, ümumbəşəri məna kəsb etməkdədir.

Mehriban Əliyeva,
Heydər Əliyev Fondunun prezidenti

HEYDƏR

# ƏLİYEV

## MÜDRİK FİKİRLƏR

İYUN 1993-1998 OKTYABR

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA HAQQINDA

# DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA HAQQINDA



*Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir.*

*Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır.*

*Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik.*

*Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır.*

*Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm.*

*Azərbaycanı parçalamaq Azərbaycanın daxilində və xaricində olan düşmənlərin uzun illərdən, bəlkə də əsrlərdən bəri ən bəd niyyəti, istəyi, arzusu olmuşdur.*

*Azərbaycan müstəqil dövlətdir və öz müstəqil daxili və xarici siyasətini yeridir.*

*Azərbaycan Respublikasının müstəqil dövlət olması tarixi bir hadisədir. Biz, Azərbaycanın indiki nəsli bu imkanlardan bütün sahələrdə səmərəli istifadə etməliyik.*

*Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır.*



8227



*Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir.*

*Əgər indi dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk addımlarına bənzəyirsə, bir neçə ildən sonra dövlətimiz, ölkəmiz, xalqımız güclü, iradəli addımlarla irəliləməli, böyük inamla hərəkət etməlidir.*

*Azərbaycan dövləti özünü və respublikanı qorumağa qadirdir.*

*Azərbaycan müstəqil dövlətdir və biz birinci növbədə ərazi bütövlüyümüzü təmin etməliyik. Müstəqil dövlət öz ərazisinin sahibi olmalıdır.*

*Azərbaycanın dövlət quruluşu, daxili siyasəti müstəqil dövlətə xas olan quruluş və siyasətdir, yəni Azərbaycan artıq müstəqil bir dövlətdir.*

*Dövlət quruluşunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir.*



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*Müstəqil dövlət kimi, Azərbaycan daxili və xarici siyasətini qurarkən öz mənafelərini əsas tutur. Həm də bu zaman, əlbəttə, Azərbaycan xalqının milli xüsusiyyətləri, tarixi keçmişi və milli ənənələri, eyni zamanda dövlət quruculuğu sahəsində dünya təcrübəsi, beynəlxalq təcrübə nəzərə alınır.*

*Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir.*

*Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə xəyanət etmək istəyən hər bir şəxs Allahtaalanın əmri ilə lazımi cəzasını alacaqdır.*

*Biz Azərbaycanı istər ictimai-siyasi cəhətdən, istərsə də iqtisadi cəhətdən inkişaf etmiş, demokratik prinsiplər əsasında qurulmuş bir dövlət kimi dünyada tanıdacağıq və müstəqil Azərbaycan dünya birliyində öz layiqli yerini tutacaqdır.*

*Hamı Azərbaycan Respublikasının milli mənafeyini, dövlətçiliyin, müstəqilliyin qorunmasını hər şeydən üstün tutmalıdır.*





*Dövlətçiliyi qorumaq əzmi xalqımızın yenilməz iradəsinə əsaslanır.*

*Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.*

*Bu dövlət özümüzün, Azərbaycan xalqının doğma dövlətidir, doğma dövlət strukturlarıdır. Hər bir azərbaycanlı anlamalıdır ki, biz müstəqil Azərbaycan dövləti qururuq və qarşımızda böyük yol var. Bu yolu keçmək üçün və ali məqsədlərə nail olmaq üçün indi gərək hər şeyi saf, təmiz mənəviyyat üzərində quraq.*

*Azərbaycanın dövlət müstəqillyi, milli azadlığı əbədidir.*

*Azərbaycanın hər bir vətəndaşı dövlət üçün əzizdir.*

*Azərbaycan Respublikasının müstəqil dövlət kimi yaxşı bünövrəsi var. Onun bünövrəsi də Azərbaycan dövlətinin və dövləti idarə edənlərin dövlət müstəqilliyinə, milli azadlığa olan sədaqətidir.*

*Azərbaycanın milli dövlət ideologiyası ölkəmizin müstəqilliyini təmin etməkdən və Azərbaycanda demokratik dövlət qurmaqdan ibarətdir.*

*Biz dövlət müstəqilliyimizi göz bəbəyi kimi qoruyacağıq, onu möhkəmləndirəcəyik, onu əbədi edəcəyik.*

*Ölkələrlə möhkəm və səmimi dostluq münasibətləri yaradılması bizim üçün çox vacibdir və bu cür hər bir addım dövlət müstəqilliyimizin bərqərar olduğuna, Azərbaycanın suverenliyinin möhkəmləndiyinə sübutdur.*

*Azərbaycanın müstəqil dövlət kimi çox gözəl gələcəyi var. O gözəl, o xoşbəxt, o firavan gələcəyə biz hamımız birlikdə getməliyik. Bu gələcəyə nail olmaq üçün biz hamımız çalışmalıyıq.*

*Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.*





*Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti - dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.*

*Bu gün müstəqil Azərbaycan qüdrətli, özünü qorumağa qadir olan dövlətdir.*

*1970-ci illərdə görülən işlər, yaranan bu böyük iqtisadi, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyini əlimizdə bu qədər möhkəm saxlaya bilməzdik.*

*Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.*

*Biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq.*

*Müstəqil dövlətimiz əsrlər boyu yaşayacaqdır.*

*Azərbaycan dövlətinin daxili və xarici siyasəti xalqımızın iradəsinin beynəlxalq aləmdə təsdiqinə, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə xidmət edir.*

*Bizim qarşımızda duran əsas məqsəd, vəzifə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarətdir.*

*Xalqımızın həm fiziki sağlamlığını, həm şüuri, mənəvi sağlamlığını təmin etmək dövlətimizin ali məqsədi, vəzifəsidir.*

*Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir və bu, hər bir azərbaycanlı üçün ən böyük xoşbəxtlikdir.*

*Hər bir azərbaycanlının milli borcu, vəzifəsi respublikamızın dövlət müstəqilliyini qoruyub saxlamaqdır. Azərbaycanı azad, sərbəst, müstəqil dövlət kimi inkişaf etdirməkdir.*

*Qətiyyətlə bildirirəm ki, öz müstəqilliyi illərində Azərbaycan suveren dövlət kimi formalaşması üçün böyük yol keçmiş, hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu qətiyyətlə tutaraq böyük çətinlikləri aradan qaldırmış və aradan qaldırmaqda davam edir.*





*Torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın gələcək xoşbəxt günü gəlib çatacaqdır.*

*Dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir və bu tarixi nailiyyəti qoruyub saxlamağı biz özümüzün ali vəzifəmiz, ən yüksək borcumuz hesab edirik.*

*Azərbaycan daim müstəqil olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı sarsılmazdır, dönməzdir... Azərbaycan demokratiya, azadlıq yolu ilə gedəcəkdir. Azərbaycanın tutduğu yol - demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolu bizim yolumuzdur. Biz bu yoldan heç vaxt dönməyəcəyik. Bu yolla sona qədər gedib Azərbaycanı dünya birliyində layiqli bir səviyyəyə gətirib çıxaracağıq.*

*Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik.*

*Azad Azərbaycan Respublikası müstəqil dövlət kimi bundan sonra əsrlər boyu yaşayacaqdır.*

*Azərbaycan Respublikasının dövlət müstəqilliyi, bu gün mövcud olan dövlət müstəqilliyi böyük sınaqlardan keçibdir.*

*Azərbaycanda dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir.*

*Dövlət müstəqilliyinin təşəkkül tapması mürəkkəb prosesdir, heç də sadə proses deyildir.*

*Azərbaycanda demokratik, hüquqi dövlət qurulur, bu dövlət artıq mövcuddur və bu dövlət, hökumət, bu dövlət quruluşu Azərbaycanın bütün ərazisinə nəzarət edir və Azərbaycan xalqının verdiyi bütün səlahiyyətləri həyata keçirir.*

*Biz dövlət müstəqilliyimizi çox əziz tuturuq və öz dövlət müstəqilliyimizi möhkəmləndirmək, inkişaf etdirmək üçün hər şeyi edirik.*

*Azərbaycan dünyəvi dövlətdir.*

*Azərbaycanın müstəqilliyini qoruyan dövlətin atributlarının hər biri bizim üçün əhəmiyyətlidir, hər birinin böyük məsuliyyəti var.*





*Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç yana əyə bilməsin, heç bir dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır.*

*Birinci dərəcəli məsələ, birinci dərəcəli vəzifə ümumxalq, ümummilli mənafeyimizdir.*

*Azərbaycan tam müstəqil dövlətdir, müstəqilliyini qorumağı özünün əsas vəzifəsi hesab edir. Dövlətimizin ərazisində heç bir başqa ölkənin silahlı qüvvələri, hərbi bazaları yoxdur. Azərbaycan müstəqil olaraq özü öz sərhədlərini qoruyur.*

*Azərbaycan müstəqil və demokratiya yolu ilə gedən bir dövlət kimi gəncdir.*

*Azərbaycan dövlət müstəqilliyi yolu ilə inamla gedir, bundan sonra öz dövlət müstəqilliyini əldən verməyəcəkdir.*

*XXI əsr Azərbaycanın yüksəliş əsri olacaqdır.*

*Dövlət müstəqilliyinə nail olmaq Azərbaycan xalqı üçün tarixi hadisədir və o, öz dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmlətmək, Azərbaycanın hər hansı digər bir dövlətin hakimiyyəti və ya tabeliyi altında bir daha olmaması üçün bu müstəqilliyin pozulmasına yol verməmək əzmindədir.*

*Biz tam müstəqil bir dövlətik. Azərbaycan dünya birliyində müstəqil dövlət kimi özünəməxsus yer tutur. Bunun mənavi əhəmiyyəti maddi əhəmiyyətindən daha da çoxdur.*

*Məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyi hər bir cocuqda, yeniyetmədə daxildən olmalıdır. Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir.*

*Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq tək rəsmi yerlərdə yox, idarələrdə, küçələrdə, saraylarda, məktəblərdə yox, gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun.*





*Hər bir müstəqil dövlət müstəqil olmaq üçün bir neçə amillərə malik olmalıdır - onun müstəqil yaşaması üçün ərazisi, iqtisadiyyatı, təbii sərvətləri olmalıdır, müstəqil dövləti qoruyan ordusu olmalıdır, daxili vəziyyəti qoruyan qüvvələri olmalıdır, silahı, pulu, valyutası olmalıdır. Bunlar olmasa, müstəqil dövlət ola bilməz.*

*Azərbaycan müstəqil dövlət kimi ayaq üstündə möhkəm dayanan və öz suverenliyinin, öz dövlət müstəqilliyinin, öz milli azadlığının keşiyində möhkəm dayanan bir dövlətdir.*

*Hər bir lider öz dövlətinin müstəqil yaşamasını təmin etmək və onun milli mənafelərini qorumaq istəyir. Öz xalqı üçün bu məqsədləri güdən hər bir sağlam düşüncəli siyasətçi bu başlıca amillə hesablaşmaya bilməz.*

*Bizim yolumuz Azərbaycanda dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyub saxlamaq, onu günü-gündən möhkəmləndirmək, dönməz, sarsılmaz, əbədi etməkdən ibarətdir.*

*Xalq ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi dövlət müstəqilliyimizin bu gün də, gələcəkdə də əsasını təşkil edir.*

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra öz xalqına xidmət etmək hər bir azərbaycanlı üçün böyük şərəfdir.*

*Görülən işlər və əldə olunmuş bəhrələr yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və Azərbaycan dövlətinin bu müstəqillikdən, azadlıqdan istifadə edərək apardığı doğru, düzgün, düşünülmüş daxili və xarici siyasətin parlaq nəticəsidir.*

*Azərbaycan sərhədlərinin bütövlüyü, ərazi bütövlüyü bizim üçün müqəddəsdir.*

*Azərbaycan müstəqil dövlətdir, xalqımız öz taleyinin sahibidir.*

*Bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir.*

*Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir.*





*Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir.*

*Bizim övladlarımız, balalarımız azad, sərbəst, müstəqil Azərbaycanda firavan yaşayacaqlar.*

*Müstəqil Azərbaycan Respublikası öz müstəqillik yolu ilə çox inamla gedir.*

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik, hüquqi cəmiyyət qurmaq yoludur. Biz bu yolla gedirik və gedəcəyik. Bizi bu yoldan heç kəs döndərə bilməyəcəkdir!*

*XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük bir addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur.*

*Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.*

*Sovet İttifaqının dağılması çox yaxşıdır. Çünki bunun nəticəsində Azərbaycan dövlət müstəqilliyi əldə etdi, müstəqil bir dövlət oldu. Bu, Azərbaycan üçün tarixi bir nailiyyətdir.*

*Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsini tarixi nailiyyət hesab edir. Bu, xalqımızın uzun illər, əsrlər boyu həsrət çəkdiyi, arzusunda olduğu milli azadlıqdır, müstəqillikdir.*

*Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir.*

*Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq.*

*Tam müstəqillik, əsl suverenlik barədə heç bir şüar, bəyannamə, istər böyük, istərsə də kiçik, xalqların real tələbatını əvəz edə bilməz.*

*Müstəqillik heç kəsə, heç bir təşkilata mənsub deyildir. Müstəqillik xalqa mənsubdur. Bu, tarixin, taleyin xalqa bəxş etdiyi böyük bir nemətdir.*





*Müstəqilliyi əldə etmək siyasi nöqteyi-nəzərdən o demək deyil ki, müstəqillik tamamdır və dönülməzdir. Müstəqilliyi inkişaf etdirmək, möhkəm saxlamaq, bütün sahələrdə tətbiq etmək lazımdır.*

*Biz müstəqillik şəraitində həyatımızın bütün sahələrini vətəndaşlarımızın tələbatına uyğun olaraq inkişaf etdirməli, qurub yaratmalıyıq.*

*Azərbaycan müstəqillik yolundan dönməməlidir. Azərbaycan ilk dəfə əldə etdiyi bu fürsəti əldən verməməlidir, nəyin bahasına olursa-olsun, müstəqilliyini qoruyub saxlamalı və müstəqil dövlət kimi inkişaf etməlidir.*

*Hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, Azərbaycan Respublikasında siyasi sabitlik yaratmaq, qanun-qayda yaratmaq və Azərbaycan Respublikası vətəndaşlarının rahat yaşaması üçün şərait yaratmaq.*

*Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir.*

*Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi əldə saxlamaq, onu möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq və bütün vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat tərzi təmin etmək daha çətindir.*

*Müstəqillik Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün əbədidir.*

*Azərbaycanın qarşısında duran əsas problem öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrini çıxarmaqdır.*

*Azərbaycan xalqı müstəqillik yolundan dönməyəcək və öz müstəqilliyini heç vaxt əlindən verməyəcəkdir.*

*Azərbaycanın müstəqilliyini saxlamaq asan bir iş deyil. Bunun üçün xalqımız, millətimiz siyasi dünyagörüşündən asılı olmayaraq bütün Azərbaycan xalqı bu gün bir məqsədə - Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa xidmət etməlidir.*





*Müstəqillik, milli azadlıq yolu uzun bir yoldur.*

*Biz müstəqillik yolu ilə gedəcəyik və bu yoldan dönməyəcəyik! Xalqımız bir daha heç vaxt öz milli azadlığından məhrum olmayacaqdır.*

*Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində nəyin bahasına olur-olsun, durmuşuq.*

*...Xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır.*

*...Azərbaycanın suverenliyi hər bir Azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir.*

*Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında, vətəndaş birliyi əsasında qoruyub saxlaya biləcəyik.*

*...Azərbaycan xalqının müstəqilliyini heç kim poza bilməz, xalqımız öz müstəqilliyini, öz dövlətçiliyini qorumağa qadirdir.*

*...Müstəqilliyin əldə olunması nə qədər çətin idisə, onun saxlanılması, daimi, yəni əbədi olması bundan da çətindir.*

*Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha da yaxşı yaşasın.*

*Nailiyyət üçün qətiyyət lazımdır. Nailiyyət üçün sərbəst fikir lazımdır. Nailiyyət üçün müstəqillik lazımdır. Müstəqil siyasət lazımdır.*

*Azərbaycanın müstəqilliyi Azərbaycan Respublikasının dünya birliyində tutduğu yer ilə bağlıdır.*

*Biz özümüz öz taleyimizin sahibi olduğumuz kimi, özümüz də öz taleyimizi, öz müstəqilliyimizi qorumalı, Allahın bizə buyurduğu yolla gedərək öz yolumuzu açmalı və bu yolla irəliləməliyik.*

*Biz öz inamımızı itirməməliyik, məsləkimizdən, tutduğumuz yoldan çəkinməməliyik. Tutduğumuz bu yol Azərbaycanın müstəqilliyidir, milli*





*azadlığıdır, müstəqil Azərbaycanın müstəqil dövlət kimi əbədi olmasıdır. Tutduğumuz yol bizim mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə, tariximizə sədaqətimizdir.*

*Böyük-kiçikliyindən asılı olmayaraq, heç bir dövlət Azərbaycanın müstəqilliyini dayandırmaq üçün göstərdiyi təzyiqdən heç bir nəticə əldə etməyəcəkdir.*

*Müstəqillik yolu qədər çətin yol yoxdur.*

*Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində, şübhəsiz ki, xalqımızın hamısının – hərənin öz yeri, hərənin öz payı, hərənin öz xidməti var.*

*Biz bundan sonra daim azad, müstəqil Azərbaycanda yaşayacağıq.*

*Müstəqilliyimizi qoruyub saxlamaq üçün Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, qoruyub saxlamaq lazımdır.*

*Bizim borcumuz müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.*

*Biz müstəqilliyimizə, milli azadlığımıza qəsd olunmasına heç vaxt yol verməyəcəyik.*

*Müstəqillik hissi bizə xüsusilə yaxın və əzizdir. Sərhədlər bir ölkənin müstəqilliyini, suverenliyini təsdiq edən amillərdən biridir.*

*Azərbaycan öz müstəqilliyinin məhdudlaşdırılmasına və ya özünün hər hansı milli-dövlət hüquqlarından məhrum edilməsinə bir daha heç vaxt yol verməyəcəkdir.*

*Azad, milli azadlıq şəraitində yaşamaq, müstəqil yaşamaq, müstəqil olmaq, müstəqil, azad dövlətdə yaşamaq hər şeydən əzizdir, üstündür.*

*Müstəqillik əldə etmək, öz milli dövlətini qurmaq, milli dövlət quruculuğunu həyata keçirmək, ictimai-siyasi, iqtisadi sistemi yenidən qurmaq faktının özü böyük hadisədir, tarixi hadisədir.*

*Müstəqilliyi qorumalı, onun qədrini bilməli, onu möhkəmləndirməli və onun itirilməsinə heç vaxt yol verməməliyik.*





*Biz müstəqil olduğumuza görə, azad olduğumuza görə, ölkəmizin sahibi olduğumuza görə ölkəmiz haqqında, torpağımız haqqında, Vətənimiz haqqında, bizə etibar göstərən xalqın haqqında daim düşünməliyik. Ancaq və ancaq! Bizim başqa düşüncəmiz olmamalıdır.*

*Azərbaycan öz müstəqilliyini və suverenliyini çox ciddi şəkildə qoruyur.*

*Azərbaycanın müstəqillik, demokratiya yolu ilə inkişafı dönməzdir.*

*Hamımızın bir ideologiyası var: Azərbaycanın müstəqilliyi və müstəqilliyin əbədiliyi.*

*Bizim hamımızın məqsədi əldə etdiyimiz müstəqilliyimizi möhkəmləndirmək, qorumaq, saxlamaq olmalıdır.*

*Müstəqillik naminə biz hər şeyə dözməliyik, müstəqillik naminə hər çətinliyə, hər əzab-əziyyətə dözməliyik.*

*Müstəqillik bir bəyanatla olmur. Müstəqillik əməli işlə olur. Əməli iş də ondan ibarətdir ki, biz özümüz öz ölkəmizin, öz torpağımızın, millətimizin, taleyimizin sahibiyik.*

*Müstəqillik bizim üçün böyük nemətdir, bizə Allah-təala tərəfindən bəxş edilmiş böyük sərvətdir, biz bunu qorumalı, saxlamalıyıq.*

*Əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır.*

*Müstəqil Azərbaycanın dövlətçilik sahəsində yolu demokratiya yoludur, insan haqlarının qorunması yoludur.*

*Biz Azərbaycanda hüquqi, demokratik dövlət qururuq, dünyəvi dövlət qururuq. Bu, bizim strateji yolumuzdur. Biz bu strateji yolla gedirik.*





*Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüququn aliliyinin təmin olunması bizim əsas vəzifəmizdir.*

*Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulur, demokratik prinsiplər bərqərar olunur, insan hüquqları qorunur, mətbuat, söz azadlığı, siyasi plüralizm təmin edilir, iqtisadi islahatlar həyata keçirilir.*

*Hamımız bilməliyik ki, demokratik, hüquqi dövlət, cəmiyyət eyni zamanda intizam, hörmət və ehtiram, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir.*

*Bir müstəqil dövlət kimi Azərbaycan bəşəri dəyərlər əsasında demokratik, hüquqi dövlət quruculuğu, demokratik cəmiyyət quruculuğu yolu ilə gedir.*

*Dövlət quruculuğu sahəsində strateji yolumuz demokratik, hüquqi dövlət qurmaqdır, demokratik cəmiyyət yaratmaqdır, insan hüquqlarını qorumaqdır, demokratiyanı qorumaqdır, siyasi plüralizmə geniş imkanlar verməkdir, insan*

*azadlığını, vətəndaş azadlığını, insan hüquqlarının qorunmasını təmin etməkdir.*

*...Respublikanın daxilində aparılan siyasət – demokratiya, sərbəstlik, insan hüquqlarına hörmət, azadlıq, siyasi plüralizm – bunların hamısı Azərbaycanda hüquqi cəmiyyət yaradılmasına yönəldilmiş prinsiplərdir.*

*Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır.*

*Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir.*

*Siyasi plüralizm, demokratik prinsiplər siyasi əqidəsindən, milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, hər bir adama ictimai-siyasi həyatda fəal iştirak etməyə imkan verir.*

*Biz demokratik prinsiplərə riayət edərək, heç bir ictimai-siyasi hərəkatın meydana gəlməsinə etiraz etməmişik və etiraz etmirik.*

*Biz demokratiyanı inkişaf etdirərək, siyasi plüralizmə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm*





*cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətməliyik.*

*Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlara hörməti, sayğısı və qayğısıdır.*

*Bizim yolumuz demokratiya yoludur, biz demokratiya yolundan dönməməliyik.*

*Azərbaycan bundan sonra öz dövlətini demokratik prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar.*

*Referendum dünya təcrübəsində müəyyən, mühüm məsələləri dövlət səviyyəsində həll etmək üçün, xalqın rəyini öyrənmək üçün ən demokratik yoldur, ən demokratik tədbirdir.*

*Azərbaycan siyasi plüralizm, fikir azadlığı, insan azadlığı, vicdan azadlığı, söz azadlığı kimi prinsipləri həm dövlət siyasəti sahəsində, həm də siyasi-ictimai sahədə mühüm prinsiplər kimi həyata keçirmək yolu ilə gedir.*

*Azərbaycanın daxili həyatı, daxili siyasəti demokratiya, çoxpartiyalı sistem, siyasi plüralizm prinsipləri və şəxsiyyətin bütün azadlıqları əsasında qurulur.*

*Bizim daxili siyasətimiz hüquqi, demokratik dövlət, demokratik cəmiyyət yaradılmasına, Azərbaycanda demokratiyanın inkişafı üçün hər cür şəraitin təmin olunmasına, demokratik prinsiplərin, siyasi plüralizmin və çoxpartiyalı sistemin bərqərar edilməsinə, insan hüquqlarının müdafiəsinə, şəxsiyyətin azadlığının, söz, mətbuat, vicdan azadlıqlarının, milli mənsubiyyətindən, dini etiqadından, siyasi əqidələrindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının hüquq bərabərliyinin təmin olunmasına yönəldilmişdir.*

*Bu gün daxili siyasətdə fəaliyyətimizin əsas istiqaməti şəxsiyyət azadlığını, sərbəst sahibkarlığı, təşəbbüskarlığı təmin etmək əsasında, insan hüquqlarının qorunmasına möhkəm zəmanət verilməsi, siyasi plüralizmi, çoxpartiyalı sistemi təmin etmək zəminində demokratik, hüquqi dövlət, demokratik cəmiyyət qurmaqdır.*

*İctimai rəy ümumən obyektiv xarakter daşıyır.*

*Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş*





*özünü azad, sərbəst hiss etməlidir. Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik, hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir.*

*Ümumbəşəri dəyərlər dünyada geniş yayılır və dünyada bərqərar olur. Bunların arasında azadlıq, demokratiya və insan haqları ideyaları xüsusi yer tutur. İctimai-siyasi və dövlət quruculuğunda, iqtisadiyyatda və həyatın bütün sahələrində demokratik dəyişikliklər həyata keçirmək zərurəti çox ölkələr üçün ən vacib amil olmuşdur.*

*Demokratiya yolundan bizi heç kəs döndərə bilməyəcək.*

*Azərbaycanda, şübhəsiz ki, siyasi plüralizm var və olacaqdır.*

*Həyatımızın bütün sahələrini demokratikləşdirmək yolu ilə getməklə Azərbaycanı dünyanın sivilizasiyalı ölkələri sırasına çıxaracağıq.*

*Azərbaycanda demokratik prinsiplərin hamısı – çoxpartiyalı sistem, mətbuat azadlığı, insan azadlığı, insan haqlarının qorunması, vicdan, söz azadlığı bərqərar olubdur.*

*İnsan hüquqlarının müdafiəsi dövlət fəaliyyətinin təməl prinsiplərindən biridir. Milliyyətindən, dini etiqadından, siyasi əqidəsindən asılı olmayaraq, insanların hüquq bərabərliyi, siyasi plüralizm, mətbuat azadlığı - bunların hamısı Azərbaycanda təmin olunmuşdur.*

*Biz demokratik ölkə kimi inkişaf edirik. Bu, bizim strateji yolumuzdur. Demokratiya, insan azadlığı, siyasi plüralizm, bazar iqtisadiyyatı, insan hüquqlarının qorunması, ölkənin dünyaya açıqlığı, azadlığı, sərbəstliyi, xarici investorlarla əməkdaşlığı - bunlar hamısı bizim strateji məqsədlərimizdir. Biz bunları həyata keçiririk.*

*Demokratiyanı bizə heç kəs yuxarıdan tətbiq etməyibdir, verməyibdir. Demokratiya, demokratik quruluş bizim içimizdən gələn bir quruluşdur.*

*Demokratiya bizim üçün söz deyil, əməli işdir. Biz əməli işimizlə demokratiya yaratmışıq və bu demokratiyanı yaradırıq.*

*Bu gün də, gələcəkdə də həm Azərbaycanın Milli Məclisində, həm bütün hakimiyyət orqanlarında, həm də bizim cəmiyyətimizdə, xalqımızda sağlam prinsiplər əsasında, fikir müxtəlifliyinin, siyasi plüralizmin tamamilə bərqərar olması əsasında vətəndaş həmrəyliyi, vətəndaş birliyi həmrəyliyi olmalıdır.*





*Azərbaycanda demokratiyanın yaşaması, inkişaf etdirilməsi üçün bütün imkanlar yaradılıbdır. Mətbuat, vicdan, söz azadlığı, siyasi plüralizm – hamısı təmin olunub.*

*Azərbaycanda insan azaddır, müstəqildir, öz müstəqil fikrini hər yerdə ifadə edə bilər, heç kəs bunun qarşısını ala bilməz.*

*Biz Azərbaycanı tam demokratik dövlət səviyyəsinə qaldıracağıq, buna qadirik və nail olacağıq.*

*Azərbaycan bəşəri dəyərlər əsasında demokratik, hüquqi dövlət quruculuğu yolu ilə gedir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# ORDU QURUCULUĞU HAQQINDA

# ORDU QURUCULUĞU HAQQINDA

*Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.*

*Əgər biz indi Azərbaycanın qüdrətli ordusunu yaratmaq istəyiriksə, bu ordu yalnız və yalnız təcrübəli, bilikli, səriştəli, hərbi təhsilə malik olan zabitlər, hərbi qulluqçular tərəfindən yarana bilər. Hərbi işi bilməyən, hərbi təhsili olmayan, hərbi qulluqda olmayan adamlar qüdrətli, layiqli ordu yarada bilməzlər.*

*Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır.*

*Cəmiyyətimizdə bir silahlı dəstə ola bilər, o da dövlətin silahlı qüvvələridir.*

*Kim istəyirsə bizim müdafiə qüvvələrimiz möhkəmlənsin, hamı bir mərkəzdə – Müdafiə Nazirliyində, ordumuzda cəmlənməlidir.*

*Bizim ordumuz sağlam mənəviyyata malik adamlardan ibarət olmalıdır.*

*Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır.*

*Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. Bunun üçün də Azərbaycanın güclü ordusu olmalıdır. Bu, həm işğal olunmuş torpaqlarımızı düşməndən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təmin etmək üçün gərəkdir. Ona görə də orduya diqqət və qayğı göstərmək hər bir vətəndaşın şərəfli borcu olmalıdır.*

*Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir.*





*Ordu yaratmaq, onu həqiqi orduya, torpaqlarımızı etibarlı müdafiə edə bilən qüdrətli orduya çevirmək bizim müqəddəs borcumuzdur.*

*Bu gün biz cəsarətlə deyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var, Azərbaycanın qəhrəman Milli Ordusu var, Azərbaycanın dəyərli generalları, zabitləri var, Azərbaycanın mətin, qəhrəman, hazırlıq keçmiş əsgərləri var.*

*Azərbaycan Silahlı Qüvvələri öz hərbi, peşəkarlıq səviyyəsini artırmalıdır.*

*Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.*

*Bizim ordumuz daim Azərbaycanı müdafiə etməyə, ərazimizi qorumağa və işğal olunmuş torpaqlarımızı azad etməyə hazır olmalıdır.*

*Ordumuzun qurulması və gələcəkdə də inkişaf etməsi üçün, möhkəmlənməsi üçün gənclərimizin bədən tərbiyəsi və idmanla məşğul olması və respublikamızda idman işlərinin geniş miqyasda aparılması çox əhəmiyyətlidir.*

*Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq.*

*Vəzifəmiz torpaqlarımızı sülh yolu ilə azad etməkdir. Ancaq sülh danışıqlarını müvəffəqiyyətlə aparmaq üçün bizim güclü ordumuz olmalıdır.*

*Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir.*

*Milli Ordumuz qurulub, yaranıb, möhkəmlənibdir, Azərbaycan torpaqlarının keşiyində, eyni zamanda dövlətçiliyimizin keşiyində dayanıbdır.*





*Ordu xalqın ordusudur.*

*Ordu həqiqi Milli Ordu olmalıdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına, dövlətçiliyinə sadiq ordu olmalıdır.*

*Ordumuz sağlam ordu olmalıdır. Azərbaycan xalqının milli, mənəvi ənənələri əsasında tərbiyələnən, möhkəmlənən, hazırlanan və inkişaf edən ordu olmalıdır.*

*Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər.*

*Möhkəm, daimi sülh üçün müstəqil dövlətin güclü ordusu olmalıdır.*

*Nizam-intizam ordunun qüdrətinin əsasını təşkil edir.*

*Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.*

*Azərbaycan ordusu onun iftixarıdır. Biz ordumuzla fəxr edirik.*

*Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır.*

*Bizdə silah-sursat dövlətimizdə, orduda, hüquq-mühafizə orqanlarında, dövlət orqanlarında olmalıdır.*

*Yeni müstəqillik qazanmış dövlətlər arasında Azərbaycan yeganə ölkədir ki, onun ölkəsində heç bir xarici dövlətin silahlı qüvvələri yoxdur. Biz öz müstəqilliyimizi öz qüvvəmizlə qoruyub saxlamaq əzmindəyik və buna nail olmaq üçün hər şeyi edirik.*

*Müstəqil Azərbaycan Respublikasının ən vacib, ən böyük sahəsi onun Silahlı Qüvvələridir, Milli Ordusudur.*





*Hər bir dövlətin müstəqilliyinin rəmzi, təminatçısı onun silahlı qüvvələridir.*

*Etibarlı, güclü, vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz.*

*Nizami ordunun döyüş qabiliyyəti günü-gündən yüksəlməlidir. Azərbaycanın nizami ordusu, Milli Ordusu respublikamızın ərazi bütövlüyünün, torpaqlarının müdafiəsinin və dövlətimizin müstəqilliyinin tam qarantı olmalıdır.*

*Hər bir müstəqil dövlətin, ölkənin müstəqil yaşaması üçün güclü ordunun mövcudluğu zəruridir və biz də belə bir güclü orduya malik olmalıyıq.*

*Bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər.*

*Azərbaycanın daim sülh şəraitində yaşaması üçün, Azərbaycanın müstəqil dövlət kimi daim yaşaması üçün onun qüdrətli ordusu olmalıdır.*

*Ordunun qüdrəti təkcə silahda deyil, onun gücündə deyil. Ordunun əsas qüdrəti hər bir əsgərin xalqına, torpağına, vətəninə sədaqətindədir.*

*Ən böyük, ən müqəddəs vəzifə torpaqlarımızı etibarlı qorumaq, bizim torpağımıza qəsd edən hər bir qüvvəyə vaxtında, lazımi cavab verməkdən ibarətdir.*

*Azərbaycan Milli Ordusunun möhkəmlənməsi və inkişaf etməsi bu gün bizim qarşımızda duran ən zəruri vəzifələrdən biridir.*

*Bizim Milli Ordumuz möhkəmdir, güclüdür, mütəşəkkildir.*

*Müstəqil Azərbaycan Respublikasını bu gün də, gələcəkdə də qorumaq, onun sərhədlərini sarsılmaz etmək, işğal olunmuş torpaqlarımızı azad etmək üçün Azərbaycanın güclü milli ordusu, silahlı qüvvələri olmalıdır və Azərbaycan gəncləri orduda xidmət etməyi özlərinin ən ümdə, ən şərəfli borcu hesab etməlidirlər.*





*Müharibə etmək istəmirik, sadəcə olaraq, biz bir müstəqil dövlət kimi öz ölkəmizin ərazisinin etibarlı qorunması üçün müvafiq səviyyəli silahlı qüvvələrə malik olmaq istəyirik.*

*Ölkəmizdə nizami, peşəkar ordu yaranmışdır.*

*Azərbaycanın suverenliyini, dövlətçiliyini, müstəqilliyini və torpaqlarını qorumağa qadir olan güclü ordusu vardır.*

*Ordumuz xalqın qayğısı ilə əhatə olunmalıdır.*

*Hər bir əsgər ailəsinə xüsusi qayğı göstərilməlidir.*

*Hər bir əsgərə, hər bir zabitə hörmət etmək gərəkdir. Ordu xalqımızın bir hissəsidir. Döyüşçülərimiz bizi müdafiə edən, özünü şəhid edən, özünü güllə qabağına verən adamlardır.*

*Orduda xidmət etməkdən, Vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur. Azərbaycan xalqı öz ordusuna böyük hörmət və ehtiramla yanaşır.*

*Hər bir döyüşçü, bütünlükdə ordumuz diqqət və qayğı ilə əhatə edilməlidir.*

*Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.*

*Silahlı qüvvələrə, orduya qayğı, yardım hər bir nazirliyin, hər bir icra orqanının, hər bir dövlət orqanının, hər bir ictimai təşkilatın, vətəndaşın borcudur.*

*Ordumuzun möhkəmlənməsi həm bu gün Azərbaycanın müdafiəsi üçün lazımdır, həm də gələcəkdə müstəqil Azərbaycanın suveren bir dövlət kimi yaşaması üçün vacibdir.*

*Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.*

*Qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.*

*Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir.*





*Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.*

*Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.*

*Azərbaycanın Silahlı Qüvvələri də xalqın bir hissəsidir.*

*İndi biz öz doğma torpağımızı, müstəqil Azərbaycan dövlətini qoruyuruq, ona görə də peşəsindən, vəzifəsindən asılı olmayaraq, indi hər kəsdə, hər vətəndaşda bu hissiyyat daha güclü olmalıdır.*

*Vətənin müdafiəsi hər bir kəsin müqəddəs borcudur.*

*Vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır.*

*Hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur.*

*Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri – bunların hamısı birləşdirilməlidir.*

*Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir.*

*Hamı - hər bir əsgər, zabit öz yerində, öz sahəsində vəzifəsini şərəflə, namusla yerinə yetirməyə hazır olmalıdır.*

*Hərbi peşə, zabitlik peşəsi, Vətəni müdafiə işi müqəddəsdir.*

*İnsan həyatda çox peşələrlə məşğul ola bilər. Amma hər bir adam özünü hərbi işə, əsgəri işə, Vətəni müdafiə etmək işinə həsr edə bilməz. Bunu yalnız Vətənini həddindən artıq sevən, xalqına sadiq olan insanlar edə bilərlər.*

*Orduda xidmət etmək hər bir azərbaycanlının şərəfli borcudur. Orduda xidmət edən, əsgərlik borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.*





*Hərbi qulluq birinci növbədə nizam-intizam üzərində qurulur.*

*Hər bir Azərbaycan oğlu uşaqlıqdan orduda xidmət etməyi arzulamalıdır. O bunun üçün çalışmalı, tələsməli, orduda xidmət yaşının çatmasını həsrətlə gözləməlidir və orduda xidmət edərək Vətən, millət qarşısında öz şərəfli borcunu verməlidir.*

*Orduda, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır.*

*Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün onun güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.*

*Ordu gənclərdən yaradılmalıdır.*

*Hər bir vətəndaş orduya hörmətlə yanaşmalı, hər bir gənc hərbi xidməti özünə şərəf saymalıdır.*

*Azərbaycan gəncləri, gənc nəsil, Milli Ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər.*

*Gəncləri xüsusən milli vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyələndirmək lazımdır.*

*Hər bir ölkədə, o ölkənin ordusunda xidmət etmək hər bir gəncin vətəndaşlıq borcudur.*

*Hər bir gəncin orduya xidmətə getməsi onun ailəsində bayram olmalıdır.*

*Gənclər gedib orduda sədaqətlə xidmət etməlidirlər, hərə öz vətəndaşlıq borcunu, orduda xidmət etmək borcunu verməlidir. Ordunun güclənməsi, inkişaf etməsi Azərbaycan dövlətinin müstəqilliyinin əsas zəmanəti, əsas təminatıdır.*

*Hər bir gənc ailəsindən, ata-anasının tutduğu vəzifədən, yaxud da maddi vəziyyətlərdən asılı olmayaraq, Azərbaycan Milli Ordusunda xidmət etməlidir.*





*Orduda xidmət hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır.*

*Gənclər Azərbaycan dövlətinə, doğma torpağımıza sadiqdirlər. Ona görə də mən Milli Ordumuzun dövlətçiliyimizə, Vətənimizə sadiq olmasına inanıram.*

*Milli Ordumuzda xidmət etmək hər bir Azərbaycan gəncinin şərəfli vətəndaşlıq borcudur.*

*Orduda xidmət etməyən gənc cəmiyyətdə hörmət qazana bilməz.*

*Hər bir gəncin orduda xidmət etmək borcunu verməsi onun özünün vəzifəsidir, o gəncin valideynlərinin vəzifəsidir və bizim gənclər təşkilatımızın vəzifəsidir.*

*Hər bir gənc düşünməlidir ki, onun bu gün də, gələcəkdə də yaşaması, millətinin, müstəqil dövlətinin dünya birliyində əbədi yaşaması üçün birinci vəzifəsi orduda xidmət etmək, ordunun qüdrətini artırmaq olmalıdır.*

*Fərarilik xalqa düşmən olmaq deməkdir.*

*Fərariliklə mübarizə aparılmalı, onun qarşısı alınmalıdır.*

*Fərarilər başa düşsünlər – onlar öz mənliklərini alçaldırlar, Vətən qarşısında şərəfli borclarını yerinə yetirməkdən boyun qaçırırlar. Belələrini Vətən də, xalq da heç vaxt bağışlamaz. Dövlət də bağışlamayacaqdır.*

*Qoy fərarilik edənlər eşitsinlər ki, torpağımızı qorumaq hər bir azərbaycanlının şərəfli borcudur. Əgər bəziləri bunu anlamırlarsa, qorxurlarsa, hərbi xidmətə tab gətirə bilmirlərsə, onlar öz vicdanları, ata-anaları, Vətən qarşısında xəyanət edirlər.*

*Hər bir fərari ictimaiyyətdə, cəmiyyətdə nifrətlə qarşılanmalıdır, bilməlidir ki, əgər fərarilik edirsə, xalqına, millətinə, ölkəsinə, öz doğma ata-anasına xəyanət edir.*

*İdman nə qədər çox inkişaf etsə, gənclər bədən tərbiyəsinə nə qədər çox qoşulsalar, məktəblərdə bədən tərbiyəsi nə qədər geniş yayılsa, orduya gedən gənclərimiz bir o qədər sağlam olacaq, yüksək fiziki keyfiyyətlərə malik olacaqlar.*



HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR HAQQINDA

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR HAQQINDA



*Qarabağ məsələsi mürəkkəb məsələdir, lakin bu məsələ məhz ona görə mürəkkəbləşmişdir ki, vaxtında lazımınca həll edilməmişdir.*

*Yaşadığımız tarixi dövrün böyük çətinlikləri, ağırlıqları var, bizi kədərləndirən cəhətləri var. Bu da bizim həyatımızın gerçəkliyidir. Bu dövrü biz yaşamalıyıq, çətinliklərin, ağırlıqların öhdəsindən gəlməliyik, bu kədərlərdən xilas olmalıyıq. Bu kədərlər də ondan ibarətdir ki, xalqımıza, millətimizə, dinimizə düşmən olan qüvvələr tərəfindən, Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz baş veribdir.*

*Lissabon zirvə görüşündə qəbul olunmuş sənəd Ermənistan–Azərbaycan münaqişəsi tarixində Azərbaycanın hüquqlarını qorumaq üçün olan ilk sənəddir.*

*Ermənilərin, təəssüflər olsun ki, ən birinci düşmənçilik etdiyi millət türklərdir. Yəni Türkiyədir, Azərbaycandır və ümumiyyətlə, türklərdir.*

*Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır.*

*Müstəqillik təkcə siyasi xarakter daşımır. Müstəqillik tək ondan ibarət deyildir ki, bizi beynəlxalq təşkilatlar tanıyıblar. Müstəqillik birinci növbədə odur ki, işğal olunmuş torpaqlarımız geri qaytarılsın. Ona görə də hamı birləşməlidir. Hamı ayağa qalxmalıdır, hamı səfərbər olmalıdır.*

*Biz işğal olunmuş torpaqlarımızı geri qaytarmalıyıq. Müstəqil dövlət kimi öz dövlətimizin hüdudlarını qorumalıyıq, öz müstəqilliyimizi qorumalıyıq.*





*Ən böyük ümid, ən böyük arzu ondan ibarətdir ki, Azərbaycan müharibə vəziyyətindən çıxsın.*

*Hər şey cəbhə üçün, müdafiə üçün olmalıdır.*

*Qələbəni biz birlikdə təmin etməliyik.*

*Bizim bir məqsədimiz olmalıdır: respublikanın etibarlı müdafiəsini təmin etmək, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq.*

*Biz qan tökülməsinə tərəfdar deyilik. Biz müharibə tərəfdarı deyilik. Biz torpaqlarımızın sülh yolu ilə, danışıqlar vasitəsilə azad edilməsinə nail olmaq istəyirik.*

*Bir şeyə – torpaqlarımızın ermənilərin işğalı altında olmasına dözmək mümkün deyildir.*

*Azərbaycanlılar öz torpaqlarını yalnız özləri qorumalıdırlar.*

*Dünyada hər şeyin - dərdin də, əzabların da bir sonu var. O cümlədən məcburən qatıldığımız müharibənin də.*

*Öz torpaqlarımızı heç vaxt heç kəsə verməyəcəyik.*

*Torpaqlarımızı erməni qəsbkarlarından azad etmək, ərazi bütövlüyümüzü və sərhədlərimizin toxunulmazlığını təmin etmək, respublikamızın tam müstəqilliyinə nail olmaq hamımızın ən ülvi istəyidir.*

*Müharibədə kim güclüdürsə, o da qalib gəlir. Güclü olmaq üçün Azərbaycanın da imkanları çoxdur.*

*Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq.*

*Bizim siyasətimiz sülhsevər siyasətdir. Müharibəyə son qoymaq istəyirik, müharibəni sülhlə qurtarmaq istəyirik. Ancaq sülh ədalətli olmalıdır.*

*Biz məsələni müharibə aparmaqla deyil, sülh yolu ilə həll etmək istəyirik. Bununla bərabər ərazimiz etibarlı surətdə müdafiə edilməlidir. Əsas məqsədimiz torpaqlarımızı azad edib qaçqınları öz yerlərinə qaytarmaqdır.*





*Hər bir müharibənin sonu olmalıdır. Müharibənin sonu isə sülhdür. Amma sülh ədalətli olmalıdır. Bizim üçün sülh o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalı, respublikamızın suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır.*

*...Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çəkilməli, respublikamızın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməli, Azərbaycan dövləti öz ərazisinin hər bir nöqtəsində hakim olmalıdır.*

*Bizim həmrəyliyimiz ərazimizi etibarlı müdafiə etmək üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün lazımdır.*

*Biz özgələrinin ərazisinə göz dikməmişik, lakin bölgəmizdə sülh və sakitlik olmasına, Azərbaycan xalqının taleyinə dünya birliyinin ədalətli münasibət göstərməsinə çalışırıq.*

*Azərbaycanın ərazi bütövlüyünün, onun sərhədlərinin toxunulmazlığının, müstəqil Azər-*

*baycan Respublikasının suverenliyinin tamamilə təmin olunması bölgədə uzunmüddətli sülhü təmin edə biləcək mühüm şərtdir.*

*Azərbaycan müharibə etmək istəmir. Biz torpaqlarımızın müdafiəsinə qalxmışıq, Ermənistanın hərbi təcavüzünə qarşı, respublikamızın ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizə aparırıq.*

*Biz torpaqlarımızın azadlığını, ərazi bütövlüyümüzü təmin edəcəyik, müstəqil Azərbaycanın hüdudlarını bərpa edəcəyik.*

*Tam sülhə nail olmaq üçün Azərbaycanın ərazi bütövlüyü bərpa və təmin edilməli, beynəlxalq hüquq normalarının mühüm prinsipi kimi Azərbaycanın ərazi bütövlüyü hamı tərəfindən tanınmalı, işğalçı qoşunlar tutulmuş ərazilərdən çıxmalı, işğal olunmuş ərazilərin sakinləri doğma yerlərinə qayıtmalı, Ermənistan və Azərbaycan arasında möhkəm sülh yaradılmalıdır.*

*Bizim işimiz haqq işidir. Biz Azərbaycan Respublikasının müstəqilliyini qoruyuruq. Azərbaycanda hüquqi, demokratik dövlət qururuq. Müstəqil Azərbaycan ərazisinin bərpa olunmasına çalışırıq.*





*Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalı və müstəqil dövlət kimi Azərbaycan bütün ərazisinin sahibi olmalıdır, bütün ərazisinə, öz sərhədlərinə tam nəzarət etmək hüququna nail olmalıdır.*

*Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bərpa edilməli, təmin edilməli və qorunmalıdır.*

*Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olur-olsun, canımızın, qanımızın bahasına da olsa, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun, yerinə yetirəcəyik.*

*Azərbaycanın daxilində fikir azadlığı, söz azadlığı, dünya baxışlarında fərqlərin olması təbiidir. Bunlarla bərabər, Azərbaycanın ülvi məqsədlərinin ətrafında hamı birləşməlidir. Bu məqsədlər nədən ibarətdir: Azərbaycanın müs-*

*təqilliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü təmin etmək, Azərbaycanı Ermənistanın təcavüzündən xilas etmək.*

*Xalqımız bilməlidir ki, biz özümüz özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.*

*Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində olan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq.*

*Dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik. Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.*

*Biz ərazimizin hər bir qarışını qoruyacağıq, onun sahibi olmağa çalışacağıq. Əgər bu şərtlər çərçivəsində istəyimizə nail olmasaq, nəyin bahasına olur-olsun — canımızın, qanımızın, gücümüzün bahasına biz işğal olunmuş torpaqlarımızı azad edib Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik.*

*Biz torpaqlarımızın işğal altında qalmasına heç vaxt razı ola bilməyəcəyik. Ölsək də, ola bilər hamımız məhv olsaq da, torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmasına dözə bilməyəcəyik.*





*Hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, biz hər bir şeyə dözə bilərik, ancaq torpaqlarımızın işğal altında qalmasına dözə bilmərik və dözməməliyik.*

*Biz heç vaxt Azərbaycan torpaqlarının bir qarışını, bir metrini də əlimizdən verməyəcəyik.*

*Ermənistan–Azərbaycan münaqişəsinin həlli yalnız Azərbaycanın ərazi bütövlüyünün tanınması çərçivəsində həyata keçirilməlidir.*

*Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi bağlanmalı, bir-birinə qarşılıqlı inam yaranmalı, bir-birinə olan düşmənçilik, ziddiyyətlər aradan götürülməlidir, keçmiş əlaqələrimizi bərpa etməliyik. Yaralarımız nə qədər dərin olsa da, itkilərimiz nə qədər çox olsa da, bu itkilər bizə nə qədər ağır olsa da, biz irəliyə baxmalıyıq. Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri saxlamaq olmaz.*

*Azərbaycanla Ermənistan daim düşmən olacaq – bu, mümkün deyil, belə olmayacaqdır.*

*Zaman keçəcək, biz sülh əldə edəcəyik, qonşuluq münasibətlərimiz, ticarət və iqtisadiyyat sahəsində əlaqələr bərpa olunacaqdır. Bu həm Ermənistan, həm də Azərbaycan vətəndaşlarının, həm erməni xalqının, həm də Azərbaycan xalqının rifahı naminə olacaqdır.*

*Biz müharibə istəmirik, biz təcavüzə məruz qalmışıq.*

*Biz öz torpaqlarımızın, ərazimizin, sərhədlərimizin hamısının sahibi olmalıyıq.*

*Qonşularımıza bizim heç bir iddiamız yoxdur. Biz sərhədlərin dəyişdirilməsi mövqeyini tutmuruq və heç vaxt tutmayacağıq. Ancaq eyni zamanda biz sərhədimizin pozulmasına, Azərbaycanın ərazi bütövlüyünün tapdalanmasına heç vaxt yol verə bilmərik.*

*Biz heç vaxt ərazimizin bir qarışının da belə heç kəsə verilməsinə razı olmayacağıq. İşğal olunmuş torpaqlarımız nəyin bahasına olur-olsun, azad ediləcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaq.*

*Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, müstəqil Azərbaycan dövləti öz ərazisinin bütün hissələrinin sahibi olacaqdır.*





*Biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın.*

*Azərbaycan sülh istəyir, Azərbaycan öz ölkəsində, öz bölgəsində, regionunda sülh istəyir, bütün dünyada sülh istəyir. Azərbaycan Ermənistanla münaqişəyə son qoyulmasını, Ermənistanla uzunmüddətli, etibarlı sülh yaranmasını istəyir.*

*Azərbaycan heç kimin torpağına göz dikmir, amma öz torpaqlarının bir qarışını da heç kəsə verməyəcəkdir.*

*Biz Azərbaycanın suveren hüquqlarının tapdanmasına, onun ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik.*

*Sülh danışıqlarının əhəmiyyəti ondan ibarətdir ki, biz çətin, ağır yolla gedərək, böyük maneələri aradan qaldıraraq irəliləyirik. Sülh danışıqları, sülh prosesi hərəkətdədir və davam*

*edir. Biz öz ərazilərimizin bütövlüyünü bərpa edəcəyik.*

*...Hər bir Azərbaycan vətəndaşı, birinci növbədə Azərbaycanın dövlət orqanları qaçqınlara qayğı göstərməyi, onların problemləri ilə məşğul olmağı özlərinin ən müqəddəs, ən şərəfli vəzifəsi hesab etməlidir.*

*Hamının borcu yerindən-yurdundan didərgin düşmüş vətəndaşlara - bacı və qardaşlarımıza qayğı göstərməkdir. Biz azərbaycanlılar belə yaşamışıq: nəyimiz var, bir-birimizlə bölüşmüşük.*

*Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, öz yaşayış yerlərindən qovulmuş Azərbaycan vətəndaşlarını əvvəlki yerlərinə qaytarmaq bizim üçün ən ümdə vəzifədir.*

*Azərbaycan dövləti, Azərbaycan Prezidenti qaçqınlara, yerindən-yurdundan didərgin düşmüş insanlara qayğı göstərməyi özünün əsas vəzifələrindən biri hesab edir.*

*Xalqımızın haqq işi qalib gələcəkdir. Şəhid balalarımızın ruhlarının şad olacağı gün -*





*Vətən torpağının mənfur düşmən tapdağından tamamilə azad ediləcəyi və taleyinə qaçqınlıq, köçkünlük düşmüş həmvətənlərimizin öz doğma yerlərinə qayıdacaqları gün uzaqda deyildir.*

*Biz müharibə yox, sülh istəyirik. İstəyirik ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun, qaçqınlar öz doğma yurdlarına qayıtsınlar.*

*Evini-eşiyini, var-yoxunu itirib, yaxınlarını itirib, yayın qızmar vaxtında da, qışın şaxtalı vaxtında da çadırda yaşamaq böyük dözümlülükdür, böyük qəhrəmanlıqdır.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# KONSTİTUSİYA VƏ QANUNÇULUQ HAQQINDA

# KONSTİTUSİYA VƏ QANUNÇULUQ HAQQINDA



*Respublikanın bütün vətəndaşları Azərbaycan Konstitusiyasının, Azərbaycan Prezidentinin təminatı altındadır.*

*Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır.*

*Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir.*

*Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır, hər bir vətəndaşın Konstitusiyasıdır.*

*Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcəkdir və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövlətini gətirib çatdıracağıq.*

*Azərbaycanda hüquqi, demokratik cəmiyyət qurulur. Ölkəmizdə bütün məsələlər demokratik prinsiplər əsasında həyata keçirilir. Azərbaycanda hakimiyyət bölgüsü Konstitusiya yolu ilə həyata keçirilib, həll olunub.*

*Yeni müstəqillik qazanmış, bazar münasibətləri yolunu seçmiş, hüquqi, demokratik dövlət quran Azərbaycanın ilk demokratik Konstitusiyası ilə vətəndaşlara geniş hüquqlar verilmiş, ölkəmizdə söz və vicdan azadlığı təmin olunmuşdur.*

*Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, Konstitusiyasını pozmağa yol verməyəcəyik.*

*Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.*





*Konstitusiyamızın əsasında qəbul olunan qanunlar bu gün də, gələcəkdə də Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin inkişafını təmin edən əsas sənədlərdir.*

*Biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik.*

*Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Ədaləti ədalətlə bərpa etmək lazımdır.*

*Azərbaycan Respublikasında insan hüquqları bundan sonra da qorunacaqdır.*

*Qanun pozuntuları da, insan hüquqlarının pozulması da demokratiya prinsiplərinə ziddir.*

*Biz qanunun keşiyindəyik və onun çərçivəsində hərəkət edəcəyik.*

*Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.*

*Biz respublikamızda hüquqi, demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur.*

*Əgər biz demokratik dövlət qururuqsa, demokratiya yolu ilə gediriksə, deməli, heç kimin qanunu pozmağa ixtiyarı yoxdur.*

*İnsanların nə qədər böyük xidmətləri olsa da, onlar qanuna da bir o qədər itaət etməli, tabe olmalı, qanunu sevməlidirlər.*

*İnsanın hüquqlarının, şəxsiyyət azadlığının təmin edilməsi məsələsi və milliyyətindən, dilindən, dini etiqadından asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının öz hüquqlarından istifadə etmək imkanı bizim üçün əsas prinsipdir.*

*Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər.*

*Hər bir vətəndaşı, hər bir insanı qorumaq, onun hüquqlarını qorumaq bizim vəzifəmizdir.*

*Qanunlara əməl edilməsi hamı üçün eynidir.*





*Qanunsuz, hüquqa zidd olan hallardan heç birisi dəstəklənə və ya onlara yol verilə bilməz.*

*Əgər qanun-qayda, nizam-intizam yaranırsa, ən çətin hallarda da nailiyyət əldə etmək mümkündür.*

*Hər bir Azərbaycan vətəndaşı bərabər hüquqlara malikdir və öz hüquqlarından istədiyi kimi istifadə etmək imkanına malikdir.*

*Gərək heç kəs ədalətsiz olaraq heç bir məhrumiyyətə məruz qalmasın, heç kəsin hüququ tapdalanmasın, heç kəsin mənliyinə toxunulmasın, hər kəsin vətəndaş ləyaqəti qorunub saxlanılsın. Bu, bizim cəmiyyətimizin, dövlətimizin vəzifəsidir.*

*Bizim ölkəmizdə şəxsiyyət, insan hüquqlarının hamısı, siyasi plüralizm təmin olunmuşdur, partiyalar, siyasi-ictimai təşkilatlar və hərəkatlar sərbəst fəaliyyət göstərirlər.*

*Azərbaycanda bütün vətəndaşların hüquqlarının qorunması, Azərbaycan vətəndaşlarının sərbəst yaşaması üçün əmin-amanlığın təmin edilməsi bizim vəzifəmizdir.*

*Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir.*

*İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.*

*Azərbaycanda hər bir insanın hüquqları qorunur, onların azad, sərbəst yaşaması üçün hər cür şərait yaradılıbdır.*





# İQTİSADİYYAT HAQQINDA

# İQTİSADİYYAT HAQQINDA

*Bir müstəqil dövlət kimi Azərbaycan öz taleyinin, yeraltı və yerüstü sərvətlərinin sahibidir.*

*Azərbaycan Respublikası yeraltı və yerüstü sərvətlərlə zəngindir.*

*Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə gedəcəkdir.*

*İqtisadiyyat sahəsində bizim yolumuz sərbəst iqtisadiyyat yoludur, iqtisadi islahatlar keçirməklə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına yaxınlaşdırmaq yoludur.*

*Azərbaycan iqtisadiyyatı sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir və bu, müstəqil Azərbaycan Respublikasının iqtisadi sahədə strateji yoludur.*

*Keçid dövrünün vəzifəsi mövcud olan iqtisadiyyatı əldə saxlamaq və sərbəst iqtisadiyyat prinsipləri əsasında yeni iqtisadi sistem qurmaqdır ki, həmin sistem bizə daha artıq səmərə versin.*

*Azərbaycanın iqtisadi potensialı, geopolitik-coğrafi vəziyyəti respublikamız, xalqımız üçün böyük, gözəl, xoşbəxt gələcək təmin edir.*

*Bizim çox münbit torpaqlarımız var və bu, xalqımızın milli sərvətidir.*

*İqtisadi islahatlar keçirməli, kənd təsərrüfatının idarə olunmasını, mülkiyyət formasını dəyişdirməliyik. Bu, ümumən iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında strateji yolumuzdur.*

*Bizim tutduğumuz strateji yol Azərbaycan xalqının mənafeyinə uyğundur və xalqımızı, respublikamızı dünya birliyinə, dünya iqtisadiyyatına bağlayan yoldur.*





*İqtisadi qanunlar, prinsiplər əsasında işi qurmalıyıq ki, bu gözəl torpağımızdan, mövcud iqtisadi potensialımızdan səmərəli istifadə edək.*

*Torpaqdan, kənd təsərrüfatının potensialından səmərəli istifadə olunmalıdır.*

*İqtisadiyyat birinci növbədə istehsalla bağlıdır.*

*Azərbaycan dövlətinin iqtisadi sahədə siyasəti iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə qurmaqdan və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlamaqdan ibarətdir.*

*Dövlətin əlində olan mülkiyyət, iqtisadi potensial xalqın zəhməti, vəsaiti ilə yaranmışdır, xalqa məxsusdur.*

*Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmləndirmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır.*

*Respublikamızın, xalqımızın xoşbəxtliyi ondan ibarətdir ki, zəngin təbii sərvətlərimiz var, böyük iqtisadi potensialımız var, intellektual potensialımız var.*

*İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdir.*

*Azərbaycanın zəngin təbii sərvətləri var, böyük sənaye potensialı var, güclü intellektual potensialı var.*

*Gələcəkdə Azərbaycan inkişaf etmiş demokratik bir dövlət olacaqdır. Azərbaycan heç vaxt keçmişə dönməyibdir və dönməyəcəkdir. Azərbaycan irəli, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlayır və bağlayacaqdır.*

*Ölkəmiz dünya iqtisadiyyatı, dünya sərmayəçiləri üçün açıqdır.*





*İqtisadiyyatımızın bu günü və gələcəyi yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır.*

*Azərbaycan açıq ölkədir, onun iqtisadiyyat sahəsində demokratik prinsipləri var.*

*Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır.*

*Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı prinsipləri, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi əsasında formalaşdırılması bizim tutduğumuz magistral yoldur.*

*Azərbaycanın sosial-iqtisadi gələcəyi gözəldir.*

*Bütün XXI əsr Azərbaycan iqtisadiyyatının, ən əvvəl neft və qaz sənayesinin coşqun inkişafı əsri olacaqdır.*

*Təbii sərvətlərimizdən səmərəli istifadə etmək, iqtisadi potensialımızı müasirləşdirmək, modernləşdirmək və ondan səmərəli istifadə etmək üçün bizə birinci növbədə sərmayə, investisiya, ikincisi isə müasir, yüksək tələblərə uyğun olan texnika və texnologiya lazımdır.*

*Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirir.*

*Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatının bərqərar edilməsinə, Azərbaycanın bütün dünyaya açılmasına, ölkəmizə xarici sərmayələrin gəlməsinin həvəsləndirilməsinə yönəldilibdir.*

*Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq.*

*Biz burada Azərbaycan üçün və gəlib respublikamızda iş görməyə başlamış dünyanın iri neft şirkətləri üçün böyük və yaxşı gələcəyi olan yol açırıq. Yəni biz ilk yol açanlarıq. Amma bu yolu elə açmalıyıq ki, bizdən sonra gələnlər çətinlik çəkməsinlər, bu yolla rahatlıqla getsinlər.*

*Bizim ardıcıllıqla həyata keçirdiyimiz islahatların məqsədi milli iqtisadiyyatımızı dirçəltmək, onun dinamik inkişafını və xalqımızın firavan həyat səviyyəsini təmin etməkdir.*





*Planlı siyasət islahatların keçirilməsində ən düzgün siyasətdir.*

*İnsanlara sərbəstlik vermək, sahibkarlığa şərait yaratmaq, təşəbbüskarlığa şərait və imkanlar yaratmaq bizim vəzifəmizdir.*

*Azərbaycan çox mühüm coğrafi-siyasi mövqeyə malik olan dövlətdir.*

*Azərbaycan zəngin təbii sərvətlərə malik olan ölkədir.*

*Azərbaycan Respublikasının iqtisadi inkişafı bölgəmizdə sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün çox vacibdir.*

*Azərbaycan öz müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, ölkədə demokratik dəyişikliklərin həyata keçirilməsi, iqtisadi islahatların aparılması yolu ilə inamla gedir.*

*Azərbaycanda xarici iş adamlarının sərbəst fəaliyyət göstərməsi üçün geniş imkanlar yaradılmışdır.*

*Respublikamızın iqtisadiyyatında bazar iqtisadiyyatını tətbiq edərək, yaradaraq, inkişaf etdirərək, eyni zamanda onun sosial istiqamətini heç vaxt unutmamalıyıq.*

*Sosial yönümlü bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas prinsipi olmalıdır.*

*Azərbaycanın iqtisadiyyatı azad iqtisadiyyat yolu ilə gedəcəkdir. Azərbaycan dünyada sınanmış, artıq öz müsbət nəticələrini vermiş olan iqtisadi-sosial və ictimai-siyasi sistem yolu ilə gedəcəkdir.*

*Biz islahatlar yolu ilə, bazar iqtisadiyyatı qurulması yolu ilə, dünya iqtisadiyyatına yaxından qoşulmaq yolu ilə, demokratiya yolu ilə, azadlıq yolu ilə, dövlət müstəqilliyi yolu ilə getməliyik.*

*Azərbaycan iqtisadiyyatda açıq qapı siyasəti aparır.*

*Azərbaycanın öz təbii sərvətlərindən istifadə etməsi ilə əlaqədar apardığı strateji siyasət Azərbaycanın milli mənafeyinə tamamilə cavab verən siyasətdir.*





*Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur. Yolumuz, ümumiyyətlə, sərbəst iqtisadiyyatın Azərbaycanda bərqərar olunması, özəlləşdirmə prosesinin sona çatdırılması yoludur. Biz bu yolla gedirik. Bu, asan yol deyildir. Bir çox ölkələr, o cümlədən iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bu yolu on illərlə, bəzən də yüz illərlə keçiblər.*

*Hər bir ölkədə demokratik inkişafı sağlam iqtisadiyyat və insanların rifahının tədricən yüksəlməsi şəraitində həyata keçirmək mümkündür.*

*Böyük İpək Yolu keçmişdən başlansa da, gələcəyə doğru gedən yoldur.*

*Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatına uyğun qurur.*

*Azərbaycan nefti təkcə Azərbaycanın, keçmiş Rusiyanın, keçmiş Sovetlər İttifaqının deyil, dünyanın bir çox ölkələrinin də iqtisadiyyatının inkişafında böyük rol oynamışdır.*

*Bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsasını təşkil edir.*

*Sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı Azərbaycan üçün çox böyük uğurlar gətirib və bundan sonra da gətirəcəkdir.*

*Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır.*

*Azərbaycan Respublikası demokratik inkişaf, sərbəst bazar iqtisadiyyatına keçmək yolu tutmuşdur.*

*Biz sərbəst iqtisadiyyata keçməliyik.*

*Sərbəst iqtisadiyyata keçməyin yolu hamar deyil.*

*Bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın ən böyük üstünlüyü ondan ibarətdir ki, burada, əvvəla, yüksək səviyyəli mədəniyyət, ikincisi isə nizam-intizam, qanunlar var: qanunsuz olaraq heç kəs heç nə edə bilmir.*

*Sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının ən böyük xüsusiyyətləri ondan ibarətdir ki, insanlara sərbəstlik verilir, onlar təşəbbüs göstərərək çox iş görə bilir.*





*Sahibkarlıq fəaliyyəti bizim üçün ən mühüm amillərdən biridir.*

*Sərbəst iqtisadiyyat cəmiyyətində, bazar iqtisadiyyatı şəraitində yaşamaq üçün qanunları bilmək lazımdır.*

*Sahibkarlıq halal sahibkarlıq olmalıdır.*

*«Sahibkar» sözü çox hörmətli bir sözdür. Ancaq həqiqətən hörmətli sahibkar olmaq üçün birinci növbədə gərək yaxşı iş qurasan, ikinci növbədə gərək sahibkar kimi öz nüfuzunu, adını, hörmətini, imicini daim qoruyasan.*

*Hər bir sahibkar, iş adamı unutmamalıdır ki, o, həm öz mənafeyi, həm də ölkəmizin mənafeyi, ümumxalq mənafeyi üçün çalışmalıdır.*

*Azərbaycanın hər bir sahibkarı özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir.*

*Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur və inkişaf etdirilir.*

*Özəlləşdirmə mərhələ-mərhələ getməlidir.*

*Səhmdar müəssisələrin yaradılması özəlləşdirmənin əsas yollarından biridir.*

*Mülkiyyətin özəlləşdirilməsinə fəal başlayaraq həm öz sahibkarlarımız üçün, həm də əcnəbi sahibkarlar üçün şərait yaradırıq ki, potensialımızdan iqtisadiyyatın inkişafı, Azərbaycan əhalisinin sosial tələbatının ödənilməsi üçün istifadə olunsun.*

*Özəlləşdirmə ağılla, kamalla, təmkinlə, ancaq gecikmədən, sürətlə həyata keçirilməlidir.*

*Özəlləşdirmə iqtisadiyyatımızı canlandırmaq üçün əsas yoldur.*

*Xəzər dənizində ilk dəfə neft hasilatına başlayan Azərbaycanın XX əsrin sonunda bu hövzənin zəngin enerji ehtiyatlarını dünya üçün açması, heç şübhəsiz, dünya birliyi, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya olunmaq istəyindən irəli gəlmişdir.*





*...Dünyada ilk dəfə olaraq məhz Bakıda, Azərbaycanda 1848-ci ildə neft fontan vurmuşdur. Dünyada ilk dəfə olaraq məhz Azərbaycanda dənizdə neft yataqlarının istismarına başlanmışdır. 1849-cu ildən etibarən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft və qaz yataqları fəal istismar edilir. Bütün bunlar birlikdə götürüldükdə, belə deməyə əsas verir ki, Azərbaycan Odlar yurdu, neft diyarıdır.*

*Azərbaycan hələ ötən əsrdən dünyada neft ölkəsi kimi məşhurlaşıbdır.*

*Neft Azərbaycan xalqının ən böyük sərvətidir və bütün xalqa məxsusdur.*

*Xəzərin neft və qaz ehtiyatları dünya iqtisadiyyatına böyük kömək edəcəkdir.*

*Azərbaycan alimləri, neftçiləri, mütəxəssisləri Xəzər dənizinin mineral ehtiyatlarının öyrənilməsində böyük xidmətlər göstərmiş və həmişə irəlidə getmişlər.*

*Azərbaycanın böyük sənayesi var. Azərbaycanın böyük iqtisadi potensialı var. Azər-*

*baycanın təbii sərvətləri var. Azərbaycanın çox dəyərli, istedadlı alimləri, mühəndisləri, mütəxəssisləri var.*

*Azərbaycan sənayesi inkişaf etmiş ölkədir, onun əsasını neft sənayesi təşkil edir. Azərbaycanda neft hasilatının çox zəngin və qədim tarixi var və biz bununla haqlı olaraq fəxr edirik ki, Azərbaycan bütün dünyada neft sənayesinin inkişafına böyük töhfə vermişdir. Dənizdə neft və qaz yataqlarının işlənməsinə də dünyada birinci olaraq məhz Azərbaycanda başlanmışdır.*

*Azərbaycanın nefti bəşər tarixində öz görkəmli yerini tutubdur. Azərbaycanın nefti bəşəriyyətə böyük xidmətlər edibdir. Azərbaycanın nefti bu gün respublikamızın iqtisadiyyatının inkişafında və dünya ölkələri ilə iqtisadi əlaqələrin yaranmasında həm xalqımıza, həm də dünyanın bir çox ölkələrinə böyük xidmətlər göstərir.*

*1949-cu ildə Azərbaycanın neftçiləri, alimləri Xəzər dənizində ilk dəfə Neft Daşları kimi böyük bir neft yatağını açaraq dənizin dibindən neft çıxarılmasının əsasını qoymuşlar. Görülən*





*bu işlər, o axtarışlar, kəşflər olmasaydı, indi Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarından belə geniş surətdə, dünyanın böyük neft şirkətləri ilə müştərək iş aparmağa da imkanımız olmazdı.*

*Azərbaycan qədim neft diyarıdır.*

*Xəzər dənizində neft-qaz yataqlarını ilk dəfə kəşf edən Azərbaycan alimləri, neftçiləridir.*

*Azərbaycanda neft istehsalının 200 illik tarixi var.*

*Ölkəmizin bütün neft yataqları Azərbaycan xalqına, dövlətinə mənsubdur.*

*Azərbaycan ən qədim neft məmləkətidir. Dünyada ilk dəfə olaraq neft 1848-ci ildə məhz Azərbaycanda fontan vurmuşdur.*

*Tarixə nəzər salsaq, böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan dünyada ilk dəfə neft hasil edən və dünyanın bir çox ölkələrinə neft məhsulları göndərən bir ölkə olmuşdur.*

*Azərbaycan keçmiş Sovet İttifaqında, bütün dünyada neft akademiyası kimi məşhur idi.*

*Bütün dünyaya məlumdur ki, ilk dəfə dənizdə qara qızıl çıxarılması Azərbaycan neftçilərinin fəaliyyəti nəticəsində həyata keçmişdir. 1949-cu ildə Neft Daşlarında ilk quyunun fontanından sonra dənizdə neft çıxarılması təcrübəsindən bütün dünya istifadə etmişdir. Bu sahədə Azərbaycan neftçilərinin xarici ölkələrdə fəaliyyəti tarixdən heç vaxt silinməyəcəkdir.*

*Neft yataqları torpağın tərkibində olan ən zəngin sərvətlərdəndir.*

*Neft sərvətimiz, ilk növbədə, müstəqil Azərbaycan Respublikasının inkişafı, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, vətəndaşların maddi rifahının yüksəldilməsi üçün istifadə olunmalıdır.*

*Neft Azərbaycanın tükənməz sərvətidir, amma bu heç də o demək deyil ki, neft tükənməzdir.*

*Əgər biz neft yataqlarından elmi əsaslarla, ağılla, qənaətlə istifadə edə bilməsək, gələcək nəsillər bizi bağışlamaz.*





*Neft-qaz yataqları Azərbaycan xalqının böyük sərvətidir. Və həm bu gün, həm də uzun bir tarixi dövrdə ona xidmət edəcəkdir.*

*Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə məxsusdur. Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır.*

*Azərbaycanın neft yataqları xalqımızın ən böyük milli sərvətidir və ondan bu gün də, gələcəkdə də çox ehtiyatla istifadə etmək lazımdır. Düşünmək lazımdır ki, bizim sərvətlərimiz təkcə bugünkü nəsillər üçün deyil, nəvə-nəticələrimiz, gələcək nəsillərimiz üçün də gərəkdir.*

*Azərbaycan neft diyarıdır. Azərbaycanın – Bakının, Abşeronun nefti respublikamıza böyük şan-şöhrət gətirmiş, onu bütün dünyada məşhurlaşdırmış, xalqımızın adını yüksəklərə qaldırmışdır.*

*Torpaq ölkənin, millətin, xalqın ən yüksək, ən qiymətli sərvətidir.*

*İnsana lazım olan məhsullar arasında azərbaycanlılar, xalqımız üçün çaydan gözəl və çox geniş istifadə olunan məhsul yoxdur.*

*Başqa respublikalarla müqayisədə Azərbaycanın sənaye potensialı respublikanın müstəqil dövlət kimi inkişaf etməsinə böyük şərait yaradan bir potensialdır.*

*Azərbaycanın kənd təsərrüfatı potensialı bərpa edilməlidir. Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır.*

*Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları arasında pambıq xarici bazarda, yəni valyuta əldə etmək imkanı verən, dünya bazarında ən yüksək qiymətə gedən məhsuldur. Ona bərabər tutulası heç bir kənd təsərrüfatı məhsulumuz yoxdur.*





*Pambıqçılıq müstəqil Azərbaycan üçün çox böyük gəlir mənbəyidir, istər iqtisadiyyatı qaldırmaq, istərsə də xalqın rifahını yüksəltmək üçün olduqca geniş imkanlar açır.*

*Vaxt gələcək, Azərbaycan Respublikası yenə də böyük üzümçülük diyarına çevriləcəkdir.*

*Aqrar islahatlar ancaq və ancaq aqrar bölmənin səmərəliliyini, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, torpaqdan daha səmərəli istifadə etmək üçün olmalıdır. Bu islahatlar 70 il müddətində əldə olunmuş potensialı dağıtmaq üçün yox, əksinə, ondan daha səmərəli istifadə etmək üçün aparılmalıdır.*

*Aqrar bölmədə iqtisadi islahatlar, torpaq islahatı ədalətli, düzgün aparılmalıdır. Ən əsası da ondan ibarətdir ki, iqtisadi prinsiplər, qanunlar əsasında, sərbəst iqtisadiyyat prinsipləri, qanunları əsasında aparılmalıdır.*

*Vergi sistemi bütün sahələrdə elə qurulmalıdır ki, dövlət büdcəsinin formalaşmasında əsas yer tutsun.*

*Aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü bir məsələdir.*

*Ölkəmiz təbii sərvətlərlə zəngindir, həm də bunlar təkcə neft və qazdan ibarət deyildir. Azərbaycanın bir çox başqa təbii sərvətləri və güclü iqtisadi potensialı var və biz bunlardan dövlətimizin möhkəmlənməsi, xalqımızın rifah halının yaxşılaşdırılması üçün səmərəli istifadə etməyə çalışırıq.*

*Bizim apardığımız işlər, böyük layihələrimiz, neft müqavilələrimiz və həyata keçirdiyimiz iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatını qısa bir zamanda gücləndirəcək və insanların rifah halı günü-gündən yaxşılaşacaqdır.*





# DİL HAQQINDA

*Dil, millət fəlsəfi məfhumdur, tarixi anlayışdır. Dialektikanın qanununa görə, bu iki anlayış daim inkişafda, dəyişiklikdə olubdur.*

*İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri öz dilimizdə ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus bir dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini öz dilimizdə ifadə edə bilirik.*

*Millətin milliliyini ən birinci təsdiq edən onun dilidir.*

*Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz.*

*Azərbaycan dilini mənimsəmək lazımdır. Bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır.*

*Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik.*

*Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir.*

*Xalqı xalq edən, milləti millət edən onun ana dilidir.*

*Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik.*

*Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir.*





*Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunlar hamısı bir-birilə bağlıdır.*

*Bizim doğrudan da gözəl dilimiz var və mən Azərbaycan dilini sevirəm.*

*Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var.*

*Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik.*

*Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur. Mədəniyyətimizin və elmimizin inkişafına da bu təsirlər olmuşdur. Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini daim yaşadıb, Azərbaycanın milliliyini yaşadıb, milli şüuru yaşadıb, milli məfkurəni yaşadıb.*

*Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb.*

*Dövlət dilimiz, ana dilimiz - Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir.*

*Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!*

*Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir.*

*İnsan nə qədər çox dil bilsə, bir o qədər də zəngin olar.*

*Dil birliyimiz, türkdilli ölkələr, türk dövlətləri qrupuna daxil olmağımız üzərimizə çox vəzifələr qoyur.*

*Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir.*





# TƏHSİL VƏ ELM HAQQINDA

*Azərbaycanda, cəmiyyətimizdə pak və ülvi mənəviyyatı bərqərar etmək üçün tələbə qəbulu kampaniyasına xüsusi fikir verməliyik.*

*Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər.*

*Biz bu günümüz, müstəqil Azərbaycanın gələcəyi haqqında düşünsək, gənc nəslin tərbiyəsinə ciddi fikir versək, ən əvvəl ali təhsil almağa qadir, yəni buna öz biliyi, zəkası, fitri*

*istedadı ilə layiq olan gənclərin ali məktəblərə qəbul olunmasını təmin etsək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq.*

*Hər bir gənc üçün istədiyi, arzu etdiyi sənət üzrə, ixtisas üzrə ali təhsil almaq böyük hadisədir və bu təhsili başa çatdırmaq bir xoşbəxtlikdir.*

*Müasir həyat və dünyanın gələcəyi insanlardan daha da çox bilik tələb edir.*

*Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.*

*Dövlət müstəqilliyimizin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq.*

*Müstəqil Azərbaycan Respublikasında təhsil, tərbiyə işi dövlətin əsas vəzifəsidir, dövlət başçısının, prezidentin xüsusi qayğısı altındadır və onun əsas vəzifələrindən biridir.*

*Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.*





*Bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir.*

*İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq.*

*Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.*

*XX əsrdə Azərbaycan xalqının əldə etdiyi böyük nailiyyətlərdən biri də xalqın savadsızlığının ləğv olunması və xalqın maariflənməsi olmuşdur.*

*Ali təhsil ocaqları, universitetlərimiz Azərbaycan mədəniyyətinin, elminin, milli mənəviyyatının zirvəsidir.*

*Gəncləri hazırlamaq, savadlandırmaq, yüksək mənəvi səviyyəyə çatdırmaq ali məktəblərin borcudur.*

*Ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.*

*Cəmiyyət haradan olur-olsun, nədən olur-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir.*

*Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır.*

*Bakı Dövlət Universitetinin auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi üçün çox işlər görülmüşdür.*

*Azərbaycan xalqının həyatında, onun ali təhsilinin inkişafında, elminin inkişafında BDU böyük xidmətlər göstərmişdir.*

*BDU Azərbaycanda ali təhsil sisteminin yaranmasında, demək olar, liderlik etmiş və bu*





*təhsil ocaqlarına, necə deyərlər, analıq, atalıq etmişdir.*

*Nə qədər yeni ali təhsil ocaqları, özəl universitetlər yaransa da, Bakı Dövlət Universiteti Azərbaycan xalqının, millətinin ən yüksək səviyyədə duran ali təhsil ocağıdır.*

*Bakı Dövlət Universiteti XX əsrdə Şərqdə, müsəlman dünyasında ilk universitetdir.*

*Bakı Dövlət Universiteti Azərbaycanın ali təhsilinin bayraqdarıdır. Bakı Dövlət Universiteti Azərbaycanın ictimai-siyasi həyatında çox görkəmli bir yer tutur.*

*Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır.*

*...Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var.*

*Hansı iqtisadiyyat olur-olsun, elm inkişaf etməlidir.*

*Elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik.*

*Ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik.*

*Böyük siyasətlə, dövlət işi ilə məşğul olan şəxslər bəlkə də xüsusi elmi məqalələr, kitablar yazmırlar. Ancaq onların gündəlik ictimai-siyasi fəaliyyəti, böyük dövlət işinə rəhbərlik etməsi, dövlət əhəmiyyətli məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır.*

*İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşf etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar.*

*Cəmiyyətdə müxtəlif adamlar olur, amma elm adamları müstəsna adamlardır. Onlar insanlara əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya*



*digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar. Əlbəttə, bu insanlar ən böyük hörmətə layiqdirlər.*

*Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə hörmətə layiqdirlər.*

*Elmimiz, mədəniyyətimiz yaşamalı, inkişaf etməlidir.*

*Müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var.*

*Bizim indiyə qədər yaranmış intellektual potensialımız, iqtisadi potensialımız, insanlarımızda indiyə qədər yaranmış olan qüdrət, cəsarət müstəqil Azərbaycanı yaşadacaq, nəsillərdən-nəsillərə verəcəkdir.*

*Biz öz elmimizlə, ali təhsilimizlə fəxr edə bilərik.*

*Azərbaycan alimi, professoru, müəllimi gedib Türkiyə, Amerika, Almaniya universitetlərində dərs deyə bilirsə, biz bunu böyük iftixar hissi ilə qəbul etməliyik.*

*Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycanın dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar.*

*Biz hər bir elm adamını qiymətləndiririk, hər bir alimin elmimizə verdiyi töhfəni, xidməti qiymətləndiririk.*

*Azərbaycanda elm XX əsrdə çox sürətlə inkişaf etmişdir.*

*Xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir.*

*Elmimizin gələcəyi gənclərin əlindədir.*

*Akademiya bizim ən yüksək elm müəssisəmizdir, bütün elmin zirvəsində duran təşkilatdır.*





*Azərbaycan dövlətinin ən yüksək elm müəssisəsi respublikamızın Elmlər Akademiyasıdır. O, dövlətə məxsusdur.*

*Azərbaycanın Milli Akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA

# MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT HAQQINDA



*Bütün Azərbaycan mədəniyyəti əslində həssas qadın qəlbini, qadın zəkasını və nadir qadın müdrikliyini əks etdirən güzgüdür.*

*Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük bir sərvətdir.*

*Azərbaycan müstəqil dövlət kimi, şübhəsiz ki, tarixi, adət-ənənələri ilə və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir.*

*Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır.*

*Biz mədəniyyətimizə, dinimizə, milli əxlaqımıza, bütün milli ənənələrimizə, tariximizə sadiqik.*

*Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.*

*Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz.*

*Ədəbiyyata, elmə, mədəniyyətə qayğı, diqqət həmişə olmalıdır.*

*Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.*

*Xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb.*





*Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər.*

*Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir.*

*Fəxr edirik ki, bizim böyük bəstəkarlarımız, musiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır.*

*Tənqidlə təhqir arasında fərq var, tənqidin özü də ədalətli olmalıdır.*

*Azərbaycan ədəbiyyatı bizim həyatımızın, tariximizin bütün mərhələlərində olduğu kimi, bu mərhələdə də yaşayır və öz tarixi missiyasını yerinə yetirir.*

*Ayrı-ayrı dövrlərin çətinlikləri ədəbiyyatı heç vaxt nə söndürə bilər, nə öldürə bilər, nə də onu zəiflədə bilər.*

*Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir.*

*Azərbaycanda ədəbiyyata, şairə, yazıçıya böyük hörmət var.*

*Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir.*

*Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.*

*İnsan haqları insan mövcudluğunun və birgə yaşayışının bünövrəsi olmaqla heç bir mədəniyyətə yad deyil və bütün millətlərə xasdır.*





*Dövlət orqanları, bizim ictimai təşkilatlarımız, mədəniyyət, elm xadimlərimiz - hamımız birlikdə Azərbaycanı dünyaya açmağa, tanıtmağa çalışmalıyıq, Azərbaycanın həqiqətlərini dünyanın hər bir guşəsinə çatdırmağa çalışmalıyıq.*

*Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.*

*Şirvanşahlar sarayı Azərbaycan xalqının iftixar etdiyi tarixi memarlıq abidəsidir. Bu, həm bizim memarlığımızın ən yüksək səviyyədə olduğunu göstərir, həm də dövlətçiliyimizin tarixini əks etdirən bir abidədir, kompleksdir və şübhəsiz ki, dünyada da məşhurdur.*

*İnsanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikrinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.*

*Hər bir binanın memarlıq baxımından gözəlliyi, milli memarlıq məktəbinə mənsubluğu*

*respublikamızın paytaxtı Bakı şəhərini xüsusi görkəmə malik olan şəhərə çevirmişdir. Biz Bakı şəhəri ilə, ulu babalarımızdan indiyədək qalan hər bir abidə ilə fəxr edirik.*

*Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır. Xalq, ictimaiyyət, eləcə də dövlət sənət adamlarına mədəniyyətdə tutduqları yerə görə qiymət verir.*

*Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir.*

*Müstəqilliyimizin əbədiliyinin və milli dövlət quruculuğu prosesinin dönməzliyinin təbliğində, müstəqil Azərbaycan dövlətinin indiki dirçəliş mərhələsində televiziya və radionun fəaliyyəti əvəzolunmazdır.*

*İnsanların daxilində, genində olan fitri istedad eynidir. Şəhərdə və ya dağda doğulmağın fərqi yoxdur. İnsanın anadangəlmə fitri istedadı varsa, bu onun şəhərdə, dağda, yaxud aranda doğulmasından asılı deyildir. Ancaq hər bir*





*fitri istedadın meydana çıxması üçün ona şərait yaratmaq lazımdır.*

*Hər bir xalq ümumbəşəri mədəniyyətə öz töhfəsini vermişdir. Bütün bunlar isə ümumbəşəri dəyərləri əmələ gətirir.*

*Heç bir çətinliyə baxmayaraq, incəsənət yaşayır. Bütün zamanələrdə adamlar incəsənətlə – mahnı, musiqi, rəqslərlə ünsiyyətdə yaşamışlar.*

*Mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, mahnılarımız xalqımızı ən ağır dövrlərdə də gələcəyə inam ruhunda, nikbin əhval-ruhiyyədə yaşadıb.*

*Xalqımız öz incəsənətini, mədəniyyətini, ədəbiyyatını inkişaf etdirib və bütün bunların üzərində indi müstəqil Azərbaycan Respublikası var.*

*Meyxana xalqımızın, millətimizin folklorunun çox gözəl janrlarından biridir.*

*Azərbaycan tarixi mədəniyyət, elm, ədəbiyyat, memarlıq sahəsində çox zəngindir. Bizim çox-*

*əsrlik ədəbiyyatımız var - Nizami, Xaqani, Füzuli, Nəsimi, Vaqif və bunlardan sonra gələn dahilər. Bizim qədim memarlıq abidələrimiz var. Bizim qədim rəssamlıq sənəti nümunələrimiz var. Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.*

*Hüseyn Cavidin məqbərəsi Naxçıvanın memarlıq tarixində yeni bir səhifədir.*

*Yalnız nadir istedadlar öz fitri qabiliyyəti, fədakar əməyi, musiqiyə hədsiz məhəbbəti sayəsində incəsənətin qüdrəti ilə dünyanın simasını dəyişdirməyə qadirdir.*

*Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. O, öz fəaliyyəti ilə xalqın milli sərvətinə çevrilmişdir.*

*Azərbaycan teatr xadimləri bütün mütərəqqi fikirli ziyalılarla birlikdə həmişə milli azadlıq hərəkatımızın ön cərgəsində getmiş, xalqın ağır günlərində ona mənəvi dayaq olmuşlar.*





*Azərbaycan Dram Teatrının tarixində «Vaqif» pyesi bir inqilab oldu.*

*Ədəbiyyatın insanlara böyük təsiri vardır. Ancaq bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür.*

*Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətimizdə çox yüksəkdə tuturam.*

*İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır.*

*Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir, mədəniyyətə qovuşubdur.*

*Xalqımızın inkişafı yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir.*

*Hər şey dəyişsə də, kino hər insan üçün çox mühüm incəsənət növü, mənəvi həyatın mühüm sahəsi olaraq qalır.*

*Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdığı əsərlərdir.*

*Miniatür rəssamlıq sənəti bütün dünyada tanınmış və çox yüksək qiymətləndirilən rəssamlıq məktəbi və üslubudur.*

*Rəssamın həm həyatı, həm də yaradıcılığı, əsərləri, mədəni və mənəvi irsi xalqımızın bu günü və gələcəyi üçün mənəviyyat mənbəyidir, məktəbidir.*





# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN HAQQINDA

*İnsanların fiziki, mənəvi sağlamlığı, şüurunun inkişaf etməsi idmanla, bədən tərbiyəsi ilə sıx bağlıdır.*

*İdman eyni zamanda insanlarda vətənpərvərlik hissini yüksəldən amillərdən biridir, xalqımızın döyüş qabiliyyətini artıran amillərdən biridir.*

*Dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir.*

*Bədən tərbiyəsi ilə geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur. Xalqımızın sağlamlığını təkcə səhiyyə və adət-ənənələrimiz vasitəsilə yox, eyni zamanda bədən tərbiyəsi ilə qoruyub saxlamalıyıq, möhkəmləndirməliyik və gələcək nəsillərə çatdırmalıyıq.*

*İdman insanları həm fiziki, həm mənəvi cəhətdən yüksəldən bir vasitədir.*

*Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir.*

*Fiziki, mənəvi sağlamlığı təmin etmək üçün bədən tərbiyəsi, idman xüsusi rol oynayır.*

*İnsanın hər bir fiziki hərəkəti idmandır. Ancaq idmanın formalaşmış nümunələrindən istifadə etmək və onu insan həyatının ayrılmaz hissəsi qəbul etmək – bu, idmanın yüksək nümunələridir.*

*Əsrlərdən-əsrlərə Azərbaycan pəhləvanları xalqımızda nə qədər fiziki güc, qüdrət, iradə olduğunu sübut etmişlər.*





*Qəhrəmanlıq yüksək fiziki keyfiyyətlər, cəsarət, iradə tələb edir.*

*...İdman təkcə ayrı-ayrı çempionların əldə etdikləri nailiyyətlərdən ibarət olmamalıdır, idman kütləvi olmalıdır.*

*İdman, bədən tərbiyəsi hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir.*

*Biz gəncləri bədən tərbiyəsinə, idmana daha geniş cəlb etməliyik. Bədən tərbiyəsi ilə nəinki gənclər, bütün əhali məşğul olmalıdır.*

*Bədən tərbiyəsi Azərbaycan xalqının həyatına, Azərbaycan cəmiyyətinin hər bir hüceyrəsinə sirayət etməlidir.*

*Bədən tərbiyəsi hər bir gəncin həyatının ayrılmaz hissəsi olmalıdır. Səmərəli işləmək, xalqa, ölkəyə xidmət etmək üçün Azərbaycanda hər bir gənc gərək sağlam olsun.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# EKOLOGİYA HAQQINDA

*Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən elə bildim ki, mənim bədənimin bir hissəsini kəsiblər, elə bildim məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm - kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.*

*Planetimizin ən dəyərli sərvəti insanlardır. Yer kürəsində hər şey insanların yaşaması, dünya nemətlərindən faydalanması və həm maddi, həm mənəvi cəhətdən yüksək səviyyədə inkişafı üçündür. Təbiət də, yerin təki də, onun üstündə olan sərvətlər də, dövlət də insan və xalq üçündür. Bütün təşkilatlar da insanın bu günü və gələcəyi üçündür.*

*Çox böyük zəhmət bahasına Bakıda yaşıllıqlar yaradılmışdır. Əgər zərurət üzündən kim isə bir ağacı kəsirsə, əvəzində gərək onunu əksin.*

*Biz taleyimizdən çox razı olmalıyıq ki, dünyanın belə bir gözəl guşəsində yaşayırıq.*

*Əgər öz təbiətimizdən, iqlimimizdən səmərəli istifadə etsək, özümüzü bütün ərzaq məhsulları ilə təmin edə bilərik.*

*Biz təbiətə qarşı heç bir zor işlədə bilmərik.*

*Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir.*

*Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.*

*Xəzər dənizində neft-qaz hasilatı ilə əlaqədar görülən işlərdə şübhəsiz ki, Xəzər dənizinin ekologiyası hər şeydən üstün tutulmalıdır. Xəzər dənizinin təbii sərvətlərinin qorunması, saxlanması, Xəzərin təmizliyinin qorunması və dənizdə olan bioloji ehtiyatların qorunub saxlanması və hətta onların inkişaf etdirilməsi üçün lazımi tədbirlərin görülməsi də Xəzəryanı ölkələrin və bu işə cəlb olunan bütün şirkətlərin ən ümdə borcu, vəzifəsi olmalıdır.*





*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tarixdə ilk dəfə olaraq öz milli təbii sərvətlərinin sahibi olmuşdur və bu sərvətlərdən özü istədiyi kimi istifadə etməyə başlamışdır.*

# MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

## MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

*Dağıtmaq böyük ağıl tələb etmir. Dağıdanlar həmişə ağılsızlar, xalqa xəyanət edən adamlar olublar. Amma yaratmaq üçün səy, iş, xalqa sədaqətlə xidmət etmək lazımdır.*

*Cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələri prinsipləri əsasında tərbiyə etmək lazımdır.*

*Xasiyyətdə, ictimai həyatda, yaradıcılıqda sabitlik çox böyük xüsusiyyətdir. Özünəməxsus xarakterini qoruyub saxlamaq çox böyük bir keyfiyyətdir.*

*Azərbaycanın müstəqil yaşaması, Azərbaycanın milli azadlığı, xalqımızın öz taleyinin sahibi olması, özünün milli-mənəvi, dini dəyərlərinə sahib olması tarixi bir hadisədir.*

*Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.*

*Hər bir insan üçün yüksək mənəviyyat ən ali amil olmalıdır.*

*Kim bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq hüququ yoxdur.*

*Yaşayırıq ona görə ki, torpağımıza, dinimizə, milli ənənələrimizə sadiq olaq. Bu yolda hamımız bir olmalıyıq.*

*Mənəviyyat, əxlaq hər şeydən yüksəkdir.*

*Hamı bizim milli ideologiyamızın, milli əxlaqımızın, mənəviyyatımızın prinsipləri əsasında yaşamalı və işləməlidir.*





*Mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır.*

*Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.*

*Təcrübə də göstərir ki, məsuliyyətlə işləyən adam, öz məsuliyyətini dərk edən adam həm xalqına, ölkəsinə mənfəət verir, həm də özünə, birinci növbədə mənəvi cəhətdən çox böyük mənfəət gətirir.*

*İnsan inanmalıdır ki, hər şeyə nail olmaq – cəmiyyəti də düzəltmək, insanların əxlaqındakı mənfi cəhətlərdən də insanı xilas etmək, onu tam mükəmməl etmək olar.*

*Əgər insan öz fikirlərinə sadiq olmasa, öz ideyasına inanmasa və öz ideyasının həyata keçməsi üçün vuruşmasa, savaşmasa, mübarizə aparmasa, o, qalib gələ bilməz.*

*İnsan halal qazanc əldə etməlidir. Haram qazanc heç vaxt xeyir verə bilməz. Hər şeydə halallıq olmalıdır.*

*Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir.*

*İnsanlar özlərini, dövlətimizi, mənəviyyatımızı qorumalıdırlar. Biz gərək təmizlik, mənəvi saflıq uğrunda mübarizə aparaq. Yalnız və yalnız bu yolla cəmiyyətimizi günü-gündən sağlamlaşdıra, inkişaf etdirə və müstəqil dövlətimizi irəliyə apara bilərik.*

*Dəyərli insanlara kömək etmək lazımdır, onları irəli çəkmək lazımdır, onlara inkişaf etmək üçün şərait yaratmaq lazımdır.*

*Hər bir insanın daxilində, vücudunda cəmlənən, həm də ailədə aldığı tərbiyə nəticəsində cəmlənən mənəvi dəyərlər, potensial var ki, onu heç vaxt öldürmək mümkün deyildir. O yaşayır, bütün çətinliklərdə də yaşayır. Bəlkə də insanları o çətinliklərə dözməyə, onların üstündən məharətlə keçməyə kömək edən amillərdən biri odur ki, insanlar milli dəyərlərdən ayrılmırlar.*

*Heç bir sərvət, para mənəviyyatı əvəz edə bilməz.*





*Azərbaycan xalqını əsrlər boyu yaşadan, onu böyük bəlalardan, fəlakətlərdən qurtaran Azərbaycanın əsrlər boyu yaratdığı mənəvi dəyərlər olmuşdur.*

*İnsanların həmişə düz yolla, təmiz mənəviyyat yolu ilə getməsinə çalışmaq lazımdır.*

*Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir.*

*Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir.*

*Həqiqəti heç vaxt gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.*

*Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır.*

*Bizim bütün milli və dini adət – ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir.*

*Bizim hər birimizin borcu - bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir.*

*Biz hamımız bu Yer kürəsinin insanlarıyıq və hansı dinə, millətə mənsubluğumuzdan asılı olmayaraq, bir-birimizə hörmət etməli, bir-birimizi qiymətləndirməliyik.*

*İnsan qurmalıdır, yaratmalıdır.*

*İnsanların, dövlətin, cəmiyyətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı həmişə yüksək səviyyədə olmalıdır.*

*Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır.*

*İslam dini bizim əsrlər boyu itaət etdiyimiz dindir.*





*Adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir.*

*Silahların danışdığı, Uca Tanrının günahsız bəndələrinin acı məhrumiyyətlərə düçar olduğu bir vaxtda insanlara dözümlülük, mərhəmət və qarşılıqlı hörmət duyğuları təlqin edən Müqəddəs Allah kəlamlarına dünyamızın böyük ehtiyacı var.*

*Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir.*

*Yer üzərində yaşayan insanlara Allahın ən böyük tövsiyəsi ondan ibarətdir ki, onlar bir-birilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri həm Allahın göstərdiyi yolla getmək deməkdir, həm də yer üzərində insanların sülh şəraitində yaşamalarına böyük köməkdir.*

*İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq, həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.*

*Azərbaycan torpağı əsrlər boyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur.*

*Azərbaycanlılar öz dinini qoruyaraq nəsildən-nəslə qəlblərində saxlamışlar. Azərbaycan istiqlaliyyət qazandıqdan sonra milli adət-ənənələrimizi bərpa edərkən İslam dini də öz yerini tutmuşdur.*

*Din mənəvi mənbələrimizdən biridir.*

*İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir.*

*Din xadimlərimiz, Həccə getmiş adamlarımız gərək xalqımızı, xüsusən gənclərimizi Vətənə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etsinlər, onları Vətəni qorumaq üçün hazırlasınlar.*





*Dindən ancaq xeyirxahlıq, insanları ağır vəziyyətdən çıxarmaq, onları mənəvi saflığa yönəltmək üçün istifadə etmək lazımdır.*

*Xoşbəxtliyimiz ondan ibarətdir ki, uzun illərin məhrumiyyətindən sonra biz dinimizə sahib olmuşuq, İslam dininə sahib olmuşuq. İslam dini bütün qadağalardan, məhrumiyyətlərdən qurtarıb, Azərbaycan müsəlmanlarının hər biri üçün onun ürəyinin istədiyi kimi mənəviyyatını yaradan, mənəviyyatını quran bir mənbə olubdur.*

*İslam dini bizim müqəddəs dinimizdir, Qurani-Kərim müqəddəs kitabımızdır. İslam dininin, Quranın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir.*

*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik. Xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi İslamın yüksək mənəvi dəyərləri əsasında*

yaşatmalı, tərbiyə etməliyik, həyatımızı bu mənəvi dəyərlər əsasında qurmalıyıq.

Din hər bir xalq üçün mənəvi sərvətdir.

Dinləri hansısa kateqoriyalara bölmək olmaz.

Biz hər cür təməlçiliyin əleyhinəyik.

Hər bir dinin yaşamağa hüququ var və yaşayır.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu, müstəqil Azərbaycanın gələcək yolunun ana xəttidir, indiki ifadə ilə desək, strateji yolumuzdur. Biz bu yolu seçmişik və bu yolla gedirik. Ancaq bununla bərabər, biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina da edə bilmərik.

Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır.





İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir.

İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir.

Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir.

Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün və böyütmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

Din həmişə bizim mənəvi dəyərlərimizin qoruyucusu olubdur, mənəvi dəyərlərimizi yaşadan olubdur. Mənəvi dəyərlərimizin əksəriyyəti keçmişdə İslam dininin dəyərləri əsasında, müqəddəs kitabımız Qurani-Şərifin ayələri əsasında, surələri əsasında yaranıbdır. Ona

*görə də dinimizə yenidən qayıtmaq, yenidən müqəddəs kitabımızın, Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yolla getmək və Qurani-Şərifin tələblərinə riayət etmək, şübhəsiz, insanları həmişə saflığa, təmizliyə, saf mənəviyyata aparır, düz yola, doğru yola aparır.*

*Biz bundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrət İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq.*

*İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.*

*İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir.*





*Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eynihüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-təalanın buyuruğu, bizim yolumuzdur.*

*Tarixən Azərbaycanda dünya dinləri dinc yanaşı və qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərmişlər. Azərbaycan dövləti bu gün də öz ənənələrinə sadiqdir. Vicdan azadlığı, dini etiqad sərbəstliyi cəmiyyətimizin mənəvi sərvətlərindəndir.*

*Azərbaycan xalqı heç vaxt özünün islamiyyətə mənsub olduğunu unutmayıbdır.*

*Qurani – Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. Müsəlmanlar öz müqəddəs dininə sadiq olaraq əzab-əziyyətlər çəkmiş, ancaq böyük xoşbəxtliklərə də çıxmış və öz dininin, məsləkinin hər bir insan nə qədər böyük bir nemət olduğunu daim hiss etmişlər və bundan bəhrələnmişlər.*

*Müstəqil Azərbaycan Respublikasında, ölkəmizdə dinimiz – İslam dini xalqımızı sıx birləş-*

*dirir, həmrəy edir, dövlətimizin möhkəmlənməsinə, yüksəlməsinə çalışır və düşdüyü bu ağır bəlalardan, əzab-əziyyətdən qurtarmaqda xalqımıza kömək edir.*

*İslam həmişə insanları sülhə, barışığa dəvət edibdir.*

*Biz dinimizin bütün qanunlarına sadiqik.*

*Mütərəqqi islami dəyərlərə qayıdış, milli-dini ənənələrin dirçəldilməsi cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində, xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.*

*Orucluq Allah üçündür və müqəddəs dinimiz qarşısında mənəvi borcdur.*

*İnsanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi dəyərlərin, dostluq və humanizm prinsiplərinin bərqərar olmasında dinin mühüm rolu vardır.*

*Azərbaycanda nəinki din azadlığı var, həm də müxtəlif dinlərin birlikdə fəaliyyəti mövcuddur.*

*İslam dini yaranandan indiyə qədər Kürreyi-ərzin insanlarının çox bir hissəsini düz yola, ədalətə, saflığa, paklığa, yüksək mənəviyyata*





*yönəltmiş və onların belə yaşamasını təmin etmiş bir müqəddəs dindir.*

*İslam dini bəşər tarixində misilsiz xidmətlər göstərmiş, insanların, müsəlmanların yüksək mənəvi-əxlaqi dəyərlərə nail olmasını təmin etmiş və bu dinə itaət edən insanları dünyanın bütün əzab-əziyyətlərindən, keşməkeşlərindən keçirib onların yaşayışını təmin etmiş, onları yaşatmışdır.*

*Çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən İslam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır.*

*Dinimizi, mənəviyyatımızı, mənəvi-dini adət-ənənələrimizi qoruyub saxlamaq üçün müsəlmanlar əsrlər boyu nə qədər qurbanlar və şəhidlər veriblər. Ancaq bunların heç birisi bizi Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yolla getməkdən çəkindirə bilməyibdir.*

*Heç bir qüvvə İslamın mənəvi dəyərlərini dağıda, poza bilməz. Müvəqqəti çətinliklər, məhrumiyyətlər çoxəsrlik tarixdə kiçik bir dövrdür.*

*İslam bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dini dəyərləri – hamısı birlikdə bizim milli sərvətimizdir.*

*Vicdan və dini etiqad azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında tarixən olduğu kimi, bu gün də dünya dinləri qarşılıqlı hörmət və etiqad prinsipləri əsasında fəaliyyət göstərir.*

*Ramazan bayramı hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir şəxsin qəlbində olan bayramdır.*

*Mübarək Qurban bayramı, adətən, insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur.*





*Novruz bahar bayramı olmaqla yanaşı, həm də Azərbaycanın müstəqillik və dövlətçilik rəmzidir.*

*Əsrlər boyu Novruz Azərbaycan xalqı üçün barış və saf niyyətlər bayramı olmuşdur.*

*Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bir bayramdır. Bu, hər bir insanın, hər bir vətəndaşın bayramıdır, ulu babalarımızdan əsrlərdən-əsrlərə keçib gəlmiş əziz bayramdır. Bu bayram həm adi insan bayramıdır, həm millət, həm xalq, həm də dövlət bayramıdır. Bu bayramı başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir.*

*Müqəddəs kitabımız Qurani-Kərimin nazil olunduğu mübarək Ramazan ayı xeyirxah niyyətlər, mənəvi zənginlik, fiziki-ruhi kamillik və əxlaqi saflıq ayıdır. Bu bayram xeyirin şər, mənəvi ucalığın nəfs üzərində təntənəsinin bayramıdır.*

*Novruzun hər dəfə keçirilməsi müstəqillik və dövlətçilik prinsiplərimizin təntənəsinə olan inamı daha da artırır.*

*Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır.*

*Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, eyni zamanda hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır.*

*Novruz bayramı həmişə xalqımızı birləşdirən, bir yerə yığan, insanları bir-birilə barışdıran bayram olubdur. Ona görə də insanlar bu bayramı sevirlər.*

*Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və hər bir insanı vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir.*

*Novruz təbiətin oyanması, saf duyğuların, ülvi niyyətlərin, xoş arzuların çin olduğu gündür.*

*Novruz bayramı bizim xalqımızın qədim milli bayramıdır. Novruz bayramı hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, bizim müstəqil Azərbaycan torpağının, Azərbaycan Respublikasının bayramıdır.*





*Novruz dostluq, mehribanlıq, mənəviyyat, mədəniyyət bayramıdır, xalqımızın qəhrəmanlığını, rəşadətini, şücaətini nümayiş etdirən bayramdır. Novruz bayramı bizim xalqımızı bir-birilə həmişə daha da sıx birləşdirib, insanlarımız arasında dostluq, mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir.*

*Novruz bayramı bu gün müstəqil Azərbaycanın həyatında gedən ictimai-siyasi, sosial-iqtisadi proseslər dövründə xalqımızı həmrəy edən, birləşdirən, yetkin edən bayramdır.*

*Qurban bayramı, sadəcə, şənlənmək, yaxud da qurban kəsmək, bir-birini təbrik etmək günü deyildir. Bu gün insan yenidən bütün həyatını düşünür, yenidən mənəviyyata qayıdır, mənəvi dəyərlərin qiymətini yenidən dərk edir və insan daha da saflaşır, paklaşır.*

*Pasxa şadlıq və mərhəmət, haqq və ədalət bayramıdır.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# AZƏRBAYCAN XALQI HAQQINDA

# AZƏRBAYCAN XALQI HAQQINDA

*Azərbaycan xalqı o qədər də aciz xalq deyil, onun qəhrəmanlıqla dolu keçmişi var.*

*Əsrlər boyu başına gəlmiş bəlaların hamısından xalqımız öz gücü, cəsarəti, qəhrəmanlığı sayəsində çıxmışdır.*

*Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin tarixi, böyük mədəniyyəti, özünəməxsus milli-mənəvi ənənələri var.*

*Azərbaycan xalqı əsrlər boyu milli azadlıq uğrunda mübarizə edib, çarpışıb, bu arzularla yaşayıb. Özünün müstəqil dövlətinin olmasını, dövlət müstəqilliyi əldə etməsini istəyibdir.*

*Əsrimizin əvvəlində - 1918-ci ildə Azərbaycanda ilk dəfə dövlət müstəqilliyi elan olunub ki, Azərbaycan Demokratik Respublikası yaranıbdır. Bu respublika Azərbaycanda xalqın, millətin milli təfəkkürünün oyanması, dirçəlməsi, inkişafı üçün yollar açıb, şərait yaradıbdır.*

*İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi, sivilizasiyalı ölkədir.*

*Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir.*

*Xalqımız həqiqətən çox istedadlı xalqdır, xüsusən ədəbiyyat, mədəniyyət sahəsində çox istedadlı xalqdır.*

*Azərbaycan xalqını əzab-əziyyətdən, bəlalardan xilas etmək üçün birləşmək, bir yolla – haqq, ədalət yolu ilə getmək lazımdır! Əsas*





*məqsədlərə, xalqımız üçün ali məqsədlərə nail olmaqdan ötrü hamı əl-ələ verməlidir!*

*Azərbaycan xalqı müdrik xalqdır.*

*Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu azərbaycanlılığı anadangəlmə qəbul etmişik.*

*Əsrlər boyu Azərbaycanın sərvətləri yabançı dövlətlər tərəfindən vəhşicəsinə, insafsızcasına dağıdılıb, Azərbaycan xalqına bu sərvətlərindən heç nə çatmayıb.*

*Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz.*

*Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz.*

*Azərbaycan xalqının qüdrəti də var, imkanı da var.*

*Azərbaycan xalqı öz tarixində çox ağır dövrlər yaşamışdır. Lakin bütün sınaqlardan çıxaraq mənliyini, xəlqiliyini, azərbaycanlılığını, mü-*

*səlmanlığını itirməmişdir və heç vaxt da itirməyəcəkdir.*

*Azərbaycan xalqı bir xalq kimi bundan sonra nəinki yaşamalıdır, daha da qüdrətlənməli, daha da inkişaf etməlidir.*

*Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur.*

*Azərbaycan Respublikası, Azərbaycan xalqı qəsbkarlıq etmir, başqa respublikanın, başqa xalqın, başqa dövlətin torpaqlarına göz dikmir, hücum etmir, yalnız müdafiə olunur.*

*Azərbaycan xalqı öz torpaqlarını geri qaytarmalıdır, ərazi bütövlüyünü bərpa etməlidir. Xalqımız öz suverenliyini, öz müstəqilliyini qorumağa qadir xalqdır.*

*Xalqdan heç kəs inciyə bilməz.*

*Dünya miqyasında bir müstəqil dövlət kimi yaşamaq, beynəlxalq aləmdə layiqli yer tutmaq üçün Azərbaycan xalqı həm bugünkü potensia-*





*lından səmərəli istifadə etməli, həm öz gələcəyi haqqında düşünməlidir.*

*Azərbaycan xalqını əsrlər boyu yaşadan, bu günə qədər gətirib çıxaran onun gələcəyə həmişə nikbinliklə baxması olmuşdur.*

*Azadlıq, müstəqillik ideyası bizim, xalqımızın ideyasıdır.*

*Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur.*

*Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir.*

*Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır.*

*Xalqımız dözümlü xalqdır.*

*Azərbaycan xalqının soykökü birdir.*

*Azərbaycan xalqı öz torpağını qorumağa qadirdir.*

*Azərbaycan xalqı həmişə güclü olub.*

*Əsrlər boyu Azərbaycanın ağır günlərindən biri də bu olub ki, bu xalqın içərisində bir-birinə düşmən olan adamlar olub.*

*Azərbaycan xalqı öz müstəqilliyini, öz torpaqlarını qorumağa qadirdir.*

*Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoruyub saxlamışdır.*

*Öz müstəqilliyini möhkəmləndirmək və onu bu müstəqillikdən məhrum etmək üçün indən belə heç kimə imkan verməmək – Azərbaycan xalqının iradəsi belədir.*

*Azərbaycanda əsrlərdən-əsrlərə keçmiş milli, mənəvi dəyərlərimiz möhkəmlənəcək, daha*





*dərin kök salacaq, inkişaf edəcək və Azərbaycan xalqı dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacaqdır.*

*Xalqımız sayıq olmalıdır, xalqımız bilməlidir ki, biz müstəqil dövlət kimi öz taleyimizin, öz dövlətimizin sahibiyik və özümüz-özümüzü qorumalıyıq, xalqımızı qorumalıyıq, cəmiyyətimizi qorumalıyıq.*

*Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.*

*Azərbaycan xalqı öz mənliyini müdafiə etməyə qadirdir. Azərbaycan xalqı öz müstəqilliyini müdafiə etməyə qadirdir.*

*Azərbaycan xalqı çoxəsrlik tarixində, öz həyat yolunda böyük qələbələr çalmış, yüksək zirvələrə qalxmış, dünya mədəniyyətini zənginləşdirmişdir.*

*Azərbaycan xalqı daim müstəqil dövlət çərçivəsində yaşamalıdır, öz taleyinin sahibi olmalıdır və taleyini özü həll etməlidir.*

*Hər hansı bir xalq öz çərçivəsinə qapanıb yaşasa, dünyanı görməsə, dünya ilə əlaqəsi olmasa, çox inkişaf edə bilməz.*

*Azərbaycanlılar aciz millət, aciz və gücsüz adamlar deyildirlər.*

*Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.*

*Azərbaycan xalqı indi öz taleyinin sahibidir və müstəqil dövlət qurub, yaradıb yaşaya bilir. Bu, xalqımızın tarixlər boyu yaşadığı dövrlərdə ən yüksək səviyyəyə çatdığımız bir dövrdür.*

*Xalqımız sərbəstdir, azaddır, dövlət müstəqilliyini əldə edib və biz müstəqil dövlət kimi, dünyanın bütün dövlətləri ilə bərabər hüquqlu bir dövlət kimi yaşayırıq.*

*Hər bir azərbaycanlı bunu anlamalı, bilməlidir. Biz bir daha müstəmləkə ola bilmərik, bir daha qul ola bilmərik. Biz azad olmuşuq, Azərbaycan xalqı azad yaşamalıdır.*





*Xalqımız nə qədər tez birləşərsə, Azərbaycan xalqı bir-biri ilə nə qədər həmrəy olsa, nə qədər hamının sözü bir olsa, o qədər torpaqlarımızı tez geri qaytaracağıq, azad edəcəyik, ərazi bütövlüyümüzü təmin edəcəyik.*

*Azərbaycan xalqını xoşbəxt gələcək gözləyir.*

*İndi Azərbaycan xalqı öz taleyinin, öz sərvətlərinin, öz təbiətinin sahibidir.*

*Xalqımıza birlik lazımdır.*

*Biz hamımız azərbaycanlıyıq, hamımız bir millətik. Hamımızın bir dilimiz - Azərbaycan dilimiz var, hamımız bir dinə mənsubuq, hamımız bir millətin övladlarıyıq.*

*Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır.*

*Xalqımız itkilər də, qurbanlar da, şəhidlər də verib, ancaq heç vaxt sınmayıbdır, iradəsindən dönməyibdir, iradəsini itirməyibdir. Xalqımız məğrur xalqdır.*

*Bizim həyatımızda, indi oturduğumuz binanın möhkəm himi var, bu himi yaradanlar olubdur – bizdən öncə yaşayıb-yaratmış, qurmuş insanlar, Azərbaycanın fədakar insanları olubdur.*

*Biz heç kəsin quyruğuna bağlanan bir xalq deyilik. Biz böyük xalqıq, müstəqil xalqıq, öz adımız, öz dilimiz, ədəbiyyatımız, musiqimiz və öz ölkəmiz var. Ona görə də bu anlayışları yaşatmaq və inkişaf etdirmək, Azərbaycan dilini hər yerdə daha da yüksəklərə qaldırmaq hamımızın vəzifəsidir.*

*Bizim xalqın birliyi yaranıbdır və indi heç kəs bu birliyi sındıra bilməz, heç kəs onu poza bilməz. Bizim hamımızın borcumuz, vəzifəmiz bu birliyi, həmrəyliyi daha da yüksəkliyə qaldırmaq və ölkəmizi daha da yüksəltməkdir.*

*Azərbaycan xalqı istedadlı xalqdır, onun zəngin mədəniyyəti var, bu gün müstəqil dövləti, milli azadlığı var və Azərbaycan xalqının bundan da gözəl gələcəyi vardır.*

*Azərbaycan xalqı istedadlarla, görkəmli insanlarla həmişə zəngin olmuşdur.*





*Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq, onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır.*

*Bizim azərbaycanlılarda başqa şeylərdə çatışmazlıq olsa da, nəsil artırmaqda çatışmazlıq yoxdur.*

*Millətimizin, Azərbaycan xalqının özünəməxsus xüsusiyyətlərini, keyfiyyətlərini inkişaf etdirməliyik, yaşatmalıyıq və bir-birimizə həyan, dayaq olmalıyıq, kömək etməliyik.*

*Xalqımız şeiri, ədəbiyyatı sevən xalqdır.*

*Azərbaycan xalqının ən yüksək xüsusiyyətlərindən biri onun dözümlülüyü, dəyanətliliyi və yüksək iradəsidir.*

*Azərbaycan xalqı sülhsevər xalqdır.*

*Azərbaycan xalqı dözümlü xalqdır. Bu, bizim xalqımızın milli xüsusiyyətidir.*

*Azərbaycanlılar çox vətənpərvər və qonaqpərvərdirlər.*

*Azərbaycan xalqı istedadlı xalqdır. Bizim xalqımızın çoxəsrlik, şərəfli tarixi var.*

*Xalqımızda istedadlar potensialı çox böyükdür.*

*Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz, heç vaxt.*

*Öz aramızda səmimi, dost, mehriban olmalıyıq, bir-birimizə kömək etməliyik, bir-birimizin qayğısına qalmalıyıq. Bu, Qurani-Şərifin bizə verdiyi nəsihətlərdir, xalqımızın, millətimizin əsrlər boyu, tarixdən gələn ənənələridir, azərbaycanlıların ən yüksək keyfiyyətləri, xüsusiyyətləridir.*

*Azərbaycan xalqı istedadlı xalqdır. Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını,*





*elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər.*

*Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malikdir.*

*Xalqımızın çox gözəl xüsusiyyətləri, ənənələri var, qədim tarixi var. Ancaq qüsurlu cəhətləri də var. O da bundan ibarətdir ki, bir-birimizlə möhkəm əlaqə saxlaya bilmirik.*

*Xalqımız əsrlər boyu çox imtahandan, çox sınaqdan çıxmışdır. Bu, xalqımızın dözümlülüyü, çətinliklərdən səriştə ilə çıxa bilməsi sayəsində mümkün olmuşdur.*

*Xalqımız əsrlər boyu öz torpaqlarını, müstəqilliyini müdafiə edərək vuruşub, döyüşüb, şəhidlər veribdir. Bəzən əsarətə də düşüb, ancaq dözüb. Dözümlülük bizim xalqın xüsusiyyətidir, böyük mənəvi sərvətidir.*

*Xalqımız həmişə qürurlu olmuşdur.*

*...Azərbaycan xalqının qəlbində milli azadlıq ruhu, müstəqillik ruhu daim yaşamışdır.*

*Azərbaycan xalqı öz genetik əsaslarına görə gözəl, fiziki və mənəvi cəhətdən sağlam xalqdır. Tarixi, milli və dini adət və ənənələr xalqımızı həmişə fiziki və mənəvi cəhətdən sağlam həyat tərzi keçirməyə sövq edibdir.*

*Biz kasıb xalq deyilik. Yəni biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir.*

*Azərbaycan xalqı həmişə Tanrıya tapınan, qəlbində daim iman və inam gəzdirən xalqdır. Öz tarixi köklərinə, milli-dini keçmişinə sadiq olan xalqımızın mərd oğul və qızlarının yüksək vətəndaşlıq qeyrəti, Vətənə, torpağa bağlılığı, milli müstəqilliyimiz uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə ülvi, mənəvi, dəyərlərdən qaynaqlanır.*

*Azərbaycan xalqı qəhrəman xalqdır, cəsur xalqdır.*

*Azərbaycan xalqı yüksək vətənpərvərlik hissi ilə yaşayır.*





*Mən xalqın müdrikliyinə, zəkasına inanıram.*

*Azərbaycan xalqının potensialı – həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür.*

*Nikbinlik əhval-ruhiyyəsi, özündə olan gücü, qüdrəti yeri gələndə son həddə qədər toplayıb hərəkətə gətirmək imkanları – bunlar Azərbaycan xalqını həmişə ağır vəziyyətlərdən çıxarmışdır.*

*Bizim Azərbaycan xalqı tarix boyunca yüksək mənəvi keyfiyyətlərə malik xalq olub.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK HAQQINDA

## VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK HAQQINDA

*Torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs vəzifədir.*

*Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır.*

*Azərbaycan vətəndaşı olmaq böyük şərəfdir.*

*Əgər sən bir yerdə yaşayırsansa, sənin bir evin, koman varsa, onun sahibisənsə, onu qorumalısan. Əgər qoruya bilirsənsə, demək, sən namuslu, şərəfli adamsan, həm də doğrudan da vətənpərvər insansan. Əgər qoruya bilmirsənsə, sənin heç yaşamaq haqqın da yoxdur.*

*İndi gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin. Hamı borcludur. Heç kəs deyə bilməz ki, borclu deyil. Xalqın övladları bu torpaqda doğulub dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik. Bu, hamının borcudur.*

*Hər bir vətəndaş vətənpərvər olmalıdır.*

*Azərbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır.*

*Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir.*

*Azərbaycandan başqa Vətənimiz yoxdur.*

*Azərbaycan torpaqlarını biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq.*

*Bizim işimiz haqq işidir və Vətənini sevən hər bir adam bu işə qoşulmalıdır, dövlət qarşısında, xalq qarşısında öz vətəndaşlıq borcunu ödəməlidir.*

*Bütün valideynlərə müraciət edirəm: övladlarınıza daha yaxşı tərbiyə verin. Onları vətən-*





*pərvərlik əhval-ruhiyyəsi ilə tərbiyələndirin. Uşaqlarınıza valideyn kimi öz təsirinizi göstərin və bildirin ki, Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır.*

*Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir.*

*Xalqımız tarix boyu çox şəhidlər veribdir.*

*Müharibə gedən ölkənin əhalisi də dərk etməlidir ki, əgər respublika müharibə aparırsa və bu müharibə ölkənin suverenliyinin, müstəqilliyinin qorunmasına xidmət edirsə, belə halda hamı bir olmalı və hamı bilməlidir ki, müharibə şəraitində yaşayış sülh dövründəki yaşayışdan fərqlidir.*

*Hər bir insan üçün torpaq, Vətən ülvidir, hər bir şeydən ucadır, üstündür.*

*Biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Ana hər bir insan üçün müqəddəsdir. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir.*

*Biz Vətən müharibəsi aparırıq! Vətən müharibəsinə isə hamı qoşulmalıdır. Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir.*

*Gərək hamımız dərk edək ki, müstəqillik qazanmışıq, xalqımız azaddır, öz taleyini həll etmək imkanı var, Azərbaycan müstəqil dövlət kimi yaşamalı və inkişaf etməlidir. Bunun üçün hər bir kəsdə vətəndaşlıq hissi, Vətənin taleyi ilə yaşamaq hissi yüksək səviyyədə olmalıdır.*

*Hər kəs hər gün düşünməlidir ki, qələbə üçün, torpaqlarımızın azad edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün nə edir. Bu sualı hər gün özümüzə verməliyik. Əgər belə olmasa, qələbə qazana bilməyəcəyik.*

*Əgər bu torpaqda yaşayan adam öz Vətəninin müdafiəsindən boyun qaçırırsa, onun burada yaşamağa haqqı yoxdur.*

*Hamımızın borcu odur ki, torpaqlarımızı etibarlı qoruyaq.*

*Azərbaycan hər birimizin Vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır. Əgər əsgər, zabit Vətənin keşiyində durursa, döyüşdə həlak olursa, cəbhə bölgəsinə gedə bilməyən vətəndaş öz iş yerində çalışmalı və döyüşməyə qadir olan övladını, qohum-qardaşını mütləq cəbhə bölgəsinə, orduda xidmətə göndərməlidir. Başqa yol yoxdur! Başqa yol ola bilməz!*





*Hansı kənddən, hansı şəhərdən, hansı rayondan olmasına baxmayaraq, Azərbaycanın hər bir vətəndaşı torpaqlarımızı qorumaq üçün eyni məsuliyyət daşıyır, ondan vətəndaşlıq borcunu eyni səviyyədə yerinə yetirmək tələb olunur.*

*Biz heç vaxt sınmayacağıq, bizim iradəmiz heç vaxt dönməyəcək.*

*Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir.*

*Müharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyüşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdur. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur.*

*Vətənimizi qorumaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün Azərbaycanın hər bir namuslu, qeyrətli vətəndaşı öz köməyini əsirgəməməlidir.*

*Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.*

*Ağır, çətin dövrdə dünyaya gəlib böyüyən uşaqlar cəsarətli, mətin, vətənpərvər olacaqlar.*

*Azərbaycanın kənd zəhmətkeşləri – kəndlisi, torpaqla bağlı olan hər bir insanı həmişə namuslu, qeyrətli insan olubdur. Xalqımızın içərisində torpaqla bağlı olan adamlar həmişə Vətənə daha çox sədaqətli olan adamlardır. Onlar Vətənə daha bağlı olublar. Çünki torpağa bağlıdırlar.*

*Bütün maneələri aradan qaldırmaq üçün, bütün məqsədlərimizə nail olmaq üçün xalqımızın birliyi, həmrəyliyi əsas şərtdir.*

*Daim düşünməliyik ki, hər bir Azərbaycan vətəndaşı müstəqilliyimizi, dövlətimizi, torpaqlarımızı, Vətənimizi qorumağa hazır olmalıdır.*





*Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq üçün mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub.*

*Biz vətəndaş həmrəyliyini, milli həmrəyliyi, xalqın bütün təbəqələrinin həmrəyliyini bir məqsəd üçün – Azərbaycan müstəqilliyini qoruyub saxlamaq, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün təmin etməliyik.*

*Həyat həmişə inkişafdadır. Ona görə də nə qədər ağır itkilərimiz, nə qədər çətinliklərimiz olsa da, biz həmişə nikbin olmalıyıq, başımızı həmişə dik tutmalı, irəliyə həmişə inamla baxmalıyıq, ümidlə yaşamalıyıq.*

*Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən vətəndaşdırsa, Vətəninin övladıdırsa, deməli, öz Vətəninə, dövlətinə biganə qala bilməz.*

*Hər bir insan öz Vətəninə, millətinə, dininə, dilinə nə qədər bağlı olursa, mənəviyyatca da o qədər yüksək olur.*

*Müstəqil Azərbaycan Respublikası hər bir azərbaycanlı üçün doğma vətəndir.*

*Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir.*

*Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.*

*Azərbaycanı sevmək azərbaycanlılıq hissiyyatını özündə cəm etmək deməkdir.*

*Biz Azərbaycanın hər bir yerini doğma Vətən kimi sevməliyik. «Kim haralıdır, oranı sevir» kimi əhval-ruhiyyəni aradan götürmək lazımdır. Vətən hamımız üçün Vətəndir. Vətənin hər bir yeri, hər bir nöqtəsi bizim üçün Vətəndir.*

*Əminəm ki, hər bir Azərbaycan vətəndaşı yaxşı bilir - Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir. Qəhrəmanlıq yüksək fiziki keyfiyyətlər, cəsarət, iradə tələb edir.*





*Respublikamızda, ölkəmizdə yeni müstəqil dövlət, yeni iqtisadi-siyasi bir sistem qurulduğu, bizim üçün tamamilə yeni olan demokratik-hüquqi dövlət qurulduğu bir zamanda insanların vətənpərvər olması hər şeydən üstün olmalıdır.*

*Hər bir vətəndaşın borcu Azərbaycanın dövlət müstəqilliyinə, öz ölkəsinə, Vətəninə, xalqına sadiq olmaqdan ibarətdir.*

*Vətən müharibəsinin qəhrəmanları həmişə cəmiyyətin ən mötəbər, ən sayılan adamları idi.*

*Harada yaşamasından asılı olmayaraq, heç bir azərbaycanlı öz Vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harada yaşayırsansa-yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz Vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin Vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır.*

*Xalqımızın milli mənafeyini, kimliyindən asılı olmayaraq, ayrı-ayrı adamların şəxsi mənafelərinə qurban vermək olmaz. Milli mənafeyimiz, xalqın aqibəti bizim üçün hər şeydən əzizdir, hər şeydən üstündür.*

*Doğma torpağa sitayiş etmək həmişə hər bir insanın müqəddəs borcudur.*

*İş adamı iş görməlidir, para qazanmalı, öz işini inkişaf etdirməlidir. Amma heç vaxt öz milliliyini itirməməli, milli mənafeyini qurban verməməli, qoymamalıdır ki, öz milli mənafeyinə zərər gəlsin.*

*Əminəm ki, bizim bugünkü nəsil və gələcək nəsillər indiyə qədər yaşamış, yaratmış, qurmuş, mübarizə aparmış, döyüşmüş əcdadlarımızdan, bizdən əvvəlkilərdən daha da qəhrəman, sədaqətli olacaq, öz vətənlərinə, xalqına, müstəqil Azərbaycana canla-başla xidmət edəcəklər.*

*Qurub-yaradan adamlara eşq olsun! Xalq da, gələcək nəsillər də onlara minnətdar olacaqdır. Dağıdan, pozan adamlar nifrətlə qarşılanıblar, bundan sonra da nifrətlə qarşılanacaqlar. Onlar bu gün də lənətlənir, sabah da lənətlənəcəklər. Ona görə də qurmaq, yaratmaq lazımdır.*

*Azərbaycanda milli vətənpərvərlik təbliğatını genişləndirmək, xalqımızın milli vətənpərvərlik duyğularını inkişaf etdirmək lazımdır.*





*Ölkəmizin dünya miqyasında hörmətini qaldırmağa hamı çalışmalıdır.*

*Özünü ciddi şəxs bilənlər ümummilli məsələlər barəsində düşünüb-daşınmalıdırlar.*

*Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Bu, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.*

*Məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənası, məzmunu çox geniş tədris olunmalıdır. Bu çox əhəmiyyətlidir, çünki vətənpərvərlik hissləri insanlara uşaq vaxtından aşılanmalıdır. Xalqımızın təbii xüsusiyyəti ondan ibarətdir ki, xalqımız vətənpərvərdir. O, ananın bətnində vətənpərvərlik hisslərini özündə toplayır.*

*Biz gənclərimizi daha da çox vətənpərvərlik hissiyyatları ilə tərbiyələndirməliyik.*

*Dövlətimizi möhkəm qurmaq, ölkəmizi qorumaq, saxlamaq, hər bir vətəndaşı Vətənə sadiq etmək bizim borcumuzdur.*

*Azərbaycanın xoşbəxt gələcəyi onun əbədi olan dövlət müstəqilliyi ilə bağlıdır. Azərbaycanın xoşbəxt gələcəyi Azərbaycan vətəndaşlarının*

*Vətənə olan sevgisi, məhəbbəti ilə, onların vətənpərvərliyi, millətimizin qüdrəti ilə bağlıdır.*

*Azərbaycanın ən böyük sərvəti onun fədakar insanlarıdır.*

*İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır.*

*Bizim millətimiz istedadlı millətdir, gözəl millətdir, qəhrəman millətdir. Biz bununla fəxr edə bilərik.*

*Vətən hər bir adam üçün onun evidir, kəndidir, torpağıdır, ölkəsidir.*

*Vətənə, xalqa sədaqət və mənəvi saflıq – bunlar bizim müvəffəqiyyətimizin əsasıdır.*

*İlk şəhidlərimiz burada, indi Şəhidlər Xiyabanı adlanan yerdə (keçmişdə biz ona Dağüstü Park deyirdik) dəfn ediliblər. Onlar Yanvar faciəsinin şəhidləridir. Ora müqəddəs yerdir, hər birimiz üçün ziyarətgahdır və müqəddəs yer kimi də tariximizdə qalacaqdır.*





*Hər bir vətəndaş öz torpağı uğrunda qurban getməyə hazır olmalıdır.*

*Xalqımız tarix boyu çox şəhidlər veribdir.*

*Hər birimiz Vətən yolunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq.*

*Vətəni qorumaq şəhidlik, qurbanlar tələb edir.*

*Hər bir Azərbaycan vətəndaşı da Azərbaycan torpağını doğma torpaq hesab edərək, onun müdafiəsinə qalxmalıdır, onu qorumaq üçün mübarizə aparmalıdır, lazım olarsa, canından keçməlidir, şəhid olmalıdır.*

*«Vətəndaş» sözü böyük sözdür, müqəddəs sözdür. «Vətəndaş» sözü o deməkdir ki, hər bir vətəndaş öz Vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və Vətəninin uğrunda, torpağının uğrunda, anasının, atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır.*

*Biz Vətən yolunda həlak olan, canını qurban verən, şəhid olan adamların hər birinin şücaətini, qəhrəmanlığını heç vaxt unutmayacağıq. Azərbaycanın müstəqilliyi yolunda biz çox şəhidlər vermişik.*

*Döyüşərək özünü şəhid verən adamın həlak olması torpaq uğrunda, xalq yolunda həlak olmaq deməkdir.*

*Şəhidlər vermişik, Allahın əmri ilə onların hamısı cənnətdədir. O şəhidlərin hamısı xalqımızın qəlbindədir. Onları heç vaxt unutmayacağıq.*

*Bakıdakı Şəhidlər Xiyabanı, şəhər və qəsəbələrimizdəki, kəndlərimizdəki şəhid məzarları gənclərimizin qəhrəmanlığının nişanəsidir, onların Vətən yolunda, xalq yolunda, müstəqil Azərbaycan uğrunda şəhid olduqlarını göstərən abidələrdir.*

*Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı, müstəqilliyi uğrunda vuruşub, döyüşüb, mübarizə aparıb, qurbanlar, şəhidlər verib.*

*Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, xalqımızın milli azadlığı uğrunda şəhid olanların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin! Şəhid ailələri hər birimizin qayğısını hiss etməlidir.*

*Şəhidlərin xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*





*Şəhidlərin balaları bizim doğma balalarımızdır. Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir.*

*Biz şəhid ailələrini, şəhid balalarını heç vaxt yalqız qoymayacağıq.*

*Hər bir şəhidin tökülən qanı Azərbaycanın müstəqilliyini təmin edibdir.*

*Hər bir adam şəhid olmağa hazır olmalıdır ki, xalqımız daim azad olsun, daim müstəqil olsun.*

*Azərbaycan xalqı uzun əsrlər boyu yadelli işğalçıların zülmlərinə məruz qalmış, öz şərəfli tarixini şəhidlərinin al qanı ilə yazmışdır.*

*Biz fəxr edirik ki, Azərbaycan xalqı öz milli mənliyini, öz milli azadlığını qorumaq üçün həlak olmağa, şəhid olmağa hazırdır.*

*Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda, torpaqlarımızın müdafiəsi yolunda canlarını qurban vermiş Azərbaycan övladlarının xatirəsini qəlbimizdə əbədi olaraq yaşadacağıq. Eyni zamanda biz o igidlik nümunələrindən istifadə edərək xalqımızda qəhrəmanlıq əhval-ruhiyyəsini daha yüksək-*

*lərə qaldırmalıyıq. Bu, bizim müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün əsas şərtdir, əsas amildir.*

*20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi.*

*Tarix boyu Azərbaycan övladlarının Vətənə, öz millətinə, dövlətinə, xalqına sədaqət nümunələri, qəhrəmanlıqları və şəhidlik nümunələri onu göstərir ki, xalqımız bu gün də, gələcəkdə də öz torpaqlarını, Vətənini qorumağa hazırdır, Vətən, torpaq, müstəqillik naminə şəhid olmağa hazırdır.*

*Vətən, torpaq uğrunda canlarını qurban vermiş, şəhid olmuş insanların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.*

*Şəhidlər öz qəhrəmanlıqları, şəhidlikləri ilə xalqımızın mənəviyyatını yüksəklərə qaldırmışlar.*

*Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların*





*şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar.*

*Azərbaycan xalqı hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, Vətənin müstəqilliyini qorumaq üçün şəhid olmaq əzmini bütün dünyaya nümayiş etdirmişdir.*

*Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanlarının həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, o cümlədən xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir.*

# MİLLİ MÜNASİBƏTLƏR HAQQINDA

*Milli məhdudluq çərçivəsində yaşamaq olmaz.*

*Milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, bütün insanlar eyni hüquqa malikdirlər.*

*Bütün sivilizasiyalı ölkələr çoxmillətlidir.*

*Dünyanın inkişaf etmiş böyük demokratik adət-ənənələrə malik dövlətləri var – Avropa dövlətləri, Amerika qitəsində olan dövlətlər. Burada nə qədər millətlər hamısı bir yerdə yaşayırlar. Şübhəsiz ki, orada ayrı-ayrı xalqlara mənsub olan insanların adət-ənənələri yaşayır, amma onlar bir dövlətin vətəndaşlarıdır. Məhz ona görə də həmin ölkələrdə,*

*dövlətlərdə ümumxalq həmrəyliyi, ümumi vətəndaşlıq məfhumu çox möhkəmdir, əmin-amanlıqdır, sakitlikdir, həyat səviyyəsi, mədəniyyət yüksəkdir, demokratik prinsiplər yüksək səviyyədədir.*

*Ən vacib borcumuz millətçiliyə, separatizmə, şovinizmə gedən yolları kəsmək, bunun qarşısını almaqdır.*

*Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır.*

*Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.*

*Ruslar əsrlərlə burada yaşayan adamlardır, onlar Azərbaycanın vətəndaşıdırlar. Rus üçün, burada yaşayan, burada doğulmuş, dədəsi, babası burada doğulmuş, qəbri burada olan rus üçün bura Vətəndir axı.*

*Azərbaycan öz çoxmillətliliyi ilə səciyyəvidir.*





*Rusdilli əhalinin olması Azərbaycan üçün və onun gələcəyi üçün olduqca mühüm amildir.*

*Azərbaycan çoxmillətli respublikadır, çoxmillətli ölkədir. Burada əsrlər boyu bir çox millətlər birgə yaşayıblar, yaşayırlar və bundan sonra da yaşayacaqlar.*

*Azərbaycan onun ərazisində yaşayan bütün insanların vətənidir.*

*Azərbaycan çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq, onun bütün vətəndaşları bərabər hüquqlara malikdirlər.*

*Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimiz, üstünlüyümüzdür.*

*Respublikamız çoxmillətli respublikadır. Ölkəmizdə yaşayan, hər bir millətə məxsus olan adam Azərbaycanın bərabərhüquqlu vətəndaşıdır.*

*Azərbaycan Respublikası bu milli tərkibini tarixi bir nailiyyət kimi qeyd etməlidir və həmin milli tərkibi, milli nisbətləri qoruyub saxlamalıdır.*

*Azərbaycan çoxmillətli demokratik bir dövlətdir. Hər bir insan, hər bir Azərbaycan vətəndaşı bərabər hüquqa malikdir. Milliyyətindən asılı olmayaraq, hər bir vətəndaşımız üçün Azərbaycan ana Vətəndir!*

*Azərbaycan Respublikası çoxmillətli respublikadır. Azərbaycanda yaşayan bütün xalqlar milli mənsubiyyətindən, dinindən, dilindən, siyasi dünyabaxışından asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və Azərbaycanın dövlət strukturlarında, ictimai təşkilatlarında bərabər hüquqla iştirak edir.*

*Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma Vətənidir.*

*Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə, biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik.*

*Azərbaycanın zəngin beynəlmiləlçilik ənənələri var. Burada həmişə bir çox millətlərin nümayəndələri yaşamışdır və bu gün də yaşayırlar. Biz bunu Azərbaycanın sərvəti sayırıq, bunu qiymətləndiririk və qoruyub saxlamaq istəyirik.*





*Azərbaycan həmişə çoxmillətli bir ölkə olubdur, bu gün də çoxmillətli bir ölkədir.*

*Azərbaycan çoxmillətli dövlətdir. Milli mənsubiyyətindən asılı olmayaraq, bütün adamların dini etiqad azadlığı, vicdan azadlığı və hüquq bərabərliyi bizdə tamamilə təmin edilmişdir.*

*Azərbaycan demokratik bir ölkədir, demokratiya yolu ilə gedir və gedəcəkdir. Ölkəmizdə insan haqlarının qorunması Azərbaycan dövlətinin əsas məqsədlərindən biridir, siyasi plüralizm, mətbuat, din, vicdan azadlığı təmin olunubdur. Azərbaycan çoxmillətli ölkədir, bizdə milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, bütün vətəndaşlar eyni hüquqlara malikdirlər və bərabər hüquqla yaşayır, fəaliyyət göstərirlər.*

*Azərbaycan bir çox əsrlər yəhudilər üçün də doğma vətən olubdur, yaşayış yeri olubdur. Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. Bu gün də yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir.*

*Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra biz bəyan etmişik ki, respublikamız Azərbaycanda yaşayan bütün vətəndaşların – milliyyətindən, dinindən, irqindən asılı olmayaraq, doğma vətənidir.*

*Xalqın azsaylısı, çoxsaylısı yoxdur. Xalqın hamısı xalqdır. Ona görə də Azərbaycanda yaşayan xalqların hamısı xalqdır, biz heç kəsi azsaylı xalq hesab etmirik, hamısı Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, hamısı da birlikdə vahid Azərbaycan xalqıdır.*

*Azərbaycanda əsrlər boyu azərbaycanlılarla yanaşı, yəhudilərin rahat və sərbəst yaşaması bizim bir xalq kimi xeyirxah, sülhsevər xalq olduğumuzu nümayiş etdiribdir. Azərbaycanda yəhudilərlə azərbaycanlılar arasında mövcud olan və tarix boyu hökm sürmüş dostluq münasibətləri buna əyani sübutdur. Bizim ölkəmizdə – müstəqil Azərbaycanda yaşayan hər bir kəs dilindən, dinindən, milliyyətindən asılı olmayaraq, bərabər hüquqlara malik Azərbaycan vətəndaşıdır. Azərbaycanda yaşayan yəhudilər Azərbaycan xalqının bu tarixi ənənələrindən həmişə bəhrələnmişlər, indiki zamanda isə müstəqil Azərbaycan dövlətinin qayğısı altındadırlar.*





*Bizdə azərbaycanlılarla yanaşı, ruslar, ukraynalılar, yəhudilər də yaşayır. Biz bunu respublikamızın ləyaqəti hesab edirik.*

*Yəhudi xalqı bəşər mədəniyyətini zənginləşdirmiş və bəşər tarixində böyük izlər qoymuş bir xalqdır. Tarix sübut etmişdir ki, bu xalqı məhv etmək mümkün deyildir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# TERRORÇULUQ, SEPARATÇILIQ, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ HAQQINDA

*Bütün ölkələrin ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumaq, dünyanın bir çox regionlarında axır zamanlarda geniş yayılmış separatizmə, terrorizmə qarşı ciddi mübarizə aparmaq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə riayət etmək, onları real surətdə həyata keçirmək hər birimizin və hamımızın müqəddəs borcudur.*

*Dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər separatizm problemidir, terrorizm problemidir, hərbi münaqişələr problemidir. Biz bütün dünyada, dünyanın hər bir bölgəsində separatizmin əleyhinə olmuşuq və onun əleyhinəyik.*

*Dövlətlər bir-birinin daxili işlərinə qarışmamalıdırlar, heç nəyi zor gücünə həll etmək olmaz, hər bir ölkənin ərazi bütövlüyü qorunmalı və təmin edilməlidir, separatçılığa, təməlçiliyə, terrorçuluğa yol verilməməlidir.*

*Cinayətkarlıq, rüşvətxorluq, korrupsiya ictimaiyyəti, adamları narahat edən, onlarda narazılıq doğuran əsas məsələdir. Belə hallar müstəqil Azərbaycan Respublikasının həyatının bu mühüm mərhələsində gördüyümüz işləri ləkələyir.*

*Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür.*

*Gələn humanitar yardıma xəyanət edənlər, əl uzadanlar, ondan öz məqsədləri üçün istifadə edənlər ən böyük cinayət edirlər. Bundan da böyük, bundan da çirkin cinayət ola bilməz.*

*Azərbaycan bir sivil, demokratik, hüquqi dövlət kimi cinayətkarlıqdan tamamilə xilas olmalıdır.*





*Narkotik maddələrdən istifadə olunması tarixi keçmişimizə, xalqımıza xas olan bir xüsusiyyət deyildir.*

*Narkotiklərə nəzarət, narkomaniya və narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir.*

*Hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi izahat işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər.*

*Narkotik maddələrin gizli, qeyri-qanuni istehsal olunması, onların qanunsuz dövriyyəsi, satılması, istehsal edilən ölkələrdən başqa ölkələrə gizli surətdə, qeyri-qanuni yollarla daşınması kimi hallar narkotik maddələrin, narkomaniya xəstəliyinin yayılmasına səbəb olan əsas amillərdir.*

*Hər bir ölkədə narkotik maddələrin istehsalı, onların qeyri-qanuni istifadəsi ilə ciddi mübarizə aparılmalıdır.*

*Azərbaycanın hüquq-mühafizə orqanları narkomaniya ilə və xüsusən narkobiznesla, o cümlədən narkotik maddələrin Azərbaycan ərazisindən daşınması halları ilə ciddi mübarizə aparmalı və onlar da bu vəzifələri özlərinin birinci dərəcəli vəzifəsi kimi qəbul etməlidirlər.*

*Bizim mənəviyyatımızı pozan rüşvətxorluq olub.*

*Azərbaycanda müstəqil dövlət var. Azərbaycanın güclü dövləti var. Kim xalqına, dövlətinə sədaqətlə xidmət etmək istəyirsə, ona burada yer var, hamıya yer var. Azərbaycanda hər bir kəs üçün yer var. Amma kimsə xalqına xəyanət edəcəksə, rüşvətxorluq edəcəksə, vəzifəsindən sui-istifadə edəcəksə, cürbəcür çirkin yollara gedəcəksə, ayrı-ayrı mafioz qruplarla birləşəcəksə, gedib orada-burada yenə də vəzifə uğrunda mübarizə aparacaqsa, onlara bizim cəmiyyətdə yer yoxdur.*

*Rüşvətxorluğun harada çox, harada az olmasının o qədər də əhəmiyyəti yoxdur. Hər bir dövlət, millət, xalq üçün rüşvətxorluq böyük bəlalardan biridir.*





*Vəzifəsindən sui-istifadə etmək, rüşvətxorluq, müxtəlif iqtisadi əlaqələrdə – öz aralarında, yaxud xarici şirkətlərlə əlaqələrdə şəxsi mənafeləri hər şeydən üstün tutub işlərə zərər vurmaq kimi hallar mənəviyyatımıza, həyatımıza zidd olan hallardır və bunların hamısının qarşısı alınmalıdır.*

*...Bütün həyatımızda insanlara mane olan rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, korrupsiya - bunlara qarşı qanunlar vasitəsilə mübarizə, bizim dövlət prinsipləri vasitəsilə mübarizə aparılmalıdır.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# QADIN VƏ AİLƏ HAQQINDA

ADIN VƏ AİLƏ
AQQINDA

*Qadın cəmiyyətin ən hörmətli üzvüdür. Hamı qadının qarşısında baş əyməlidir, hamı qadına hörmət etməlidir.*

*Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik.*

*Qadınlar həmişə sülh, xoş münasibətlər tərəfdarı olublar.*

*Azərbaycan qadınları eyni zamanda cəmiyyətimizi gözəlləşdirirlər, insanlarda sevinc, məhəbbət, nikbinlik hissləri yaradırlar.*

*Şərq aləmində ilk dəfə 20-ci illərin əvvəllərində Azərbaycan qadınının azad olması və kişilərlə bərabər hüquqlara malik olması elan edilibdir. Azərbaycan qadınının çadradan xilas olması xalqımızın həyatında tarixi bir hadisə olmuşdur.*

*Qadınların bayramı bütün xalqımızın, cəmiyyətin, ölkəmizin bayramıdır.*

*Qadınlar bizim hamımız üçün əzizdirlər, sevimlidirlər. Qadınların ölkəmizdə, cəmiyyətdə rolu çox əhəmiyyətlidir.*

*Azərbaycan qadınının tarixi çox böyükdür, zəngindir. Ancaq XX əsrdə Azərbaycan qadınının keçdiyi yol, əldə etdiyi nailiyyətlər həqiqətən dünya miqyasında bizim üçün böyük iftixar mənbəyinə çevrilmişdir.*

*«Kitabi-Dədə Qorqud»un qadın surətləri bu günə qədər mətinliyin, böyük iradənin və mərdliyin parlaq rəmzi sayılır.*





*Qadın çox ülvi bir məfhumdur. Qadına hörmət hər bir insanın ən yüksək mənəvi keyfiyyətə malik olmasını göstərir. Hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. «Ana» sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də «Ana Vətən» deyirik, torpağa da «Ana torpaq» deyirik. Hər bir insan üçün Vətəndən əziz heç bir şey yoxdur. Hər bir insan üçün onun doğma torpağından qiymətli heç bir şey yoxdur. Bu anlayışlar ana anlayışı ilə bərabərdir və biz Vətənə «Ana Vətən» deyəndə, vətənin nə qədər əziz, nə qədər qiymətli, müqəddəs olduğunu bir daha qeyd edirik. Anaya hörmət, hər bir insanın həyatda ana qarşısında borcunu yerinə yetirməsi onun ali vəzifəsi olmalıdır.*

*Qadına hörmət hər bir millətin başucalığıdır. Bizim millətimizin tarixi ənənələri həmişə qadınlara hörmət etməyi tövsiyə etmişdir. Biz bu gün də, gələcəkdə də ölkəmizdə, cəmiyyətdə qadını uca tutmalıyıq, qadına hörmət etməliyik. Ana, qadın hər bir Azərbaycan oğlu üçün müqəddəs bir məfhum olmalıdır.*

*Azərbaycanda ailələr həmişə çoxuşaqlı olublar, bu, bizim xalqımızın milli xüsusiyyətidir.*

*Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmişlər.*

*Möminə Xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, həm də xalqımızın qadına göstərdiyi hörmət-izzətin parlaq təcəssümüdür.*

*Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır.*





## UŞAQ VƏ GƏNCLƏR HAQQINDA

*Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur.*

*Biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq. Uşaqlarımıza təhsil verməliyik. Onları gələcək üçün hazırlamalıyıq.*

*Nə qədər çox sülh, əmin-amanlıq olarsa, gələcək nəslimiz daha yaxşı, daha firavan yaşayacaq, yaxşı təhsil, tərbiyə alacaq, gələcək üçün hazırlaşacaqdır.*

*Əziz balalarım, siz oxuyub, təhsil alıb özünüzü cəmiyyətdə işləmək, xalqa xidmət etmək üçün hazırlamalı, düşünməlisiniz ki, Azərbaycanın müstəqilliyini gələcəkdə siz irəli aparacaqsınız, Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz.*

*Bizim ümidimiz, gələcəyimiz bizim uşaqlarımızdır, balalarımızdır.*

*Uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir.*

*Bizim hər birimizin ən böyük sevinci, ən çox istədiyimiz - balalarımız, uşaqlarımız, gənclərimizdir.*

*Uşaq evlərinə qayğı göstərmək bizim ən əsas vəzifələrimizdən biridir.*

*Valideynsiz, ata-anasız uşaqların yaşamasına, tərbiyə, təhsil almasına xüsusi qayğı göstərilməlidir.*

*Bugünkü uşaqlar müstəqil Azərbaycanın gələcəyidir.*





*Gərək hər bir xeyirxah, imkanlı adam uşaq evinə qayğı göstərməyi, kömək etməyi, orada təlim-tərbiyə alan, yaşayan uşaqların vəziyyətini yüngülləşdirməyi özü üçün şərəfli bir vəzifə hesab etsin.*

*Uşaqlara qayğı, onlar haqqında daim düşünmək, onlara qayğı göstərmək, yüksək mənəviyyatın, mədəniyyətin əlamətləridir.*

*Uşaqlar daim qayğı altında olmalıdır, onları qorumaq, müdafiə etmək, böyütmək, insan cəmiyyətinin fəal iştirakçısı, fəal üzvü etmək lazımdır.*

*Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı həmişə hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur.*

*Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi necə tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu, bizim müqəddəs borcumuzdur.*

*Uşaqlara, gənclərə qayğı və diqqət Azərbaycan dövlətinin, hökumətinin, prezidentinin ümdə vəzifəsidir və əsas borcudur.*

*Uşaqlara qayğı, diqqət hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.*

*Uşaqlar hər bir insana ən böyük xoşbəxtlik gətirir. Hər bir insan istəyir ki, onun uşağı olsun. Hər bir insan uşağını sevir, ona tərbiyə verir, uşağını böyüdür, oxudur, gələcəyə hazırlayır. Belə insanlar, ailələr xoşbəxt insanlardır, ailələrdir.*

*Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir.*

*Həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, İslam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır.*

*Azərbaycanın genofondu gənclərdir. Biz onları hərtərəfli qorumalıyıq.*





*Gənclərimizin borcudur ki, Azərbaycan daim müstəqil dövlət olsun, Azərbaycan xalqı bir millət kimi dünyada öz yerini tuta bilsin, gələcəyə daha da uğurla gedə bilsin, dünya millətləri, xalqları arasında aşağı səviyyədə durmasın, ümumdünya səviyyəsində olsun.*

*Azərbaycanda milli azadlıq hərəkatı geniş yayılmışdır və bunun aparıcı qüvvəsi gənclər olmuşdur.*

*Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır.*

*Qanı tökülən, döyüşlərdə qəhrəmanlıq göstərən gənclər müstəqil Azərbaycanın tərəqqisi və inkişafı uğrunda vuruşur və şəhid olurlar.*

*Gənclərlə ciddi məşğul olmaq – Azərbaycanın gələcəyi haqqında düşünmək, gələcəyi naminə çalışmaq deməkdir.*

*Orta məktəbi qurtarıb ali məktəbə daxil olmaq hər bir gənc üçün böyük hadisədir və tam qətiyyətlə deyə bilərik ki, bu xoşbəxtlikdir.*

*Əziz gənclər, biz müstəqil dövlət kimi torpaqlarımızın hər bir qarışına sahib olmalı, işğal olunmuş ərazilərimizi geri qaytarmalıyıq. Hər bir gənc, hər bir vətəndaş bu yolda fədakarlıq göstərməlidir. Mən sizi – gəncləri bu yola dəvət edirəm. Sizi Azərbaycanın müstəqilliyini qorumağa, torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə hazır olmağa çağırıram.*

*Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır.*

*Məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır. Mən əminəm ki, bizim çoxminli müəllimlər ordumuz, məktəblərimiz öz vəzifələrini məhz bu cür qəbul edirlər, öz vəzifələri haqqında bu cür düşünürlər və bu cür də fəaliyyət göstərəcəklər.*

*Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir.*





*Gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik.*

*Respublikamızın gələcəyi gənclərin nə dərəcədə keyfiyyətlə hazırlanmasından asılıdır.*

*Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir.*

*Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır.*

*Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir.*

*Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir.*

*Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.*

*Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.*

*Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir.*

*Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.*

*Azərbaycanlılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır.*

*Gənclər bizim bu günümüz, gələcəyimizdir.*

*Gənclər Azərbaycanın gələcəyini öz çiyinlərində gələcəyə aparmalıdırlar.*

*Siz gənclər bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz.*





*Respublikamızın gələcəyini təşkil edən gənclərimiz, onların fiziki hazırlığı, gələcək üçün gördükləri iş böyük əhəmiyyət kəsb edir.*

*Gənclərlə görüş insanı həmişə sevindirir və xoş əhval-ruhiyyə yaradır.*

*Azərbaycan gəncləri həmişə fəal olublar, həyatımızın xüsusən o kəskin dövrlərində öz mövqelərini bildiriblər.*

*Gənclik xoşbəxtlikdir.*

*Azərbaycan gənclərinin tam əksəriyyəti milli vətənpərvərlik əhval-ruhiyyəsində olub və öz mövqelərini bildirib.*

*Gənclər respublikamızın inkişafında, bu səviyyəyə çatmasında əvəzsiz xidmətlər göstəriblər.*

*Gənclik dövründə boş, mənasız keçirilən bir gün sonra böyük itkilərə gətirib çıxarır.*

*Hər gündən, dəqiqədən səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmin, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm də ölkə, xalq üçün faydalı olsun.*

*Gənclərimiz bu gün də Azərbaycan Respublikası ictimaiyyətinin əsas hissəsini təşkil edir və biz Azərbaycanda hüquqi, demokratik dövlət quraraq, respublikamızın müstəqilliyini qoruyub saxlamaq üçün lazım olan tədbirləri görərək daim gənclərə arxalanırıq, güvənirik.*

*Gənclərin qarşısında duran vəzifələr böyükdür. Ancaq əsas vəzifələrdən biri bundan ibarətdir ki, gərək gənclər həyatımızın bu çətinliklərinə baxmayaraq, təhsillənsinlər.*

*Milli ideologiya konsepsiyası haqqında danışanda gəncləri birinci növbədə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etmək lazımdır.*

*Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir.*





*Gənclər xalqımızın milli ənənələri, milli mənəvi dəyərləri əsasında tərbiyələnməlidir.*

*Milli, mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşlarımızın və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir.*

*Azərbaycan gəncləri cəmiyyətimizdə demokratik prinsiplərin bərqərar olmasına, inkişaf etməsinə fəal qoşulmalıdırlar.*

*Mən inanıram ki, Azərbaycanın bu gün yetişən gənc nəsli bütün keçmiş nəsillərdən daha da yüksəklərə qalxacaqdır. Çünki siz müstəqil Azərbaycanda, öz azad Vətəninizdə yaşayırsınız.*

*Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və qorunub saxlanılması bizim müqəddəs vəzifəmizdir. Biz hamımız birlikdə, siz gənclərlə, bütün Azərbaycan xalqının iradəsi ilə bu vəzifəni yerinə yetiririk və yetirəcəyik.*

*Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir.*

*Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.*

*Azərbaycandan kənara – başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyəm ondan ibarətdir ki, siz hansı ölkədə olursunuz– olun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının bütün imkanlarından istifadə edib hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir. Eyni zamanda siz respublikamızı xarici ölkələrdə təmsil edən insanlar, gənclər olacaqsınız. Siz, sadəcə olaraq, təhsil almaqla kifayətlənməməlisiniz, Azərbaycanı ləyaqətlə təmsil etməlisiniz, ölkəmizin həqiqətlərini təhsil alacağınız universitetlərdə, təhsil müəssisələrində yaymalısınız, təbliğ etməlisiniz. Buna çox böyük ehtiyac var.*

*Bütün Azərbaycan gənclərinin qarşısında bir vəzifə - öz xalqına, dövlətinə, ölkəsinə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsi durur.*





*Azərbaycan xalqı istedadlı xalqdır, onun istedadı hərbi sahədə də ən yüksək səviyyədə ola bilər. Azərbaycanlının istedadı, qabiliyyəti havanı, səmanı fəth etməkdə də ən yüksək səviyyədə ola bilər. Mən əminəm ki, bu belə də olacaqdır. Çünki mən bizim Azərbaycan gənclərinin həm fiziki cəhətdən genetik keyfiyyətlərinin yüksək olmasını, həm də xaraktercə, xasiyyətcə cəsur olmasını yaxşı bilirəm. Bunu bir çox azərbaycanlılar dəfələrlə, tarix boyu öz cəsurluğu ilə dünyaya nümayiş etdiriblər. Mən tam əminəm ki, bu gün də, gələcəkdə də bizim gənclərimiz bunu nümayiş etdirəcəklər.*

*Nə olur - olsun, Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir.*

*Ümidvaram ki, bizim bugünkü gənclərimiz keçmiş dövrlərdə olan gənclərdən daha da yüksək təhsil ala biləcəklər və gələcək üçün daha da bilikli, daha da yüksək səviyyəli olacaqlar.*

*Azərbaycanın bugünkü gəncləri XXI əsrin qurucularıdır.*

*Gənclər bilməlidirlər ki, həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.*

*Bizim gənclərimiz gərək mənəviyyatca, fiziki, şüuri cəhətdən tam sağlam olsunlar. Biz gərək bu gün və gələcək üçün sağlam cəmiyyət yaradaq.*

*Bizim gənclər gərək hazırlaşsınlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edə bilsinlər. Bunun üçün biliklənmək, təhsil almaq, sağlam həyat tərzi keçirmək, mənəvi, milli dəyərlərimizə daim söykənmək və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır. Mən əminəm ki, bizim gənclərimiz Azərbaycanın gələcəyini bizdən də yaxşı təmin edəcəklər. Çünki bizim çox zəkalı, çox bacarıqlı, istedadlı gənclərimiz vardır. Mən ümidvaram ki, gənclər bugünkü təcrübədən yaxşı bəhrələnəcəklər və Azərbaycanın gələcəyini təmin edəcəklər.*





*Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq. Biz bundan sonra da dünya birliyində özümüzə məxsus olan yeri tutmağa, saxlamağa çalışacağıq. Biz dünyanın mütərəqqi dövlətləri, birlikləri ilə bundan sonra da əməkdaşlıq edəcəyik. Azad, sərbəst, demokratik ölkə kimi Azərbaycan inkişaf edəcək və Avropa ilə Asiyanın qovuşduğu bir yerdə öz tarixi xidmətlərini göstərəcəkdir.*

*Biz, Azərbaycanın bugünkü gənc nəsli, Azərbaycanın gələcək nəsilləri üçün yaxşı bünövrələr qoyur, yaxşı əsaslar yaradırıq. Ən əhəmiyyətli amil ondan ibarətdir ki, Azərbaycanın müstəqil dövləti yaranıb, möhkəmlənib, inkişaf edir. Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır və əbədidir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# ZİYALILAR VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

*Bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir.*

*Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır. Mən həyatım boyu belə düşünmüşəm, belə fikirləşmişəm.*

*Azərbaycanda demokratiya prinsiplərini bərqərar etmək, tətbiq etmək üçün respublikamızın və dövlət orqanlarının ziyalılara çox böyük ehtiyacı var.*

*Tariximizdə hər bir şəxsiyyətin öz yeri var.*

*Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.*

*XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər.*

*Biz fəxr edirik ki, xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini daim qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir.*

*Azərbaycan xalqının öz milli mənliyi var. O milli mənliyi də xalqın qabaqda gedən adamları ifadə etməli, təmsil etməlidirlər. Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax bu, xalqın ən böyük faciəsidir.*





*Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.*

*Ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir.*

*Keçmiş əsrlərdə də, XX əsrdə də Azərbaycanın böyük insanları olubdur. Ancaq bu böyük insanların xatirəsini əbədiləşdirmək lazımdır. Gələcək nəsillər onların həyat yolunu, yaradıcılığını, gördükləri işi, yaratdıqlarını daim bilməlidirlər.*

*Müdriklik insanın fitri istedadıdır, müdriklik həm də insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürməsidir.*

*İstedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar, istedadlı ola bilməzlər. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var.*

*Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasalar, böyük sənətkar da ola bilməzlər.*

*İnsan anadangəlmə, fitri istedada malikdirsə, Allah ona nadir fitri istedad veribsə, bu, onsuz da parlayacaqdır. Ancaq insan öz təhsili, zəhməti, əməyi, işi ilə istedadını inkişaf etdirirsə, daha da parladır və genişləndirirsə, onda belə insan böyük şəxsiyyət olur.*

*Biz daim çalışmışıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var.*

*Türkiyə Cümhuriyyətinin banisi, iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan Mustafa Kamal Atatürkün azadlıq və demokratiya ideallarına sonsuz məhəbbəti, sərkərdəlik və dövlətçilik məharəti sayəsində türk xalqı tarixin çətin sınaqlarından çıxıb qurtuluş tapdı. Dünya Türkiyə Cümhuriyyəti adlı azad və məğrur bir məmləkəti tanımalı oldu.*





*Atatürkün məşhur «Yurdda sülh, cahanda sülh» ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir.*

*Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir.*

*Mustafa Kamal Atatürk bütün türk dünyasının əvəzsiz, ölməz lideridir.*

*Böyük öndər Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri də odur ki, öz qəhrəmanlığı ilə türk əsgərini qəhrəman etdi.*

*İhsan Doğramacı dünya miqyasında böyük şəxsiyyətdir və türkün, türk xalqının nə qədər yüksəklərə qalxa bilməsini, nə qədər böyük zəkaya, fəaliyyətə malik ola bilməsini dünyaya nümayiş etdirən bir insandır.*

*Səməd Vurğun bütün xalqımıza, millətimizə mənsubdur.*

*Müstəqillik şəraitində Səməd Vurğunun əsərləri bizim hamımız üçün və xüsusən gələcək nəsil üçün, bu günün gənc nəsli üçün böyük bir sərvətdir.*

*Səməd Vurğun millətimizin başını tarixdə uca edən şəxsiyyətlərdən biridir. Onun yaradıcılığını daim yaşatmaq, yeni-yeni nəsillərə çatdırmaq bizim borcumuzdur. Biz bu ənənəni yaradaraq, bizdən sonra gələn nəsillərə də yol açırıq ki, onlar da bu yolla getsinlər.*

*Səməd Vurğunun yaradıcılığı dəryadır.*

*Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir.*

*Səməd Vurğun şeirinin böyüklüyü, eyni zamanda gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara Vətəni, milləti, torpağı sevməyi öyrədir.*





*Səməd Vurğun ana dilimizi – Azərbaycan dilini təkmilləşdirib, inkişaf etdiribdir. Bu, Səməd Vurğunun ən böyük xidmətlərindən biridir.*

*İndiki dilimiz – türk dilləri qrupuna məxsus olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir. Biz bu dilimizlə fəxr edirik.*

*Bugünkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpic-kərpic qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur – kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur.*

*Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə*

*qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.*

*Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək.*

*Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də, ümumiyyətlə, ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi.*

*Molla Pənah Vaqif Azərbaycan xalqının fəxri, böyük şairimizdir.*

*Əliağa Vahid böyük bir xəzinədir.*

*Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir.*

*Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi*





*kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir.*

*Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.*

*Füzuli azərbaycanlıdır, Azərbaycan köklüdür, onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir.*

*Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli doğrudan da azərbaycanlıdır və Azərbaycana mənsubdur.*

*Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, bütün bəşəriyyətin dahi mütəfəkkiridir.*

*Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub.*

*Məhəmməd Füzulinin yaratdığı əsərlər bundan sonra gələn nəsilləri də xalqa, millətə, torpağa, Vətənə sədaqət ruhunda tərbiyə edəcək, hazırlayacaqdır.*

*Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.*

*Füzuli Azərbaycanın böyük milli sənətkarı olmaqla yanaşı, bütün müsəlman aləminin qəlb şairidir.*

*Füzulinin humanizm və ümumbəşəri dəyərlərlə mayalanmış yaradıcılığı bütün bəşəriyyət üçün böyük mənəvi qidadır.*

*Füzulinin özünün yaratdığı mənəvi heykəl bizim hər birimizin qəlbindədir.*

*Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.*





*Səttar Bəhlulzadə adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış bir şəxsiyyətdir.*

*Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil, həm də yaradıcılığına görə adi geyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır.*

*Səttar Bəhlulzadənin yaradıcılığı bizim üçün mənəviyyat mənbəyidir. Xalqımızın mədəniyyətinin, rəssamlıq məktəbinin professional səviyyəsinin nə qədər yüksək olduğunu bütün dünyaya göstərir. Eyni zamanda xalqımızın rəssamlıq məktəbinin yeni, orijinal üslubda əsərlər yaratmağa qadir olduğunu sübut edir. Bu bizim fəxrimizdir. Bu, xalqımızın gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün böyük bir əsasdır.*

*Səttar Bəhlulzadə özünün orijinal, təkrarolunmaz yaradıcılığı, əsərləri ilə Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmiş, yüksəklərə qaldırmış, ona dünya şöhrəti qazandırmışdır.*

*Səttar Bəhlulzadə Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaratmışdır. Onun əsərləri, sənətkarlıq və rəssamlıq üslubu çox orijinal və özünəməxsusdur.*

*Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, ondan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir.*

*Azərbaycanın böyük sənətkarı Sultan Məhəmməd beş yüz il bundan öncə böyük miniatür rəssamlığı məktəbi yaratmış və o məktəb davam edərək bütün Şərq aləminə öz təsirini göstərmişdir.*

*Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı,*





*publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir.*

*Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir.*

*Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycanın mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir.*

*Xalqımızın milli şüurunun formalaşmasında məhz «Molla Nəsrəddin» jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir.*

*Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir.*

*Yüksək professional səviyyəli musiqi əsəri, sənət əsəri yazmaq, ortaya çıxarmaq, şübhəsiz*

*ki, böyük istedad tələb edir. Arif Məlikov belə bir fitri istedada malik insandır.*

*Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir.*

*Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.*

*Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.*

*Üzeyir Hacıbəyovun bütün əsərləri ölməzdir.*

*Üzeyir Hacıbəyovun yaradıcılığının ən əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o,*





*tək musiqi yox, əsərlərinin bütün mövzusunu kəşf edib, yaradıbdır. Onların mənasını, məzmununu düşünüb və seçdiyi mövzular, bu mövzular əsasında yaratdığı musiqi, dramaturgiya əsərləri heç də təsadüfi xarakter daşımır.*

*Üzeyir Hacıbəyovun yaşadığı hər gün bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, mədəniyyətinin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir.*

*Üzeyir Hacıbəyov çox gözəl, əzəmətli Dövlət Himni yaratmışdır. Mən hər dəfə ayrı-ayrı ölkələrdə Üzeyir Hacıbəyovun musiqisi ilə yaradılmış himnin səsləndiyini duyarkən qürur hissi keçirirəm. Təkcə ona görə yox ki, müstəqil Azərbaycanın Dövlət Himni dünyanın bir çox ölkələrində səslənir və Azərbaycanın Dövlət Bayrağı qalxır. Bir də ona görə ki, həqiqətən Himnin musiqisi çox cazibədardır, gözəldir.*

*Üzeyir Hacıbəyov 1937-ci ildə, repressiya illərində özünün şah əsərini – «Koroğlu» operasını yaratmışdır. «Koroğlu» operasının üvertürası himnə bərabər bir əsərdir.*

*Üzeyir Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti də milli mədəniyyət tariximizdə mühüm mərhələ olmuşdur. Həm bəstəkar, həm də dramaturq kimi 1909-1913-cü illərdə yaratdığı əsərləri ilə Azərbaycan teatrına musiqili komediya janrını gətirdi.*

*Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər göstərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli ictimai fəaliyyəti ilə məşhur olubdur.*

*Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və iftixarımızdır.*

*Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün vacib olan bir sahə və onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm*





*keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan bir sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtulmasında, elmimizin, təhsilimizin inkişaflarında böyük xidmətlər göstəribdir.*

*Bəzən mənə elə gəlirdi ki, yəqin bu, bir həqiqətdir - Mustafa bəy Topçubaşov anadan ziyalı doğulubdur, çünki o, əsl ziyalı adam idi. Onun ziyalılığı təkcə elmində yox, xasiyyətində, davranışında, insanlara münasibətində idi - hər bir sahədə onun ziyalılığı, alicənablığı özünü parlaq surətdə göstərirdi.*

*Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir. Çünki belə insanlar, şəxsiyyətlər Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, daxili mənəviyyatını dünyaya nümayiş etdirir.*

*Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir.*

*Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır.*

*Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır.*

*Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır.*

*Xalq şairi Qabil həm də bizim elə sənətkarlarımızdandır ki, onun xarakterindəki özünəməxsus incə yumor hissləri çox güclüdür.*

*Ziya Bünyadov xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilər-*





*dən və ən görkəmli insanlardan biri idi. Elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. O, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik olan, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. O, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır.*

*Ziya Bünyadovun xüsusi keyfiyyəti ondan ibarətdir ki, hərbçi zabit, qəhrəman, döyüşçü keyfiyyətləri ilə yanaşı, o, həm də İkinci Dünya müharibəsi bitəndən sonra özünü elmə həsr etmişdir.*

*Ziya Bünyadov bizim üçün çox vacib olan milli oyanış, milli dirçəliş hisslərinin inkişaf etməsinə bir tərəfdən öz əsərləri ilə, digər tərəfdən isə məhz ictimai-siyasi fəaliyyəti ilə xidmət etmişdir.*

*Ziya Bünyadovun Azərbaycan elmində öz dəstxətti, öz yolu, müstəqil fikri olmuşdur və özünə-*

*məxsus böyük xidmətləri var. O, alimlərin, akademiklərin, professorların içərisində öz elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqelərinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi. Bunu anlamaq, bilmək lazımdır. Bunu bütün xalqımız bilməlidir. Onun elmi yaradıcılığı, Azərbaycana, Azərbaycan elminin inkişafına göstərdiyi xidmətlər haqqında kitablar, əsərlər yazılmalıdır.*

*Ziya Bünyadov adi bir tarixçi, adi bir tarix tədqiqatçısı deyildi. O, mübariz bir tarixçi idi. Onun mübarizəsi də Azərbaycanın milli mənafelərinin müdafiəsi ilə bağlı olmuşdur.*

*Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikrini söyləyirdi.*

*Ziya Bünyadov xüsusi bir xarakterə malik adam idi. Onun özünəməxsus elə keyfiyyətləri var idi ki, bunun təkrarını mən cəmiyyətimizdə görməmişəm, bəlkə də olmayacaqdır.*

*Ziya Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarların haqsız*





*iddiaları əleyhinə etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi hörmətli adamların sözü ilə, Ziya Bünyadov kimi mötəbər adamların hərəkətləri ilə bizim minlərlə, on minlərlə insanlarımız, gənclərimiz bu hərəkatlara, bu cərəyanlara qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazını bildirir, milli azadlıq uğrunda, müstəqillik uğrunda mübarizəyə qoşulurdular.*

*İlk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərin biri də Ziya Bünyadovdur. Onun böyük xidmətlərindən biri də bolşevizm terroru nəticəsində 20-30-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri aşkara çıxarmaqdan, repressiya qurbanlarının adlarını açıb göstərməkdən, onlara bəraət qazandırmaqdan, onların adlarını tarixdə bərpa etməkdən və beləliklə, o dövrü doğru-düzgün işıqlandırmaqdan ibarət olmuşdur.*

*Ziya Bünyadovu çoxları sevirdi, mən də sevirdim, ona xüsusi hörmət edirdim. Bəzən o, kiməsə acı söz deyə bilərdi, lakin onu anlamaq*

*lazım idi ki, o acı sözün içində xeyirxah münasibət vardı, onun arxasında vətəndaşlıq vardı, onun arxasında Azərbaycan xalqına sevgi, məhəbbət vardı, onun arxasında böyük insan dururdu.*

*Ermənistanın Azərbaycana təcavüzü başlayandan bəri Ziya Bünyadov xalqı Ermənistana qarşı mübarizəyə və torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər etməkdə həmişə ön sıralarda getmiş adam olubdur, həmişə mübarizə aparıbdır, həmişə öz sözünü deyibdir, heç vaxt çəkinməyib, heç vaxt kənarda durmayıb, heç vaxt gizlənməyibdir.*

*Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi.*

*Ziya Bünyadov mübarizəmizin ön cərgəsində duran şəxsiyyətlərdən biri idi. Ziya Bünyadov bu mübarizənin qurbanı oldu.*

*Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük həyat yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur.*





*Müslüm Maqomayev nadir və bənzərsiz müğənnidir, Allah vergisidir, ancaq eyni zamanda özünün gərgin, yorulmaq bilməyən zəhməti ilə cilalanmış istedaddır. Onu fərqləndirən bir cəhət də istedadının çoxşaxəli olmasıdır. Onun gözəl səsi, əla ifa texnikası var. O, gözəl oxuyur, musiqi alətlərində gözəl çalır, çoxlu gözəl mahnılar bəstələyib. Gözəl şəkil çəkməsinə, heykəltəraşlıq istedadına gəldikdə, bu da məlumdur. Görün, bir insanda nə qədər çoxşaxəli, böyük istedad cəmləşibdir. Sevinirik ki, bizim Azərbaycanın belə övladı, Azərbaycan musiqisinin, Azərbaycan incəsənətinin belə layiqli nümayəndəsi var və indiyədək olduğu və getdiyi bütün dünya ölkələrində özünü və bizim mədəniyyətimizi, musiqimizi və xalqımızı şöhrətləndirir.*

*Müslüm Maqomayev... öz sənəti, istedadı, gözəl səsi ilə Azərbaycan musiqisinin, mədəniyyətinin inkişaf etdirilməsində görkəmli xidmətlər göstərib, Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymağa çalışıbdır və bu sahədə də çox gözəl nailiyyətlər əldə edibdir.*

*Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.*

*Mənəviyyatca pak, təmiz insanlar həmişə yüksək zirvələrə qalxıblar. Ömər Eldarov belə insanlardan biridir.*

*Əgər Bəxtiyar Vahabzadə dissident olmasaydı, Azərbaycan xalqının, gənclərin şüuruna təsir edə bilməzdi.*

*Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir.*

*Bülbül sənəti Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. O, Azərbaycanın professional vokal sənətinin banisidir. Onun çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxşı ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir.*

*Bülbülün böyük fitri istedadı, pedaqoq, musiqişünas alim və ictimai xadimə xas yüksək*





*keyfiyyətləri ona Azərbaycan xalqının əbədi məhəbbətini qazandırmışdır.*

*Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır.*

*Süleyman Rüstəm kimi insanlar nadir insanlardır. Belə insanlar Tanrının onlara verdiyi fitri istedadı fədakarlıqla, xalqına, millətinə sədaqətlə birləşdirib belə zirvələrə qalxa biliblər.*

*Süleyman Rüstəmin şeirləri, bədii yaradıcılığı çox rəngarəngdir və bir çox nəsillərin təhsilinə, mənəviyyatına, formalaşmasına böyük təsir etmişdir.*

*Süleyman Rüstəmin əsərlərinin ana xətti vətənpərvərlik, Vətənə, millətimizə, xalqımıza sədaqətdir.*

*Süleyman Rüstəmin şeirləri, əsərləri, bütün yaradıcılığı xalqımızda birinci növbədə Vətəni*

*sevmək, Vətənə sadiq olmaq, vətənpərvər olmaq, millətimizlə, xalqımızla fəxr etmək hissləri, duyğuları yaradıb, inkişaf etdirib. Adamları insan, vətəndaş edən, insanları yüksək mənəviyyata qaldıran amillərdən biri də bizim mədəniyyətimizdir, ədəbiyyatımızdır, şeirimizdir. Süleyman Rüstəmin şeirləri, əsərləri bizim ədəbiyyatımızı, mədəniyyətimizi zənginləşdirərək XX əsrdə keçdiyi böyük, mürəkkəb, çətin yolda xalqımıza dayaq olmuş, xalqımızı irəliyə aparmış, yüksəltmişdir.*

*Mirvarid xanım Dilbazi Azərbaycan qadınının, anasının ən parlaq, ən gözəl nümunəsidir.*

*Böyük vətənpərvər şair-filosofumuz Məhəmmədhüseyn Şəhriyar klassik irs və müasir ədəbi həyatla bağlı bir sənətkar olmuşdur. O, böyük sənətkar, klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətini qoruyaraq, dövrünün novator sənətkarı kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmasına nail olmuşdur.*

*Mən çox xoşbəxtəm ki, iyirmi beş il öncə hörmətli Süleyman Dəmirəllə ilk dəfə tanış olmuşam. Bizim aramızda dostluq və qardaşlıq*





*əlaqələri yaranmışdır. Ötən müddətdə bu əlaqələr qırılmamış, pozulmamışdır. Nəhayət, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bu dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsi üçün çox böyük imkanlar yaranmışdır.*

*Süleyman Dəmirəl türk dünyasının böyük şəxsiyyətidir, bütün dünya siyasətçiləri içərisində tanınmış və çox hörmət qazanmış şəxsiyyətdir.*

*Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı qarşısında böyük xidmətlər göstərmiş, böyük nüfuz qazanmışdır. O, eyni zamanda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının hörmət və ehtiramını qazanmışdır. Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün onun böyük xidmətləri olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur.*

*Rostropoviç nəinki böyük musiqiçi, bəstəkar, dirijordur, həm də öz vətəndaşlıq hərəkətləri ilə, azadlıq, ədalət, həqiqət, demokratiya uğrunda mübarizəsi ilə şöhrətlənmiş bir insandır.*

*İndi dünya dəyişmişdir, dünya azadlıqsevər adamların görmək istədikləri kimi, Mstislav Rostropoviçin görmək istədiyi kimi olmuşdur.*

*Azadlıq uğrunda 25 ildən çox vuruşan Şeyx Şamil bir daha sübut etdi ki, xalqın istiqlal amalını, iradəsini və əzmini sındırmaq, məhv etmək mümkün deyil. Azadlığı, sülhü, əmin-amanlığı qorumaq yolunda hər bir qafqazlıya Şeyx Şamil müdrikliyi, qətiyyəti və fədakarlığı arzulayıram.*

*Şeyx Şamil Qafqaz xalqlarının qəlbində daim yaşayıbdır. Onun obrazı həmişə bir qəhrəmanlıq simvolu kimi və müstəqillik, milli azadlıq mübarizəsinin simvolu kimi insanların qəlbində yaşayıbdır.*

*Şeyx Şamil mübarizəsinin ən dəyərli tərəflərindən biri odur ki, o, mübarizəsi ilə Qafqaz xalqlarını birləşdiribdir, həmrəy edibdir.*

*Azərbaycan xalqı qarşısında Niyazinin əvəzsiz xidmətləri vardır. O, Azərbaycan professional musiqisinin yaranmasında və inkişafında böyük səylər göstərmiş və bu xidmətləri xalqımız heç vaxt unutmayacaqdır.*





*Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir. Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil, demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur.*

# MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR HAQQINDA

*Hər peşəyə gələn insan gərək birinci peşəni sevsin, özünü peşəyə həsr etsin və o peşənin öz daxili mənəviyyatına uyğun olduğunu dərk edərək işləsin.*

*İnsan peşəni elə-belə seçmir, əksər hallarda öz daxili bacarığını, arzu və istəyini nəzərə alaraq seçir.*

*Azərbaycanda bütün sahələrdə çox istedadlı insanlar vardır.*

*Hər bir sahənin mütəxəssisi olmalıdır. Hər bir sahənin mütəxəssisi professional təcrübəsi olan adam olmalıdır.*

*Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi – bunların hamısı ilk növbədə müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir.*

*Müəllim adı yüksək addır. Azərbaycanda müəllimə daim böyük hörmət olmuşdur. Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur.*

*Müəllimə hörmət, ehtiram həmişə olub, bu gün də olmalıdır, gələcəkdə də olmalıdır.*

*Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən, tutduğumuz vəzifədən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə birinci növbədə məktəbə, müəllimə borcluyuq.*

*Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır.*

*Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir.*





*Müəllim çalışmalıdır ki, özünün müqəddəs vəzifəsini ömrünün axırınadək layiqincə yerinə yetirsin.*

*Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu daim qiymətləndirməlidir.*

*Cəmiyyətimizdə Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar.*

*Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır.*

*Müəllim adı dünyada ən yüksək addır.*

*Şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir.*

*...Xalqımızı, millətimizi, gənclərimizi vətənpərvərlik hissi ilə tərbiyə etmək təhsilin əsas istiqaməti, hissəsi, məktəblərimizin, müəllimlə-*

*rimizin borcudur. Siz uşaqlara hərtərəfli təhsil verməlisiniz. Uşaqlar gərək orta məktəblərdə bütün fənləri mənimsəsinlər. Bunların hamısı ilə bərabər, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Mən arzu edərdim ki, müəllimlər bunu heç vaxt unutmasınlar.*

*Həyatımda ən çox sevdiyim adamlar mənim müəllimlərim olubdur.*

*Azərbaycan müəllimlərinin cəmiyyətimizin həyatında oynadığı rol müstəsna əhəmiyyətə malikdir.*

*Müəllimlik xalqımızın ən çox hörmət etdiyi, ən çox əziz tutduğu bir peşədir.*

*Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü Vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək.*





*Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.*

*Əsl müəllim pul, sərvət üçün yox, həmişə mənəviyyat üçün xidmət edibdir.*

*Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və öz mənəviyyatını hər şeydən yüksək tutubdur.*

*Bizim dilimizi, mədəniyyətimizi, milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olublar.*

*Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan gəlib bizə çatmış gözəl bir xüsusiyyətdir.*

*Tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən.*

*Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə*

*qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, deməmk bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, Vətəninə, torpağına məhəbbət hissi yaradır.*

*Şairin daim ordunun içərisində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, müstəqilliyin nə demək olduğunu anlatması çox vacibdir.*

*Sərhədçi böyük, romantik peşədir.*

*Hər bir gənc, hər bir insan özünü sərhədçi peşəsinə həsr edirsə, axıra qədər həsr etməlidir. Belə olan halda o, cəmiyyətdə özünə layiq yer tutur, belə olan halda hər bir sərhədçi cəmiyyətdə çox hörmətli bir insan olur.*

*Sərhədçi bilməlidir ki, bu, gözəl peşədir.*

*Həkim adı, şəfqət bacısı adı şərəfli addır. Bu adı, onun mənəvi məzmununu qoruyub saxlamaq lazımdır.*

*Müstəqil Azərbaycanın hər bir şeyi vardır: onun müstəqil dövləti var, onun güclü iqtisadi*





*potensialı var, onun böyük elmi var, onun parlaq mədəniyyəti var, onun gözəl səhiyyəsi var, onun böyük alimləri, həkimləri var, onun gözəl həkim olmaq istəyən gəncləri vardır.*

*Səhiyyə cəmiyyətimizin müqəddəs sahələrindən biridir. Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır.*

*Tibb, səhiyyə hər bir insan üçün çox vacib olan sahədir. Özünü tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar həqiqətən çox yüksək hörmət və ehtirama layiq olan insanlardır.*

*Azərbaycanda həkimlər, tibb alimləri həmişə ziyalılarımızın görkəmli hissəsini təşkil edirlər.*

*Həkim üçün hər bir keyfiyyət lazımdır. Amma ən əsas keyfiyyət yüksək mənəviyyatdır.*

*Azərbaycanın iqtisadi, elmi, mədəni, intellektual potensialı ilə yanaşı, daxili işlər orqanları sistemi sahəsində də böyük potensialı vardır.*

*Azərbaycanın müstəqilliyini təmin etmək üçün, Azərbaycanda müstəqil dövlət prinsiplərini həyata keçirmək üçün, müstəqil dövlətin bütün imkanlarından respublika vətəndaşlarının istənilən səviyyədə bəhrələnməsi üçün daxili işlər orqanlarının, polis orqanlarının fəaliyyətindən çox şey asılıdır.*

*Müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onlardan biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi orqanları, polis orqanlarıdır.*

*Polis orqanı gərək xalq tərəfindən hörmət edilən bir orqan olsun.*

*Dövlətin işində dövlət orqanlarının hər birinin öz yeri vardır, ancaq Daxili İşlər Nazirliyinin, polis orqanlarının xüsusi yeri var və onlardan çox şey asılıdır.*

*Polis işçisi gərək xalq tərəfindən, kütlə tərəfindən, ictimaiyyət tərəfindən sevilsin.*

*Daxili İşlər Nazirliyi, polis heç bir siyasətə qarışa bilməz. O, dövlət orqanıdır, dövləti müdafiə etməli, onun göstərişlərini, siyasətini həyata keçirməlidir.*





*Daxili İşlər Nazirliyinin, prokurorluğun, məhkəmə orqanlarının başqa vəzifələrlə yanaşı, daha bir əsas vəzifəsi cəmiyyətimiz üçün çox ağır olan cinayətin – rüşvətxorluğun qarşısını almaqdır.*

*Polis xüsusi bir peşədir. Adamlar polis peşəsinə anadangəlmə malik olmurlar. Yəni heç kim anadan polis doğulmur. Bunun üçün xüsusi təhsil almaq, pillə-pillə keçib təcrübə toplamaq lazımdır. İş prosesində cürbəcür vəziyyətlərə düşüb, bu vəziyyətlərdən çıxış yollarını axtarmaq, vərdiş qazanmaq lazımdır.*

*Polis orqanlarının fəaliyyəti bir tərəfdən polis işçilərinin, Daxili İşlər Nazirliyi işçilərinin biliyindən, bacarığından, peşə səviyyəsindən asılıdırsa, digər tərəfdən bu orqanlarda möhkəm, dəmir nizam-intizamdan asılıdır.*

*Polis orqanları işçilərinin hər biri yüksək mənəviyyat nümunəsi olmalıdır.*

*DİN-də işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

*Döyüşlərdə, torpağın müdafiəsində DİN-in əməkdaşları – zabitlər, polis işçiləri də cəsarətlə vuruşmuş, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Onların bir çoxu şəhid olmuş, həyatını xalqımızın, Vətənimizin səadəti uğrunda qurban vermişdir.*

*Daxili İşlər Nazirliyində çalışan əməkdaşların tam əksəriyyəti xalqına, torpağına, Vətəninə, müstəqil Azərbaycan dövlətinə sadiq adamlar, peşəkar, təcrübəli işçilərdir.*

*Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı Vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.*

*Hər bir hüquq-mühafizə orqanında çalışan əməkdaş öz işinin dövlət, xalq üçün nə qədər vacib olduğunu dərk etməlidir və işini yalnız və yalnız xalqın, ölkənin mənafeyi üçün aparmalıdır.*





*Hüquq-mühafizə orqanları müstəqil Azərbaycan dövlətinin əsas sütunlarındandır.*

*Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olunmalıdır.*

*Azərbaycan neftçiləri öz əməyi, bacarığı, sənətinə sadiqliyi ilə bütün dünyada şöhrət tapıblar.*

*Neft sənayesi Azərbaycan xalqının fəxridir. Neftçilər həmişə xalqımızın ən mötəbər nümayəndələri olublar.*

*Neftçi sözü Azərbaycanda şöhrətli sözdür, neftçiyə Azərbaycanda həmişə baş əyilibdir, neftçi sayılmış, tanınmış adamdır.*

*Azərbaycan neftçiləri, alimləri dənizin dərinliyindən neft hasil etmək sahəsində dünya təcrübəsinə öz böyük töhfələrini vermişlər.*

*Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir.*

*Mən Azərbaycan neftçilərinin fəaliyyətini həmişə yüksək qiymətləndirmişəm və qiymətləndirirəm. Neftçilər Azərbaycan tarixində əvəzsiz xidmətlər göstərmişlər, əsrin əvvəllərindən indiyədək Azərbaycanın şanını-şöhrətini qaldırmışlar. Respublikanın bütün iqtisadiyyatının inkişafı neft sanayesi ilə bağlıdır. Deməк, Azərbaycan neftçilərinin əməyi ilə bağlıdır.*

*Əgər vergi müfəttişi ciddi işləsə, sağlam təşkilat olsa, çox iş görə bilər.*

*Rəhbər işçi öz xalqının mənafelərini qorumağı bacarmalı, ədalətli olmalı, öz xalqının mənafelərini müdafiə etmək naminə heç nədən qorxub çəkinməməlidir.*

*Respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Çalışsın ki, münasibətlər yaxşı olsun, mehriban olsun.*

*Azərbaycanda həqiqi gömrük xidmətinin, gömrük işinin, gömrük təşkilatının yaranması Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsi ilə əlaqədardır.*





*Azərbaycanın həm iqtisadi, həm siyasi cəhətdən dövlət müstəqilliyini təmin etmək, qorumaq, inkişaf etdirmək üçün gömrük xidməti çox əhəmiyyətli, çox lazımlı təşkilatdır.*

*Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Gömrük orqanlarının, gömrük xidmətinin dövlətin iqtisadiyyatında, ümumiyyətlə, dövlətçilikdə çox böyük rolu vardır.*

*Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun.*

*Dövri-qədimdən bütün dövlətlərin tarixində diplomat peşəsi ən hörmətli, ən şərəfli peşədir. «Diplomat» deyəndə, adamın gözünün qabağına nə gəlir? Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparmağı ilə fərqlənən insanlar.*

*Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun. Peşəkarlıq səviyyəsinin artırılmasının da sərhədi, hüdudu yoxdur.*

*Ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti, musiqini, tarixi bilməyən adam peşəkar təhlükəsizlik işçisi ola bilməz.*

*Təhlükəsizlik işçisi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, gərək şairlə də, bəstəkarla da, yazıçıyla da, alimlə də, adi vətəndaşla da danışa bilsin. Yəni belə səviyyədə olmalıdır. Əgər belə olmasa, o, ağı qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz.*

*Milli təhlükəsizlik orqanı hər bir dövlətin çox əhəmiyyətli, güclü və çox vacib təşkilatıdır.*





# AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ HAQQINDA

*Azərbaycanda neft çıxarılmasına və emal olunmasına başlanan kimi Bakı dünyanın inkişaf etmiş ölkələrinin saysız-hesabsız neft şirkətlərinin diqqətini cəlb etmişdir.*

*Bakı özünün digər layiqli keyfiyyətləri ilə yanaşı, sözün ən yüksək anlamında, həmişə ən müstəqil şəhər olmuşdur.*

*Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar, bugünkü gün və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar.*

*Biz Bakı şəhəri – ölkəmizin paytaxtı ilə fəxr edirik.*

*Bakıdakı böyük memarlıq abidələri bizim milli iftixarımızdır.*

*Naxçıvan Azərbaycanın qədim torpağıdır və qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsidir.*

*Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır.*

*Müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir.*

*Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, bizim qədim abidələrimiz olan, qədim dövlətçiliyimizin şəhəridir.*

*Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.*





*Şuşa qalası daim məğrur bir qala olub. Onun sarayları da, hər bir daşı da, qala kimi hasarları, divarları da məğrur olubdur. Şuşa qalasını əsrlər boyu yaradan ulu babalarımız da, onu qoruyanlar da məğrur, əyilməz, qəhrəman olublar. Təəssüf ki, zaman elə gətirdi ki, Şuşa qalası nadanların əlinə düşdü.*

*Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan guşəsidir. Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.*

*Şuşanı dünyanın çox yerində tanıyırlar, sevirlər və Şuşaya böyük hörmət və ehtiram edirlər.*

*Şuşa Azərbaycanın demək olar ki, böyük bir tarixi abidəsi, eyni zamanda – əgər bunu şeir dili ilə desək – incisidir.*

*Şuşa, həqiqətən bir şəhər kimi, eyni zamanda vahid bir muzey – Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir.*

*Şuşa rayonu Azərbaycanın tarixi və mədəni mərkəzidir, orada Azərbaycan xalqının nadir memarlıq və incəsənət abidələri var.*

*Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir.*

*Zəngilanın Azərbaycan dövləti üçün, Azərbaycan Respublikası üçün çox mühüm strateji əhəmiyyəti var.*

*Zəngilanın Azərbaycan üçün strateji əhəmiyyəti bir də ondan ibarətdir ki, Zəngilan tək Ermənistanla Azərbaycanı ayıran sərhəddə yerləşdiyinə görə yox, eyni zamanda Zəngilanla həmsərhəd olan, yəni Azərbaycanla həmsərhəd olan Qafan, Mehri rayonlarında yaşayan azərbaycanlılar üçün həmişə dayaq olubdur. Azərbaycanla orada yaşayan azərbaycanlıları bağlayan bir məntəqə olubdur.*





*Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdığı irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.*

*Kəlbəcər rayonu Azərbaycanın gözəl guşələrindən biridir. Onun çox zəngin təbiəti, tarixi abidələri vardır. Kəlbəcər Azərbaycanın qədim dövrlərdən ibarət öz tarixini qəlbində, sinəsində, qoynunda saxlayan ərazilərindən biridir.*

*Kəlbəcər həm təbii sərvətlərinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur.*

*Kəlbəcərdə yaşayan insanlar da o gözəl təbiətin, məğrur qayaların, dağların təsiri altında daim cəsur olublar, qəhrəman və rəşadətli olublar. Eyni zamanda zəkalı olublar, elmə, biliyə, mədəniyyətə həmişə çox böyük maraq göstəriblər. Ona görə də Azərbaycanın ucqar və dağlıq rayonu olan Kəlbəcərdə eyni zamanda həmişə yüksək mədəniyyət və yüksək mənəviyyat olmuşdur.*

*Böyük əraziyə malik olan Kəlbəcər Azərbaycanın gözəl və qiymətli guşələrindən biridir. Respublikamızın ucqar rayonu olmaqla bərabər, Kəlbəcər ölkəmiz üçün həm də strateji əhəmiyyəti olan bir rayondur. Allah Kəlbəcərə hər cür nemətlər, gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otlaqları, çəmənləri, obaları, bulaqları olan, Vətənimizin təbiət gözəlliyini və zənginliyini özündə əks etdirən bir parçasıdır. Kəlbəcərin həm yeraltı sərvətləri, həm də yerüstü sərvətləri Azərbaycanın milli sərvətlərinin bir hissəsidir.*

*Sumqayıt şəhəri bütün Azərbaycanı təmsil edir. Azərbaycanın elə bir guşəsini tapmaq olmaz ki, oradan gəlmiş bacılarımız, qardaşlarımız—vətəndaşlarımız bu şəhərdə yaşamasın. Bu, Sumqayıtın xüsusiyyəti, əhəmiyyətidir. Ona görə də Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir.*

*Sumqayıt Azərbaycanın həm gözəl, həm də böyük iqtisadi, sənaye potensialına malik olan bir şəhəridir, həm də gözəl insanlar şəhəridir.*

*Lahıc Azərbaycanın bir abidəsidir.*





# SİYASİ PARTİYALAR VƏ MÜXALİFƏT HAQQINDA

*Bizim yolumuz siyasi plüralizm yoludur, biz bu yoldan dönməməliyik.*

*Siyasi partiyalar geniş təbəqələrin mənafelərini əks etdirməli, onların fəaliyyətinin strategiya və taktikasının mahiyyətini, heç olmasa, yaxın perspektivi təmin etməlidir.*

*Biz Azərbaycanda çoxpartiyalı sistem, çoxpartiyalı cəmiyyət üçün şərait yaratmalıyıq.*

*Heç bir mədəni, sivilizasiyalı siyasi partiya, cəmiyyət qiyamçıya, cinayətkara bəraət verməməli, ona havadarlıq etməməlidir.*

*Siyasi partiyalar sərbəstdir, hərə öz fəaliyyətini açıq-aydın aparır və milli təhlükəsizlik orqanları bunların fəaliyyətinə toxunmamalıdır.*

*Özlərini guya müxalifət hesab edərək cinayətlə məşğul olanlar müxalifət deyil. Müxalifət siyasi müxalifət olmalıdır.*

*Əgər bütün müxalifət qüvvələrinin məqsədi Azərbaycanın müstəqilliyidirsə, böyük təzyiqlərlə rastlaşmağımıza baxmayaraq, biz bunu təmin edirik. Dəfələrlə demişəm ki, müstəqillik bizim üçün əbədidir. Əgər müxalifətdə duran qüvvələr özlərini doğrudan da demokratik qüvvələr və demokratiyanın daşıyıcıları hesab edirlərsə, biz demokratiyanı sözdə yox, əməli surətdə həyata keçiririk.*

*Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır. Amma müxalifətin hakimiyyətə qarşı, iqtidara qarşı prinsipləri nədən ibarət olmalıdır - bunu anlatmaq lazımdır. Əgər bu prinsiplərdə doğrudan da müxtəliflik varsa, gedib dursun müxalifətdə, çünki bu prinsiplərlə razı deyil. Ancaq bunlar, sadəcə olaraq, nəyin bahasına olur-olsun, hakimiyyətə gəlməkdən, vəzifə tutmaqdan ötrüdürsə, bu, şübhəsiz ki, sağlam müxalifət hesab edilə bilməz.*





*Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, Konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq çərçivəsində aparılmalıdır.*

*Demokratiya olan yerdə müxalifət olmalıdır. Müxalifət iqtidara qarşı öz fikrini bildirməlidir. Amma bu, doğru, düzgün, ədalətli olmalıdır, böhtan yox! Böhtan yox, yalan yox, uydurma yox, saxtalaşdırma yox!*

*Ümummilli dəyərlər, ümummilli mənafe uğrunda bütün xalq-müxalifət də, iqtidar da birləşməlidir.*

*Hər bir danışığa, hər bir dialoqa Azərbaycan Prezidenti və Azərbaycan iqtidarı hazırdır. Güman edirəm ki, müxalifət düşərgəsində olan qüvvələr də Azərbaycanın milli mənafeyini hər şeydən üstün tutmalıdır. Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və inkişaf etməsini hər şeydən üstün tutmalıdır və bu prinsiplərə əsasən, buna söykənərək biz bundan sonra əməkdaşlıq edə bilərik.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA

*Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir.*

*Azərbaycanda demokratiya, azadlıq, söz azadlığı, mətbuat azadlığı, informasiya azadlığı olduqca inkişaf etmişdir.*

*Azərbaycanda siyasi plüralizm, mətbuat azadlığı tamamilə təmin olunubdur.*

*Biz mətbuat azadlığı, şəxsiyyət azadlığı və siyasi plüralizm üçün şərait yaratmışıq.*

*1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış «Azərbaycan» qəzeti yarandığı gündən milli azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir.*

*Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. «Əkinçi»dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik.*

*Azərbaycan mətbuatı çox zəngin və şərəfli inkişaf yolu keçmiş, xalqımızın həyatının bütün sahələrini, istək və arzularını daim öz səhifələrində əks etdirmiş, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişdir.*

*Ölkəmizin mütərəqqi mətbuat ənənələrini layaqətlə davam etdirən «Azərbaycan» qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır.*





*Azərbaycanın milli televiziyası xalqımızın milli sərvətidir.*

*İnsanların mənəvi tərbiyəsində, mənəvi inkişafında televiziyanın rolu çox böyükdür.*

*İndi radio, televiziya elə bir vasitədir ki, onsuz, demək olar, yaşamaq mümkün deyildir.*

*Radio və televiziya insanları təsirləndirir, onların təkmilləşməsinə, mənəviyyatca inkişafına kömək edir.*

*Bizim zəmanəmizdə televiziya və radio digər kütləvi informasiya vasitələri ilə müqayisədə misilsiz, müstəsna əhəmiyyətə malikdir.*

*Hər hansı ölkənin və bütün dünyanın müasir ictimai-siyasi həyatında informasiya, xüsusən televiziya informasiyası çox mühüm rol oynayır.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DÜNYA AZƏRBAYCANLILARI HAQQINDA

*Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir.*

*Qoy azərbaycanlılar hər yerdə yaşasınlar. Hər yerdə azərbaycanlılar olanda, Azərbaycan Respublikasının dayağı da daha çox olur.*

*Qürbətdə yaşayanlar qəriblikdə Vətənini, torpağını, xalqını, millətini, dinini, dilini, adət və ənənələrini unutmursa, insanın harada yaşaması elə böyük əhəmiyyət kəsb etmir.*

*Bizim azərbaycanlıların bir çox dünya ölkələrinə səpələnməsi mənfi hal deyildir. Mən hesab etmirəm ki, millətin hamısı yığışıb bir ölkədə, bir məkanda yaşamalıdır.*

*Bütün azərbaycanlıların Vətəni Azərbaycandır: xoşbəxtlikdən bizim millətimizin adı da azərbaycanlı, ölkəmizin adı Azərbaycandır.*

*Azərbaycanlılar harda yaşasalar da, öz ana Vətəninə, doğma Vətəninə qayğı göstərməlidirlər, imkanları dairəsində kömək etməlidirlər, onu unutmamalıdırlar, öz ana Vətəninin, doğma Vətəninin qayğıları ilə yaşamalıdırlar.*

*Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba yurdudur.*

*Azərbaycandan kənarda yaşayan azərbaycanlılara yeganə tövsiyəm var – Azərbaycanı heç vaxt unutmasınlar.*

*Bütün dünyada yaşayan azərbaycanlılar təşkilatlanmalıdır.*





*Harada olursan-ol, hansı ölkədə yaşayırsan-yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən.*

*Dünyanın hər bir ölkəsində, hər bir şəhərində, guşəsində, kəndində yaşayan soydaşlarımız müstəqil dövlətimiz üçün, Azərbaycan Prezidenti kimi mənim üçün əziz vətəndaşımız, soydaşımız, həmvətənimizdir.*

*Harda yaşamasından asılı olmayaraq, hər bir soydaşımız özünü azərbaycanlı hesab edərək, Vətənini, torpağını, millətini, dilini unutmamalıdır.*

*Bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.*

*Azərbaycanlılar günü-gündən bir-birinə qovuşmalıdırlar, yaxınlaşmalıdırlar, əlaqələrini artırmalıdırlar.*

*Azərbaycanlılar Qazaxıstanda da, Özbəkistanda da, Amerikada da, İngiltərədə də yaşasınlar. Harada kimin üçün xoşdursa, orada özünə yer tapıbsa, yaşasın. Ancaq azərbaycanlılığını, dilini, dinini, adət-ənənələrini, öz əcdadlarını, ulu babalarını, köklərini unutmasın.*

*Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi Vətəni vardır.*

*Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da Vətəni Azərbaycandır.*

*Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin, soydaşlarımızın vəzifəsi Azərbaycana kömək etməkdən ibarətdir.*

*Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma Vətəndir.*





*Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur.*

*Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz Ana Vətəni haqqında düşünsün.*

*Azərbaycanlılar artıq bilirlər və daha da çox bilməlidirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz – Azərbaycan Respublikası var, azərbaycanlılar üçün Ana Vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır.*

*Harada yaşamasından asılı olmayaraq, öz ənənələrinə sadiq qalan, milli-mənəvi köklərinə bağlı olan vətənpərvər soydaşlarımız tarixi Vətənə – Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirir.*

*Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim*

*doğma Azərbaycanla, müstəqil Azərbaycanla vurmalıdır.*

*Dünyada olan azərbaycanlılar da hansı ölkələrdə yaşamalarından asılı olmayaraq, gərək müstəqil respublikamız haqqında düşünsünlər.*

*Biz indi müstəqil dövlət olan Azərbaycanda dünyanın hər yerində yaşayan azərbaycanlıları özümüzə doğma hesab edirik və onlara diqqət, qayğı göstərməyi özümüzə borc sayırıq.*

*Azərbaycanın müstəqil dövlət olmasının əsas nəticələrindən biri də odur ki, biz bütün dünyada yaşayan azərbaycanlılara bilavasitə, birbaşa öz münasibətimizi göstərə bilirik və onları soydaşlarımız kimi hər yerdə həm qiymətləndirə, həm də onlarla əlaqə yarada bilirik.*

*Müstəqilliyimizin bizə verdiyi ən böyük nemətlərdən, ən böyük müsbət nəticələrdən biri odur ki, indi dünyanın hər yerində yaşayan azərbaycanlılara soydaşlarımız kimi həm qayğı göstərmək, həm onlarla əlaqə yaratmaq, həm də onların hüquqlarının qorunması haqqında düşünmək və onlarla tez-tez görüşmək imkanımız var.*





*Azərbaycanın dövlət başçısı, Prezidenti kimi mən dünyanın hər yerində yaşayan azərbaycanlını özümə doğma insan hesab edirəm. Hesab edirəm ki, dünyanın hər yerində azərbaycanlıya imkan dairəsində qayğı, diqqət göstərməliyəm, kömək etməliyəm.*

*Azərbaycanlılar harada yaşayırlar-yaşasınlar, heç vaxt öz azərbaycanlılıq hisslərini, öz torpağını unutmasınlar. İndi biz Azərbaycanda müstəqil dövlət qururuq. Dövləti qururuq, yaradırıq və əmin ola bilərsiniz ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir.*

HEYDƏR ƏLİYEV: MÜDRİK FİKİRLƏR

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR HAQQINDA

*BMT-nin üzvü kimi müstəqil Azərbaycan Respublikasının amalı və məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu əbədi etməkdən ibarətdir.*

*Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.*

*Azərbaycan sülhpərvər ölkədir. Respublikamızın xarici siyasətinin əsasını sülh yaratmaq niyyətləri təşkil edir.*

*Azərbaycan sülhsevər ölkə, xalqımız sülhsevər xalqdır, biz müharibə, münaqişə istəmirik.*

*Biz hesab etmişik və hesab edirik ki, hər bir dövlətin sərhədlərinin pozulmazlığı haqqında, sərhədlərin güc işlədilməsi yolu ilə dəyişdirilməsinin qeyri-mümkünlüyü haqqında beynəlxalq hüquq normaları, Birləşmiş Millətlər Təşkilatının prinsipləri hamının rəhbər tutmalı olduğu labüd prinsiplərdir.*

*Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr, hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi – bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır.*

*Bizim sülhsevər siyasətimiz bu günə, həm də gələcəyə yönəldilibdir.*

*Hər bir ölkənin sərhədinin toxunulmazlığı həm ölkə üçün, həm də beynəlxalq hüquq normaları üçün əsas prinsiplərdən biridir.*

*Hər bir dövlətin ərazi bütövlüyünə hörmət və onu müdafiə etmək lazımdır.*





*Hər bir müstəqil dövlət əgər müstəqil siyasət aparırsa və müstəqil xarici siyasət yeritmək istəyirsə, şübhəsiz, dünyanın bütün dövlətləri ilə qarşılıqlı əlaqələr yaratmalıdır. Eyni zamanda cürbəcür bloklara, müxtəlif qruplara da girməlidir. Müxtəlif blok və qruplarda iştirak etmək heç də o dövlətin müstəqilliyinə zərər gətirən amil deyildir.*

*Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq.*

*Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir. Xarici siyasətimiz dünya miqyasında rəğbətlə qarşılanıb və biz bu siyasətimizi davam etdirəcəyik.*

*Biz sülhsevər ölkəyik, Azərbaycan xalqı sülhsevər xalqdır. Biz bütün xalqlarla, xüsusən də həmsərhəd, qonşu olduğumuz, tarixən ənənəvi əlaqələr saxladığımız ölkələrlə, xalqlarla dostluq qonşuluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq istəyirik. Bununla yanaşı, hamı bilməlidir ki, biz heç kimə bir qarış da olsun, torpağımızı güzəştə gedə bilmərik. Əgər*

*dünya həqiqətən beynəlxalq hüquq normalarını tanıyırsa, əgər dünyada insan hüquqları real şəkildə qorunursa, onda heç kəs Azərbaycanın bu gün düşdüyü vəziyyətlə razılaşmamalıdır.*

*Azərbaycanın dövlət müstəqilliyini təmin edən amillərdən biri bundan ibarətdir ki, respublikamız dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurub, qurur və bu əlaqələri daim inkişaf etdirməyə çalışır.*

*Biz sülh mövqeyində dururuq. Ona görə yox ki, bu təcavüzlər, bu hücumlar bizi qorxudur, yox. Ona görə ki, biz qan tökülməsinin tərəfdarı deyilik.*

*Azərbaycanın xarici siyasəti bütün dövlətlərlə hüquq bərabərliyinə əsaslanan və qarşılıqlı surətdə faydalı olan əlaqələr yaratmaqdan ibarətdir.*

*Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, bu, beynəlxalq hüququn sarsılmaz prinsipidir, bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir.*





*Azərbaycanın xarici siyasəti azad və müstəqildir.*

*Azərbaycan bütün ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir.*

*Böyük siyasət aparmaq üçün bilik, təcrübə lazımdır. Gərək dünya siyasətini dərk etməyi, təhlil etməyi, ondan nəticə çıxarmağı bacarasan.*

*Bizim arzumuz dünyada, dünyanın hər bir guşəsində sülhün, əmin-amanlığın bərqərar olunmasından ibarətdir.*

*Siyasətimiz bundan ibarətdir ki, biz dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığa, qarşılıqlı surətdə faydalı münasibətlərə malik olmalı, bütün dünyada sülh və sabitliyi möhkəmlətməyə çalışmalıyıq.*

*Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr saxlamaq, sülhü, əmin-amanlığı qorumaq, qonşularla mehribanlıq, əmin-amanlıq, sülh şəraitində yaşamaq, bütün başqa ölkələrlə də mehriban əlaqələr yaratmaq və bütün sahələrdə geniş əməkdaşlıq etmək siyasətidir.*

*Biz beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.*

*Öz daxili vəziyyətini idarə edən, sabit saxlaya bilən bir dövlət başqa dövlətlərlə qarşılıqlı surətdə faydalı əlaqələr yarada və bundan faydalana bilər.*

*Müstəqil dövlət kimi Azərbaycan Respublikası bütün ölkələrlə öz münasibətlərini qarşılıqlı fayda əsasında qurmağa çalışır.*

*Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsdiq edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir.*

*Dünyada heç kəs heç kimə öz prinsiplərini, öz iradəsini zorla qəbul etdirməməlidir, heç bir dövlət digər ölkələrin hüquq və mənafelərini pozmamalıdır.*

*Transqafqaz dəhlizi ilə biz Mərkəzi Asiya, Qafqaz, Şərqi və Qərbi Avropa ölkələrində böyük gələcəyin bünövrəsini qoymuşuq.*





*Dövlətlər arasındakı münasibətlər subyektiv hisslər əsasında qurulmamalıdır və bir liderin digərinə şəxsi münasibətindən tam asılı ola bilməz.*

*Biz ölkədə və bütün dünyada, bölgəmizdə hər bir ölkənin ərazi bütövlüyünün təmin olunmasının tərəfdarıyıq. Bu, beynəlxalq hüquq normalarının tələbidir. Biz tələb edirik ki, bütün dövlətlər, ölkələr bu beynəlxalq hüquq normalarına riayət etsinlər.*

*Biz ölkəmizi əhatə edən qonşu ölkələrlə də sülh, əmin-amanlıq və mehriban qonşuluq şəraitində yaşamaq istəyirik.*

*Avropa Şurasının qəbul və təbliğ etdiyi bəşəri dəyərlərin Azərbaycanda yaranması və inkişaf etməsi bizim əsas məqsədimizdir.*

*Azərbaycan bir müstəqil dövlət kimi sülhsevər siyasət aparır və bu siyasətə daim sadiq olacaqdır. Biz ölkəmizdə sülh, əmin-amanlıq istəyirik. Biz bölgəmizdə, regionda sülhün, əmin-amanlığın bərqərar olmasını istəyirik. Biz Qafqazda sülhün, əmin-amanlığın bərqə-*

*var olmasını istəyirik. Biz bütün qonşu dövlətlərlə sülh və əmin-amanlıq şəraitində dostluq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək istəyirik.*

*Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir.*

*Türkiyə bizim üçün dost və qardaş ölkədir. Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bu gün də, gələcəkdə də xüsusi yer tutur.*

*Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir.*

*Azərbaycan müstəqillik əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşdur və bunlar dostluq, qardaşlıq prinsiplərinə, bizim tarixi köklərimizə əsaslanır. Müstəqillik yolu ilə getdiyi bir dövrdə bu əlaqələr Azərbaycan xalqına çox kömək edir və bizim üçün çox əhəmiyyətlidir.*

*Türkiyə Cümhuriyyətində əldə olunmuş bütün nailiyyətlər - iqtisadiyyatın inkişafı, insanların*





*rifahının yaxşılaşması, demokratiyanan inkişafı və söz azadlığı, insan hüquqlarının qorunması böyük türk xalqının çoxəsrlik tarixində ən yüksək zirvədir, ən böyük nailiyyətdir.*

*Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri böyük tarixə malikdir. Biz tarix boyu, əsrlər boyu birlikdə olmuşuq, bərabər yaşamışıq, yanaşı getmişik və öz əcdadlarımızın yaratdığı milli adət-ənənələrə, mənəviyyata sadiq olmuşuq. Tarixi köklərimiz bizi birləşdirir və əsrlər boyu öz milli mənliyimiz, milli azadlığımız, milli istiqlal uğrunda apardığımız mübarizə bizi bir-birimizə daha da birləşdiribdir.*

*Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması - hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır. Məhz buna görədir ki, biz tez-tez*

*belə bir gözəl ifadəni işlədirik. «Biz bir xalq, iki dövlətik».*

*Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir.*

*Dünyada bizim üçün, yəni azərbaycanlılar üçün ən birinci dayaq türklərdir.*

*Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.*

*Bizdən əvvəl yaşamış nəsillər də Türkiyənin həsrətində olublar, Türkiyə ilə qovuşmaq, görüşmək, əl-ələ vermək, Türkiyənin əlini sıxmaq həsrəti ilə yaşayıblar. Nəhayət, biz 1990-cı ilin əvvəllərində buna nail olduq. Bunun özü hər bir Azərbaycan vətəndaşının həyatında, o cümlədən mənim həyatımda böyük bir xoşbəxtlikdir.*

*Türkiyə hər bir azərbaycanlı üçün, bizim üçün dəyərli ölkədir, əziz diyardır. Türk xalqı bizim qardaşımız, dostumuzdur.*





*Biz müstəqillik əldə edən kimi, sərhədlər açılan kimi, bir-birimizlə əlaqələr asanlaşan kimi dostluğumuz, qardaşlığımız böyük bir fəvvarə kimi püskürdü və bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə ilə Azərbaycan keçmişdə də bir olub, bu gün də birdir, gələcəkdə də bir olacaqdır.*

*Türkiyənin bugünkü günü bizdə böyük iftixar hissi doğurur. Böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti... sürətlə irəliləyib dünyanın inkişaf etmiş dövlətləri sırasında durubdur və layiqli yer tutubdur.*

*Türkiyədə yaranmış demokratik, hüquqi dövlət, demokratik cəmiyyət, insan azadlığı, vicdan, din, söz azadlığı - bunlar hamısı dünyanın ən müasir, ən inkişaf etmiş cəmiyyətlərinin səviyyəsindədir və bizim üçün örnəkdir.*

*Türkiyənin cümhuriyyət dövründə keçdiyi yol tarixi yoldur.*

*İstəyirik ki, Türkiyədə həmişə sevinc, şadlıq olsun, çünki bu o deməkdir ki, Azərbaycan da sevinəcək, şad olacaqdır.*

*Türkiyədə yaşayan azərbaycanlı da türkdür, azərbaycanlıdır. Azərbaycanda yaşayan türk də türkdür və azərbaycanlıdır.*

*Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdir. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.*

*Türkiyə Cümhuriyyətinin qüdrətini, torpaqlarını, dövlətini, müstəqilliyini qoruyan, şəhid olan türk əsgərinin ruhu qarşısında baş əyirəm. Türkiyənin cümhuriyyət, demokratik, dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir.*

*Türkiyə-Azərbaycan əlaqələri gündən-günə möhkəmlənir, inkişaf edir, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Bizim dostluğumuz tarixi köklərimizlə, milli birliyimizlə, bir dilə,*





*bir dinə mənsub olmağımızla, eyni adət-ənənələrə, eyni mənəvi dəyərlərə mənsub olmağımızla əlaqədar gündən-günə möhkəmlənəcək, gündən-günə inkişaf edəcəkdir.*

*Bizim ümumi Türkiyə-Azərbaycan abidəsini quran, yaradan insanların qoyduğu hər kərpiclə gələcək nəsillər üçün gözəl bir abidə ucaldacağıq. O abidənin də adı əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğudur.*

*Türk - Azərbaycan xalqlarının dostluq və qardaşlığı nə qədər dərindir, güclüdür, nə qədər möhkəmdir. Bu dostluğun, qardaşlığın tarixi çox böyükdür. Əgər tarixi götürsək, bizim tariximiz də, keçmişimiz də, dilimiz də, dinimiz də, məsləkimiz də, adət-ənənələrimiz də, musiqimiz də, mədəniyyətimiz də birdir.*

*Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir.*

*Azərbaycan Rusiya ilə sıx əlaqələr saxladığı dövrlərdə çox şey qazanmışdır.*

*Biz dünya mədəniyyətinə, dünya elminə Rusiya vasitəsilə, rus dili vasitəsilə, rus mədəniyyəti vasitəsilə çıxmışıq.*

*Həm iqtisadi cəhətdən, həm ticarət, həm də mədəniyyət, elm, texnika sahəsində Rusiya kimi böyük bir dövlətlə əməkdaşlığımız çox zəruridir.*

*Azərbaycanı və Rusiyanı zəngin tarixi olan dostluq telləri bağlayır. Bu tarix illərlə deyil, on illərlə, əsrlərlə hesablanır. Həmin dövr xalqımız arasında sıx qarşılıqlı münasibətlər, xalqımızın həyatının bütün sahələrində möhkəm dostluq əlaqələri yaranmışdır. Biz mədəniyyət, elm, təhsil sahəsində, sənayenin yaradılması, aqrar bölmədə, quruculuq sahəsində, bütün sahələrdə Azərbaycana Rusiya vasitəsilə gətirilmiş nə varsa, hamısını yüksək qiymətləndiririk ki, xalqımız məhz Rusiyanın köməyi ilə, rus xalqının köməyi ilə dünya, Qərb sivilizasiyasına qovuşmuş və təhsil, elm mədəniyyət sahəsində, zənnimcə, yüksək səviyyəyə qalxmışdır.*

*Rusiya Federasiyası Azərbaycanın şimal qonşusudur, yaxın dostudur və Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının*





*dostluğunun əsasını uzun illər qırılmaz tellərlə bağlı olan əlaqələr təşkil edir.*

*Rus və Azərbaycan xalqları arasında uzun illərdən, onilliklərdən və əsrlərdən bəri adamlarda yaranmış dostluq və hörmət hisslərini məhv etmək olmaz. Azərbaycanlılarda bu hisslər Rusiyaya, rus xalqına, rus adamına xoş, dostluq, qardaşlıq münasibətləridir.*

*Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq münasibətlərinin yaxşı perspektivi var, bu münasibətlər əbədi, pozulmaz olacaqdır.*

*Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin çox böyük tarixi var.*

*Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir.*

*Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı başlıca prinsipdir və mütləq bizim bütün işlərimizin əsasında dayanmalıdır. Bu məsələlərin hansı ardıcıllıqla və necə həll edilməsi barədə bundan sonra hələ iş gedəcəkdir. Ancaq danışıqlarımızın əsas məzmunu*

*ondan ibarətdir ki, biz atəşin yenidən başlanmasına yol verməməliyik və mütləq böyük sülh əldə etməliyik. Amerika Birləşmiş Ştatları burada çox böyük və həlledici rol oynaya bilər.*

*Amerika Birləşmiş Ştatları yaşadığı tarix ərzində dünyaya demokratiya, insan azadlığı, siyasi plüralizm, azad sahibkarlıq, bazar iqtisadiyyatı sahəsində böyük təcrübə verdiyi kimi, dövlətlərin, ölkələrin, millətlərin demokratik prinsiplər əsasında əməkdaşlıq etməsi sahəsində də böyük təcrübə verir və çox böyük xidmətlər göstərir. Bütün bunlar dünya xalqlarında, o cümlədən Azərbaycan xalqında, Azərbaycan vətəndaşlarında Amerika Birləşmiş Ştatlarına, dövlət quruluşuna, onun həyat tərzinə, apardığı siyasətə böyük hörmət və rəğbət hissi oyadır.*

*Gənc, müstəqil Azərbaycan Respublikası dünyanın ən böyük, qüdrətli dövləti olan Amerika Birləşmiş Ştatları ilə bərabərhüquqlu əlaqələr qurubdur. Bu əlaqələr inkişaf edir, hər iki ölkə üçün öz müsbət nəticələrini verir.*

*Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərimi Amerika-Azərbaycan əlaqələrində tarixi hadisə hesab edirəm.*





*Amerikanın böyük tarixi və bugünkü həyatı, nailiyyətləri bütün xalqlar, xüsusən Azərbaycan üçün gözəl örnəkdir.*

*İtaliya dünyanın ən iri ölkələrindən biridir, ən inkişaf etmiş yeddi dövlət sırasına daxildir, zəngin tarixə, milli ənənələrə malikdir. İtaliya planetdə, o cümlədən Azərbaycanda bütün insanların diqqətini həmişə cəlb etmişdir.*

*Deyirlər ki, özünün tarixi ərzində bütün bəşəriyyət Yer kürəsində yeddi möcüzə yaratmışdır və onlardan biri - Müqəddəs Pyotr məbədi İtaliyada, Romadadır. Lakin bu deyilənlərə bir düzəliş etmək istərdim. Zənnimcə, burada möcüzələr çoxdur - bütün Roma şəhəri bütün bəşəriyyətin möcüzələrindən biridir. Burada hər hansı bir abidəyə, qurğuya, heykələ üstünlük vermək çətindir. Onların hamısı gözəl və əzəmətlidir, ən başlıcası isə yüksək bədiilik, yüksək sənət, yüksək mədəniyyət nümunəsidir. Məhz bu, İtaliya xalqının, belə gözəl torpaqda yaşayıb-yaratmış adamların bütün nəsillərinin istedadına olduqca inandırıcı sübutdur.*

*Gürcüstan–Azərbaycan dostluğunun ən gözəl xüsusiyyətlərindən biri odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz doğma vətənlərində, torpaqlarında yaşayırlar və Gürcüstanın bərabərhüquqlu vətəndaşlarıdır.*

*Qırmızı körpü Gürcüstan-Azərbaycan dostluğunun parlaq rəmzidir.*

*Türkiyə, Gürcüstan və Azərbaycanın – Qafqazın üç böyük və çox strateji əhəmiyyətə malik olan ölkələrinin bu cür sıx dostluq, qardaşlıq əlaqələrində olması bütün Qafqazda, onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi üçün çox önəmli bir amildir.*

*Azad, müstəqil Gürcüstan, azad, müstəqil Azərbaycan və bizim dövlətlərimizin həyata keçirdikləri siyasət Qafqazda, bütün bölgədə sülhün, əmin-amanlığın yaradılmasına xidmət göstərir.*

*Qafqazın ən qədim xalqlarından olan azərbaycanlıları və gürcüləri bir-birinə həmişə səmimi dostluq və mehriban qonşuluq münasibətləri bağlamışdır.*

*...Qırğızıstan füsunkar məmləkətdir, Azərbaycana qardaş, dost olan gözəl bir xalqın yaşadığı respublikadır. Elə bunun özü də göstərir ki, bu ölkə ilə dostluq etmək, onunla münasibətləri möhkəmlətmək və genişləndirmək lazımdır.*





*Qırğız və Azərbaycan xalqları arasında dostluğun kökləri əsrlərin dərinliklərinə gedib çıxır. Biz eyni tarixli köklərə malikik, bir dil qrupuna, bir dinə mənsubuq, milli, mənəvi adət və ənənələrimizdə oxşar, uyğun cəhətlər çoxdur. Xalqlarımız əsrlər boyu dost olmuş, bir-birini dəstəkləmiş, bir-birinə kömək etmişlər.*

*Manas qırğız xalqının böyük oğludur və eyni zamanda o, bizim hamımıza məxsusdur. Manas eyni dərəcədə bütün türkdilli xalqlara məxsusdur, elə eyni dərəcədə də Azərbaycan xalqına məxsusdur.*

*Rumın xalqı öz gözəl işləri, qəhrəmanlıq tarixi, istiqlaliyyət uğrunda mübarizəsi ilə dünyada məşhurdur. Azərbaycanda Rumıniyanı, rumın xalqını yaxşı tanıyır, onun tarixinə, qədim mədəniyyətinə, ədəbiyyat və incəsənətinə yaxşı bələddirlər. Rumıniya öz nefti ilə xüsusən daha yaxşı tanınmışdır. Qədim neft ölkəsi kimi Azərbaycan dünyanın neft istehsal edilmiş bölgələri ilə həmişə bağlı olmuşdur. Elə bunun özü də bizi Rumıniya ilə bağlayır. Bir çox Azərbaycan neftçiləri, alimləri, mühəndisləri, texnikləri, mütəxəssisləri 50-60-cı illərdə Piteşti rayonunda Rumıniyanın neft yataqlarının işlənməsində iştirak edərək, rumın xalqına öz ölkəsinin inkişafında öz dostluq köməyini göstərmişlər.*

*Azərbaycan xalqı ilə alman xalqı arasında böyük tarixi əlaqələr var. Keçmişdə Azərbaycanda çoxlu alman yaşamışdır. Xalqımızın həyatında onların rolu olubdur. Almanların keçmişdə Azərbaycanda yaşamalarının izləri indi də durur. Bu izlər və bəzi abidələr bizim tərəfdən qorunub saxlanılır.*

*Ukrayna xalqı qədim tarixə, zəngin sivilizasiyaya malikdir, ümumbəşəri sivilizasiyaya böyük töhfə vermişdir.*

*Fransa dövləti, hökuməti, cəmiyyəti həqiqətən demokratiyanın böyük nümunəsidir.*

*Fransızların adət-ənənələri, o cümlədən dövlət quruculuğu sahəsindəki ənənələri çox yüksək qiymətə layiqdir. Mən Fransada insana nə qədər böyük hörmət olduğunu gördüm. Ölkəyə 14 il prezidentlik etmiş Fransua Mitteran və yeni prezident seçilən Jak Şirak bir yerdə idilər, bayram mərasimini bir yerdə keçirdilər. Fransız xalqı həm cənab Fransua Mitteranı, həm də cənab Jak Şirakı ürəkdən təbrik edirdi, onlara hörmət və ehtiramını bildirirdi. Bunlar doğrudan da demokratiyanın ən parlaq təzahürüdür. Bunlar bizim üçün örnək olmalıdır.*





*Çin böyük bir ölkədir. Çin xalqı böyük bir xalqdır. Çin xalqının qədim, zəngin tarixi var. Çin xalqının bəşəriyyət qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilib.*

*Pakistan xalqı ilə Azərbaycan xalqının tarixi keçmişində, adət-ənənələrində çox bənzərlik var və bizim bir dinə mənsub olmağımız xalqlarımızı daim bir-birinə yaxın edib. Bu gün bunların əsasında Pakistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və sıx əməkdaşlıq əlaqələri mövcuddur.*

*Türk xalqları insanlığın min illər boyu yaratdığı sivilizasiyaya əvəzsiz, tarixi töhfələr veriblər. Demokratizm, haqq-ədalətə sonsuz inam, milli, dini, irqi ayrı-seçkiliyə qarşı barışmazlıq, vətənpərvərlik və sülhsevərlik xalqlarımızın səciyyəvi cəhətləridir. Çətin mübarizə yollarında və saysız-hesabsız şəhid qanları hesabına qazandığımız azadlığımızın, müstəqilliyimizin əbədi olmasında, milli dövlət quruculuğunun dönməz xarakter almasında biz məhz belə bəşəri dəyərlərə istinad edirik.*

*Tarixin ağır sınaqlarına zaman-zaman sinə gərmiş türk xalqları qarşılıqlı elm, mədəni, iqtisadi və siyasi əlaqələrini qoruyub saxlamış, bəşər tarixində daim önəmli mövqe tutmuşlar.*

*Türk dünyasının böyük tarixi var. Bu tarix çox möhtəşəm, şanlı, çox ləyaqətli tarixdir.*

*Müasir türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları türk dünyasının xoşbəxt sabahından soraq verir.*

*Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış, bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişlər.*

*Qafqaz dünyanın nadir regionudur. O, özünün tarixi və bugünkü mövqeyi ilə Yer kürəsinin bir çox ölkələrinin diqqətini cəlb edir.*

*Qafqaz bizim ümumi evimizdir. Onu öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək bizim borcumuzdur.*

*Biz istəyirik ki, bölgəmizdə də, bütün Qafqazda da sülh olsun, dünyanın hər yerində sülh olsun. Azərbaycanın daxil olduğu Zaqafqaziya spesifik cəhətləri ilə seçilən regiondur.*





*Qafqaz sülh regionu olmalıdır, burada sabitlik təmin edilməlidir. Qafqazda ölkələr, dövlətlər və xalqlar arasında mehriban qarşılıqlı münasibətlər olmalıdır və biz buna nail olmaqdan ötrü hər şeyi etməliyik.*

*Qafqazı sülh regionuna çevirmək, Zaqafqaziyada əmin-amanlığa və sülhə nail olmaq arzumuz regionda yaşayan milyonlarla insanın taleyi ilə bağlı olan arzudur.*

*Biz qafqazlıyıq. Qafqazda olan vəziyyət bizi narahat edir. Biz öz xalqlarımızın, ölkələrimizin bu günü, gələcəyi haqqında düşünürük. Biz eyni zamanda Qafqazda yaşayan bütün xalqlar, millətlər haqqında düşünürük. Qafqaz bizim doğma diyarımızdır və Qafqazda gedən hadisələrə biz biganə qala bilmərik.*

*Qafqazın, Zaqafqaziyanın Rusiya üçün xüsusi əhəmiyyəti var. Qafqazda, Zaqafqaziyada sülh və əmin-amanlıq bütün Rusiya Federasiyası məkanında sabitlik və sülh üçün əhəmiyyətə malik olacaqdır.*

*Müstəqil, suveren dövlətlər olan Gürcüstan, Azərbaycan, Ermənistan arasında yaxşı münasibətlər olarsa, bu, təkcə Zaqafqaziyaya deyil, eləcə də bütün Qafqaza fayda gətirəcəkdir.*

*Qafqaz dünyanın çox mürəkkəb regionudur. Burada həmişə, tarixən çoxlu mürəkkəb siyasi proseslər getmişdir.*

*Qafqaz dünyanın çox əhəmiyyətli bir bölgəsidir. Qafqazda dünya ölkələrinin çox böyük maraqları vardır. Bunların hamısını həm Qafqaza maraq göstərən ölkələrin xeyrinə, həm də Qafqazda yerləşən xalqların, ölkələrin, dövlətlərin xeyrinə həll etmək üçün sülh lazımdır.*

*Qafqaz, Qafqazətrafı region bu gün də, gələcəkdə də özündə çox potensial münaqişələr saxlayan regiondur. Ona görə də bizim, şəxsən mənim də borcumuz ondan ibarətdir ki, birinci növbədə bölgəmizdə – Azərbaycanda sülhün, əmin-amanlığın qorunub saxlanmasını təmin edək.*

*Biz istəyirik ki, bölgəmizdə sülh olsun, xalqlarımızın tərəqqisi naminə ticarət, qarşılıqlı etimad, mehriban qonşuluq münasibətləri olsun.*

*Rusiyanın Qafqaz bölgəsində həmişə mənafeyi olmuşdur.*





# TARİX VƏ TARİXİ HADİSƏLƏR HAQQINDA

*Şəxsən mən, ümumiyyətlə, tarixə, eləcə də öz xalqımın, başqa xalqların tarixinə böyük hörmətlə yanaşıram.*

*Tarix hərənin qiymətini özünə verəcəkdir.*

*1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir.*

*Məhəmməd Əmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə.*

*Azərbaycan Demokratik Respublikasını qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu şəksiz, şübhəsizdir.*

*Azərbaycanda ilk demokratik respublikanın yaranması xalqımızın milli azadlığa, müstəqilliyə və demokratiyaya olan istək və arzularının, göstərdiyi cəhdlərin ifadəsi olmuşdur.*

*Azərbaycan Demokratik Cümhuriyyətinin, onun hökumətinin ömrü qısa olmuşdur... Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir.*

*1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir.*

*Azərbaycan Demokratik Respublikasının yaranması əsrimizin əvvəlindən Azərbaycan xalqında, onun mütəfəkkir insanlarında oyanmış müstəqillik, milli azadlıq ideyalarının, arzularının, istəklərinin həyata keçirilməsi idi.*





*Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq.*

*Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq.*

*Bir adamı bütləşdirmək, ideallaşdırmaq lazım deyildir. Bu xəstəlikdən yaxa qurtarıb tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu, tarixçilərimizin əsas vəzifəsidir.*

*Tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar.*

*Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər.*

*Biz həm milli tariximizdən aldığımız mənəvi sərvətlərdən istifadə etməli, həm də bəşəriy-*

*yətin yaratdığı mənəvi dəyərlərə yiyələnməliyik.*

*Azərbaycan Respublikası qədim tarixə, zəngin mədəniyyətə, böyük təbii sərvətlərə malikdir.*

*Biz öz tariximizlə fəxr edirik.*

*Tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır.*

*Yenidənqurma deyilən dövrdə keçmiş Sovet İttifaqında gedən proseslər... çox mürəkkəb, ziddiyyətli proseslər idi və o zaman gözlənilən nəticələri vermədi. Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin yaranması son onilliklər ərzində keçmiş SSRİ-də və bütün dünyada baş verən ictimai-tarixi proseslərin qanunauyğun nəticəsidir.*

*Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik.*

*Azərbaycan qədim və zəngin tarixi olan ölkədir. Xalqımız bəşər mədəniyyətinə qiymətli incilər bəxş etmişdir.*





*Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir.*

*Azərbaycanın böyük tarixi keçmişi olduğu kimi, böyük də gələcəyi vardır. Azərbaycanın keçmişində və son illərində nə qədər əzab-əziyyətli mərhələlər, dövrlər olubsa, gələcəyində də o qədər xoşbəxt günlər olacaqdır.*

*Tarix həmişə hər şeyi öz yerinə qoyur.*

*Biz tariximizi heç vaxt unutmamalıyıq və tariximizə də heç vaxt xor baxmamalıyıq. Tarix tarixdir, həyat isə həyat.*

*Tarixi təhrif edənlər keçmiş tariximizdən özlərinə dərs götürməlidirlər. Tarixi heç kəs təhrif etməməlidir. Heç kəs tarixi dəyişdirməyə çalışmamalıdır. Tarix necə varsa, elə də var. Həyatda nə olubsa, olubdur. Tarixin o parlaq səhifələrini bu gün kimsə utana-utana, çəkinə-çəkinə xatırlamamalıdır.*

*Tariximizin hər bir səhifəsi – istər lap qədim dövrə, orta əsrlərə, istərsə də XIX əsrə, XX əsrə aid olsun – bizim üçün qiymətlidir.*

*Azərbaycanda müstəqil dövlətçilik əldə olunana qədər keçilən tarixi yol şərəfli, böyük yoldur.*

*Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir.*

*Biz keçmişimizi qiymətləndirməli, əldə etdiyimiz nailiyyətləri doğru-düzgün, ədalətlə təhlil etməli, gələcəyə baxmalıyıq. Azərbaycanın böyük gələcəyi var.*

*Tarixi qaralamaq olmaz.*

*Artıq tarixə çevrilən nə varsa, hamısının qədir-qiymətini bilmək və hamısını obyektiv qiymətləndirmək lazımdır.*

*Xalqımızın tarixinə, həyatında baş verən hadisələrə biganə qalmaq olmaz.*

*Keçmişimiz zəngindir və ondan istifadə etmək lazımdır. Amma keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb onları təkrar etmək düzgün deyil.*





*Azərbaycan xalqının böyük tarixi indiyədək lazımınca tədqiq edilməyibdir.*

*XX əsr bəşər tarixində çox ziddiyyətli, mürəkkəb proseslər dövrüdür.*

*Biz milli azadlıq əldə etdikdə, dövlət müstəqilliyi əldə etdikdə, öz millətimizdən, öz xalqımızdan, öz tariximizdən, öz keçmişimizdən açıq, ləyaqət hissi ilə danışmaq və bununla fəxr etmək imkanına nail olduqda, şübhəsiz, bir olmalıyıq, birlikdə olmalıyıq.*

*Azərbaycan xalqı 70 il sovet sosialist sistemi şəraitində yaşamışdır. Bu, XX əsrdə bizim xalqımızın həyatının böyük bir hissəsidir. Biz o vaxt dövlət müstəqilliyindən məhrum olmuşuq, ancaq respublika kimi bir çox müstəqil işlər görmək imkanına malik olmuşuq. Ona görə də bu dövrü lazımınca qiymətləndirmək zəruridir. Çünki bu dövrdə bizim xalqımız yaşamış, yaratmış, qurmuş və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən dövlət müstəqilliyini elan edərkən Azərbaycan Respublikası artıq böyük bir ölkə idi.*

*Dünyada bütün imperiyalar müharibələr nəticəsində süquta uğramışdır. Sovetlər Birliyi isə yeganə imperiya idi ki, öz-özünə dağılıb getmişdir.*

*Keçmişdə nə olmuşdursa, şübhəsiz, dəyərlidir. Bizlərdən hər birimiz öz tarixinə, öz keçmişinə, öz köklərinə böyük ehtiramla yanaşmalıdır.*

*Azərbaycan öz qədim tarixi, qədim özgür mədəniyyəti və qədim böyük alimləri olan qədim bir ölkədir.*

*Biz uzaq keçmişi də, yaxın keçmişi də həmişə obyektiv qiymətləndirməliyik. Biz keçmişdə dəyərli, yaxşı nə olmuşdursa, hamısını qiymətləndirməliyik. Yaxın keçmişimizdə yaxşı şeylər çox olmuşdur.*

*Keçmişdən nəticələr çıxararkən ətrafımızdakılar barədə, xalqımızın içərisində yaşamış, çalışmış insanlar haqqında da ciddi düşünməliyik.*

*Azərbaycan dünyanın qədim ölkələrindən biridir. Azərbaycan xalqının çox qədim, zəngin tarixi, mədəniyyəti var. Azərbaycan xalqı dünya sivilizasiyasına, mədəniyyətinə həm ədəbiyyat, mədəniyyət, həm memarlıq, həm də elmi əsərləri ilə çox böyük töhfələr veribdir.*





*Azərbaycan qədim və çox zəngin tarixə malikdir. Çoxəsrlik tarixi ərzində Azərbaycan xalqı dünya sivilizasiyasına olduqca böyük töhfə vermişdir.*

*Varislik həmişə, eyni zamanda böyük məsuliyyət demək olubdur. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır.*

*Azərbaycan xalqı zaman-zaman tarixin amansız sınaqları ilə üz-üzə gələrək yabançı rejimlər, ağır repressiyalar şəraitində yaşamalı olsa da, öz müqəddəs varlığını, milli-mənəvi bütövlüyünü, ana dilini, dinini qoruyub saxlamış, azad və müstəqil yaşamaq haqqında malik olduğunu sarsılmaz inam və qətiyyətlə bütün dünyaya sübut etmişdir.*

*İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olubdur.*

*Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.*

*Azərbaycan xalqı İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirmiş, həm cəbhədə, həm arxada vuruşaraq, çalışaraq, döyüşərək, şəhid olaraq qələbənin əldə olunmasında öz xidmətlərini göstərmişdir.*

*Azərbaycanın qəhrəman oğulları Böyük Vətən müharibəsində şücaət göstərmiş, xalqımızın qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdirmişlər və alman faşizmi üzərində çalınan qələbədə Azərbaycan xalqının da böyük payı vardır.*

*Bəşəriyyəti faşizmdən xilas etmək tarixi bir qəhrəmanlıq nümunəsidir.*





*Bizim üçün İkinci Dünya müharibəsində, faşizmə qarşı aparılan Böyük Vətən müharibəsində iştirak etmiş hər bir şəxs yüksək hörmətə malikdir.*

*İkinci Dünya müharibəsi bəşər tarixində ən ağır müharibədir. Böyük Vətən müharibəsi faşizmə, cəhalətə, təcavüzə qarşı müharibə idi.*

*Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır.*

*Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.*

*Məktəbə gedən gənc gərək Azərbaycan tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın.*

*Bugünkü gənclərimiz bu tarixdən dərs almalı, nəticə çıxarmalı, tarix boyu göstərilmiş qəhrəmanlıq nümunələrini özlərinə örnək etməli, onlara bənzəməyə çalışmalıdırlar. Onlar kimi bu gün də, sabah da hər bir azərbaycanlı övladı, gənci Vətən, torpaq yolunda, müstəqil Azərbaycan Respublikasının gələcəyi naminə şəhidliyə, özünü qurban verməyə hazır olmalıdır.*

*Sovetlər İttifaqının dağılması tarixi proseslərin qanunauyğun nəticəsidir. Bu, baş verməli idi və baş verdi. Mən bundan razıyam. Mən Sovetlər İttifaqının dağılmasını alqışlamışam və indi onun hər hansı şəkildə bərpasının əleyhinəyəm.*

*Şəhidlərimiz çoxdur, lakin hər dövrdə şəhid olanların tarixdə öz yeri var və hər dövrdə baş vermiş hadisələrin öz əhəmiyyəti var. 1990-cı ilin 20 Yanvar faciəsi xüsusi əhəmiyyət kəsb edir.*

*Əgər Azərbaycan xalqına qarşı təcavüzü bir tərəfdən Qorbaçov başda olmaqla, Sovet İttifaqının, Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyi etmişdirsə, ikinci tərəfdən və ən çox Azərbaycan Kommunist Partiyasının rəhbərliyi, Azərbaycan hökumətinin rəhbərliyi etmişdir və bu sonuncular bəlkə də daha çox günahkardırlar.*





*Biz Vətənimizi müdafiə edirik, torpaqlarımızı qoruyuruq. Ancaq 20 Yanvar faciəsi şəhidlərinin Azərbaycan tarixində xüsusi yeri var.*

*1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur.*

*1990-cı ilin yanvarında, əsrimizin sonuna yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi.*

*20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.*

*Şəhidlər Xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları, müqəddəs yeridir və ən qiymətli abidəsidir.*

*Xalqımıza qarşı bu qədər güc, silah işlətmək – Sovet İttifaqının tarixində belə hadisə heç bir yerdə, heç bir regionda, heç bir ölkədə olmamışdır.*

*1990-cı il yanvarın 20-də Sovet İttifaqının rəhbərləri, eyni zamanda Azərbaycana rəhbərlik edən şəxslər tərəfindən xalqımıza qarşı dəhşətli bir hərbi təcavüz edilmişdi. Onlar bu təcavüzü birlikdə etmişdilər.*

*1990-cı il 20 Yanvar həm xalqımız üçün böyük faciədir, xalqımızın tarixinin qara səhifəsidir. Həm də xalqımızın tarixində qəhrəmanlıq səhifəsidir, xalqımızın milli azadlıq uğrunda mübarizəsinin parlaq səhifəsidir.*

*20 Yanvar faciəsi bizim tariximizin faciəli səhifələrindəndir.*

*Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.*

*Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir.*





*Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır.*

*Xocalı şəhidləri də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi yolunda şəhid olmuş vətəndaşlarımızdır.*

*Xocalı faciəsi bizim dərdimizdir, kədərimiz, qəmimizdir. Ancaq eyni zamanda Azərbaycan xalqının əsrlər boyu keçdiyi mübarizə yolu, milli azadlıq yolu şanlı, uğurlu yoldur.*

*1937-1938-ci illərdə Azərbaycan xalqına qarşı edilən repressiya başqa respublikalardakı repressiyalardan daha da ağır, çox itkili olmuşdur. Bu həqiqətdir. Amma Azərbaycan xalqı 1948-1949-cu illərdə və sonrakı illərdə yenidən deportasiyaya məruz qalmış, demək, yenidən repressiya altında olmuşdur. Bu, bizim xalqımıza qarşı edilən ədalətsizlikdir.*

*1918-ci ilin mart ayında ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən soyqırımı xalqımıza böyük zərbələr vurmuşdur.*

# ÖZÜ HAQQINDA

*Mən respublikanın xoşbəxt gələcəyini görürəm və əmin ola bilərsiniz ki, biz bunların hamısına nail ola biləcəyik.*

*Mən keçmişdəki bütün fəaliyyətimlə fəxr edirəm.*

*Müqəddəs Məkkə şəhərində olmaq, müqəddəs Kəbə daşına toxunmaq və Kəbədə namaz qılmaq bizim üçün böyük şərəfdir. Bu şərəfə nail olduğuma görə, bu niyyət və arzularıma çatdığıma görə Allah-təalaya minnətdarlığımı bildirirəm, taleyimə şükür edirəm.*

*Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm. Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.*

*Kəbəni görmək, müqəddəs Qara Daşı öpmək, onu toxunmaq, onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu. Dua edərkən Allahdan bir arzum olmuşdur ki, Azərbaycanın müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəlalardan xilas etsin, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bizə yardımını əsirgəməsin.*

*Biz müsəlmanlar üçün ən müqəddəs yerlər olan Məkkəni, Mədinəni, Kəbəni ziyarət etməyimi həyatımın ən xoşbəxt səhifələrindən biri hesab edirəm.*

*Əgər mən insanlara lazımamsa, əgər onlar mənə ümid edirlərsə, deməli, mənim borcum sırada durmaqdır, fəaliyyət göstərməkdir.*





*Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm.*

*Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam.*

*Həyatımın ağır dövründə də daim Azərbaycan xalqının mənə olan müsbət münasibətini, hörmətini, uzaqda olsam da, duymuşam, hiss etmişəm. Bu tellər heç vaxt qırılmayıb, məni ağır imtahanlardan, əzab-əziyyətlərdən və hətta təqiblərə məruz qaldığım ağır dövrdən də çıxarmışdır.*

*Mən Azərbaycan xalqının müdrikliyinə, ağlına, zəkasına güvənirəm.*

*Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur.*

*Mən xalqa inanıram, xalqa güvənirəm.*

*Mən dəfələrlə demişəm, bu gün də deyirəm: həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm.*

*Mənim üçün ən yüksək mükafat xalqın etimadını doğrultmaqdan ibarətdir.*

*Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam.*

*Mən hər bir azərbaycanlı haqqında düşünürəm.*

*Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam.*

*Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır.*

*Məni yaşadan da, bu qədər əzmlə çalışmağıma imkan verən də həmişə xalqın etimadı olubdur. Xalqın etimadı, dayağı, xalqın mənimlə bir olması həmişə mənə ilham, güc veribdir, məni daim belə gərgin, qaynar, qızğın fəaliyyətdə olmağa sövq edibdir.*





*Mən millətimi sevən adamam, o vaxt da sevmişəm, bu gün də sevirəm.*

*Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır.*

*Mənəvi cəhətdən sağlam olmayan adam böyük dövlət işi ilə məşğul ola bilməz. Böyük siyasətlə məşğul olan, xüsusən dövlət başında olan bir adam daim xalqın dəstəyini hiss etməli və xalqın rəyi ilə hesablaşmalıdır. Xalqın dəstəyi də mənə həmişə çox ruh verir.*

*Mənim həyatım həmişə Azərbaycan xalqının iradəsinə tabe olmuşdur.*

*Nə çevrilişdən qorxuram, nə mənə qarşı terror aktları hazırlayan qüvvələrdən qorxuram. Heç bir şeydən qorxmuram.*

*Mən həyatım boyu çox imtahanlardan çıxmış adamam. Bu gün tam qətiyyətlə deyirəm ki, xalqın gücü qarşısında heç bir silah üstün gələ bilməz.*

*O şeyi ki, bəlkə çox adam hesab edir ki, mümkün deyil, mən onu edə bilirəm.*

*Məni indi həyatda başqa heç bir şey maraqlandırmır: yaşayışım yaxşıdır-pisdir, işim çoxdur, yoruluram, ya yorulmuram, əziyyət çəkirəm-çəkmirəm. Əziyyət çəkməliyəm. Mən bu əziyyəti çəkmək üçün doğulmuşam. Hər adamın bir taleyi var, bu da mənim taleyimdir. Mən də taleyimdən razıyam.*

*Mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur.*

*Təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir.*

*Mən kinli adam deyiləm.*

*Adamlar fəlakətə düçar olanda kənarda qala bilmərəm.*

*Həyatım boyu yaxşı çox şey tikmişəm. Uçurduqlarım isə adamlara mane olanlar idi... Adamlar bunu unutmamışlar.*

*Mənim vicdanım təmizdir.*





*Mən bütün həyatım boyu rüşvətxorluğa qarşı mübarizə aparmışam.*

*Mən rüşvətxora qarşı amansız olmuşam.*

*Mən heç vaxt şəxsi mənafe dalınca getməmişəm.*

*Mən həmişə dostluğa sədaqətli olmuşam.*

*Mən istəyirəm ki, məhəbbət, sevgi həmişə olsun, xəyanət, satqınlıq heç vaxt olmasın.*

*Mənim həyatım belə olub ki, heç vaxt vəzifə uğrunda nə çalışmışam, nə də cəhd göstərməmişəm. Həyat belə gətirib, məni işimə görə qiymətləndiriblər və vaxtaşırı irəli çəkiblər. Hər dəfə də mənə göstərilən etimadı doğrultmuşam. Mən özümə tələbkaram və mənə tabe olan orqanlara, şəxslərə də özümə tələbkar olduğum kimi tələbkaram.*

*Mən heç vaxt nəinki utanmıram, keçmişdə nə olmuşdursa, hamısını – mən özüm haqqında, öz şəxsi həyatım haqqında danışıram – çox böyük*

*məmnunluq hissi və qürurla xatırlayıram, özümün bütün keçmiş tərcümeyi-halımla fəxr edirəm.*

*Hakimiyyətdə olan insan liberal ola bilməz.*

*Mən öz millətimə mənsubam və xarakterimdə milli xüsusiyyətlər çoxdur və bununla fəxr edirəm.*

*Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, Azərbaycan Respublikasının bütövlüyü hər bir adamın həyatından qat-qat yüksəkdir, mənim də həyatımdan yüksəkdir.*

*Mən müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram.*

*Azərbaycan xalqının, respublikanın mənə ehtiyacı varsa, özümü kənara çəkə bilmərəm.*

*Azərbaycan xalqına, millətimə, torpağıma sadiq olmuşam və ömrüm boyu da sadiq olacağam.*





*Mən demokratiya tərəfdarıyam, bu yolla getmişəm və yenə də gedəcəyəm.*

*Gənc yaşlarımdan xalqıma xidmət etmişəm. Sosialist sistemi daxilində xalqım üçün çox dəyərli işlər görmüşəm.*

*Mən Azərbaycan dövlətçiliyinin təminatçısıyam.*

*Mən Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm. Ona görə yox ki, bu vəzifə mənə lazımdır. Bəziləri buna can atırlar. Ona görə götürmüşəm ki, öz bacı-qardaşlarıma, doğma Vətənimə, doğma vətəndaşlarıma, torpağıma xidmət edim.*

*Dəfələrlə demişəm, həyatımın son dəqiqəsinədək mən bu xidməti edəcəyəm. Məni heç nə qorxutmur, heç bir şey çəkindirmir. Mən bütün bu təxribatların, terrorun qabağında durmuşam və duracağam. Azərbaycanın müstəqilliyini qorumuşam, qoruyacağam.*

*Əgər hər hansı bir namərd gülləsi, bir terrorçu gülləsi məni həyatdan götürsə, özüm də, övlad-*

*larım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq.*

*20 Yanvar faciəsi məni dəhşətə gətirdi, çox həyəcanlandırdı. Mənə qarşı olan bütün təzyiqlərə, təqiblərə baxmayaraq, həyatım və ailəm üçün yaranmış təhlükəyə baxmayaraq, artıq siyasi fəaliyyətə qoşuldum. O mənada yox ki, bir siyasi mövqe, vəzifə tutum. Sadəcə, kənarda qalmamaq üçün. Bir də ona görə yox ki, mənim kənarda qalmağım pis olar. Ona görə ki, hiss etdim ki, mənim sözümə, fikrimə Azərbaycan xalqının indiki bu ağır dövründə böyük ehtiyacı var. Məhz buna görə, başqa məqsədə görə yox.*

*Mən Naxçıvandan uçub Bakıya enəndə o dəqiqə, o an artıq özümü şəhid hesab etdim. Mən buraya vəzifə üçün yox, xalqımın dərdinə qalmaq üçün gəldim.*

*Azərbaycanda müstəqil dövlət yaşayır və yaşayacaqdır. Azərbaycanın müstəqilliyi bizim üçün böyük nailiyyətdir. Bu nailiyyəti göz bəbəyi kimi qoruyub saxlamalıyıq və biz bunu edirik. Bir Prezident kimi mən özümün ən ümdə, ən ülvi, ən ali vəzifəmi bunda görürəm.*





*Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.*

*Mən hər şeydən çox torpağımı, xalqımı sevirəm. Öz Azərbaycan Respublikamı sevirəm.*

*Mən öz üzərimə böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim. Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, bu bayraq altında, bu şüar altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.*

*Azərbaycan mənim həyatımın mənasıdır.*

*Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur. Bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o, öz xalqına xidmət etmiş olacaqdır.*

*Bizim arzumuz ölkəmizdə sülh, əmin-amanlıq, sabitlik yaratmaqdan ibarətdir.*

*1993-cü ildə məni Azərbaycana xalq dəvət etdi.*

*1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandıqda, hakimiyyət böhranı yarandıqda, Azərbaycanı idarə etmiş adamların hərəsi bir yana qaçdıqda və camaat bir-birini öldürdükdə millətimizin ən yaxşı nümayəndələri məni Bakıya dəvət etdilər. Hiss etdikdə ki, ölkəm, xalqım ağır, fəlakətli vəziyyətdədir, dəvəti qəbul edib Bakıya gəldim.*

*Mən arzu edirəm ki, həmvətənlərimiz öz azərbaycanlılıq hissini nəinki unutmasınlar, həmişə bu hissiyyatlarla yaşasınlar.*

*Mən neçə ildir çalışıram, işləyirəm, bir məqsədim var: xalqımızı tanıtmaq.*

*Azərbaycan Respublikasına xidmət etməyi özümün ən şərəfli vəzifəm, ən ali məqsədim hesab edirəm.*

*Bütün Azərbaycan xalqının məsuliyyətini öz üzərimə götürmüşəm. Bu, mənim daxili mənəviyyatımdır, həyatımdır. Mən həyatımın məqsədini bunda görürəm, başqa heç bir şeydə yox.*





*Mənim də həyatımda çox əziyyətli günlərim, illərim olubdur. Çox faciəli illərim olubdur. Ancaq yenə də taleyimdən çox razıyam. Bu mənim taleyimdir. Bugünkü də mənim taleyimdir. Amma bu gün zəhmətdən, əziyyətdən savayı heç bir şey yoxdur. Mən bunu da özümə böyük xoşbəxtlik hesab edirəm ki, xalqıma belə böyük miqyasda, çərçivədə xidmət etmək imkanı əldə etmişəm.*

*Hər bir vətəndaşın hüquqlarının qorunması bizim dövlətimizin və Prezident kimi mənim əsas vəzifəmdir.*

*Mən çox arzu edirəm ki, bizim yüksək vəzifəli şəxslərimiz öz xalqına, öz millətinə, öz Vətəninə, öz torpağına canla-başla, səmimiyyətlə xidmət etsinlər.*

*Mənim və dövlətimizin köməyinə ehtiyac duyan hər bir azərbaycanlıya kömək etməyə hazıram. Çünki o, azərbaycanlıdır.*

*Azərbaycan gənclərinə, tələbələrinə, respublikamızın ali məktəblərinin tələbələrinə qayğı göstərmək mənim və Azərbaycan dövlətinin borcudur və biz bu borcumuzu yerinə yetirəcəyik.*

*Azərbaycanda sağlam iş görən adam mənim gözümün üstündədir.*

*Mən - Azərbaycanın bütün vətəndaşlarının həyatına cavabdehəm.*

*Doğma xalqıma və Vətənimə xidmət etməyi özümün ən şərəfli vəzifəm hesab edirəm.*

*Mən azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, onlar haqqında daim düşünürəm. Azərbaycanın Prezidenti kimi onlara daim qayğı göstərməyə çalışıram.*

*Keçmişdə etdiyim xidmətlərin nə qədər böyük olmasına baxmayaraq, mən müstəqil Azərbaycana xidmət etməyi həyatımın ən mənalı, ən əhəmiyyətli hissəsi hesab edirəm.*

*Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır.*

*Mən inanıram, əminəm ki, biz müstəqilliyin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.*





*Vətəninə, xalqına xidmət etmək hər bir vətəndaşın borcudur. Heç kəs buna görə ölkəsinə, vətəninə, xalqına minnət qoya bilməz. Ancaq xidmətə görə etimad almaq və bu etimadı doğrultmaq böyük şərəfdir. Mən xoşbəxtəm ki, həyatım boyu Vətənimə, ölkəmə, xalqıma xidmət etmişəm. Mən bunu həmişə həyatımın, ömrümün mənası hesab etmişəm. Bu gün də sona qədər mənim ömrümün mənası xalqa sədaqətlə xidmət etməkdən ibarət olacaqdır. Ancaq xalqa xidmət edən hər bir kəs öz xidmətinin qiymətləndirilməsi arzusunda olur. Mən də həmişə bu arzuda olmuşam.*

*Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma Vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir.*

*Mən qələbəmizə inanıram.*

*Bir vaxtlar niyyətim o olub ki, Azərbaycan Respublikası müstəqil dövlət olsun, xalqımız azadlığa çıxsın, istiqlal əldə edilsin. Allaha*

*şükürlər olsun ki, biz artıq bu günlərə gəlib çıxmışıq. Respublikamız müstəqil dövlətdir, dünya tərəfindən tanınır. Xalqımız azaddır, özü öz taleyinin sahibidir, bundan sonra da azad olacaqdır. Mənə elə gəlir ki, bütün bunlar Vətənini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının niyyəti olub. Uzun illər dövlət işləri ilə və siyasi fəaliyyətlə məşğul olduğum üçün bu fikirlər bəlkə də mənə daha doğma, daha əziz olub. Niyyətimizə çatmışıq.*

*Mən heç vaxt yalnız bu günü düşünərək yaşayıb işləməmişəm.*

*Mən istəyirəm ki, azərbaycanlılar harada yaşayırlar-yaşasınlar, əhalinin, cəmiyyətin aşağı təbəqəsində, orta təbəqəsində yox, yüksək təbəqəsində olsunlar. Bu, mənim istəyim, arzumdur.*

*Azərbaycanın xoşbəxt gələcəyinə mən tam inanıram.*

*Mən Azərbaycanın çox gözəl gələcəyini görürəm.*

*Mən əminəm ki, Azərbaycanın dövlət müstəqilliyi gündən-günə möhkəmlənəcəkdir. Azərbaycanın müstəqil siyasət aparması artıq dünyada ölkəmizə böyük hörmət qazandırmışdır.*





*Mən Azərbaycanın gözəl gələcəyinə inanıram və xalqımızın gələcəkdə firavan yaşayacağına inanıram.*

*Mən özümü mənəvi cəhətdən təmin olunmuş adam hesab edirəm. Bu isə hər şeydən üstündür.*

*Mən həmişə teatrı sevmişəm, ondan çox faydalanmışam. Həyatımın ağır dövrlərində də mən teatrımıza hörmət və ehtiramımı saxlamışam, heç vaxt ondan ayrılmamışam.*

*Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir.*

*Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur.*

*Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən – Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır.*

*Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı xalqın azadlığına həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm. Həyatımı Azərbaycan torpağında qurub-yaratmağa həsr etmişəm.*

*Torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması, Azərbaycanın bir müstəqil dövlət kimi yaşaması mənim məqsədimdir. Mən buna nail olmaq istəyirəm və gələcək nəsillərə də çox qüdrətli, güclü, inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm. Mənim məqsədim bundan ibarətdir.*

*Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.*





# İÇ SƏHİFƏDƏKİLƏR

DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA 13

ORDU QURUCULUĞU 47

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ QAÇQINLAR 65

KONSTİTUSİYA VƏ QANUNÇULUQ 81

İQTİSADİYYAT 65

DİL 111

TƏHSİL VƏ ELM 117

MƏDƏNİYYƏT, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT 129

BƏDƏN TƏRBİYYƏSİ VƏ İDMAN 141





147 EKOLOGİYA

153 MƏNƏVİ DƏYƏRLƏR

175 AZƏRBAYCAN XALQI

193 VƏTƏNPƏRVƏRLİK VƏ ŞƏHİDLİK

213 MİLLİ MÜNASİBƏTLƏR

223 TERRORİZM, SEPARATİZM, RÜŞVƏTXORLUQ VƏ CİNAYƏTKARLIQ

231 QADIN VƏ AİLƏ

237 UŞAQ VƏ GƏNCLƏR

255 ZİYALILAR VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR

287 MÜXTƏLİF VƏZİFƏ VƏ PEŞƏLƏR

303 AZƏRBAYCANIN ŞƏHƏRLƏRİ VƏ BÖLGƏLƏRİ

311 SİYASİ PARTİYALAR VƏ MÜXALİFƏT

317 KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

323 DÜNYA AZƏRBAYCANLILARI

333 DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

359 TARİX VƏ TARİXİ HADİSƏLƏR

377 ÖZÜ HAQQINDA